AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU

FƏRİDƏ HİCRAN (Vəliyeva)



# ZİNƏT ƏŞYALARININ MİFİK ANLAMI

## (Böyük Türk dünyasının folklorunda)

# ÖN SÖZ

Tanınmış yazıçı və alim Fəridə Hicran neçə illərdən bəridir ki, inanclarla, əfsanə, nağıl və adət-ənənələrlə bağlı tədqiqatlar aparır. Alimin güzgü ilə bağlı araşdırması folklorşünasların və oxucuların ciddi marağına səbəb olmuşdur. Həmin əsərə məmnuniyyətlə rəy vermişdirm. Fəridə xanımın yaradıcılığı, təfəkkürü, məxəzlərlə işləmə qabiliyyəti mənə tanış idi. Odur ki, Fəridə xanım “Türk dünyasının folklorunda zinət əşyalarının mifik anlamı”əsərinə rəy verməyimi xahiş edəndə tərəddüd etmədən razılq verdim. Amma ikinci bir səbəb də vardır. XX əsrin 60-70-ci illərində İraqda işləyərkən nücum elmi və inanclarla bağlı tədqiqatlar aparmış, 1985-ci ildə “Altı il Dəclə-Fərat sahillərində” kitabında nücum elminə və qiymətli daş-qaşlara geniş yer ayırmışdım. Müxtəlif bürclər altında doğulanlar üçün hansı daş-qaşın düşərli olacağını göstərmişdim. Məsələn, Dolça bürcü altında doğulanlara ametist – səmimiyyət rəmzi, Balıqlar bürcü altında doğulanlara – akvamarin – həqiqət rəmzi, Qoç bürcü – brilyant – məsumluq rəmzi, Buğa bürcü – zümrüd – xoşbəxtlik rəmzi və s. vermiş və göstərmişdim ki, bu nəsildən nəslə keçən inamların nəticəsidir.

Fəridə Hicranın əsəri isə sanballı bir tədqiqatın nəticəsidir. Qiymətli daş-qaşlara həsr olunan bu qiymətli əsər həcmcə böyük olduğundan demək olar ki, bütün zinət əşyalarını əhatə edir. Əzərdə zinət əşyaları ilə bağlı lap qədim zamanlardan günümüzə qədər gəlib çıxan inanc və miflər izlənir və müəllifin dediyi kimi incə mətləblər çözələnir.

Tədqiqatçı İbn Sina və Nəsrdəddin Tusinin bu sahədəki xidmətlərini gündəmə gətirir, Nəsrəddin Tusinin “Cavahirnamə” əsərində qiymətli daşların quruluşundan, növündən, keyfiyyətindən və xalq hikməti ilə bağlı mifik anlamından söz açdığını xüsusi vurğulayır və qeyd edir ki, Nəsrəddin Tusinin əsərinin əsas məğzi xalqdan toplanan üst-üstə düşür. Ən əsası isə odur ki, müəllif qiymətli daşların

müalicəvi xarakterini də gündəmə gətirir. İnsanlar inanırlar ki, zümrüd qaş-gözə nur verir, firuzə - şən əhval-ruhiyyə yaradır və s.

Bu əvəzsiz əsərdə ayrı-ayrı daş-qaşlarla bağlı nağıl, əfsanə və rəvayətlərdə mayasındakı həmin əşyalara dair uğur gətirən yozumlar və inanclar xüsusi yer tutur.

Əsərdə zinət əşyaları düzəldilən bütün qiymətli daşlardan, onların yaranmasından, keyfiyyətindən də söz açır.

Müəllif əsəri yazarkən ta qədim zamanlardan indiyə kimi məlum əsərlərdən bəhrələnmiş və dəyərli bir əsər yazmışdır. İnanıram ki, bu kitab folklorşünasların və oxucuların, xüsusən də qadın və qızların stolüstü kitabına çevriləcək. Odur ki, əsərin çapını tövsiyə edirəm.

**Qəzənfər Paşayev**
filologiya üzrə elmlər doktoru, professor

# QİYMƏTLİ DAŞLARA İNAMIN İZLƏRİ TARİXİN ƏN QƏDİM QATLARINDA

***Xalqın söylədiyi hər bir ifadənin arxasında bir gerçəklik inikası yaşayır. Xalq sözü yalan olmaz, yanlış ola bilər.***
**F.Hicran**

***Ölmüş fikir yaranan fikrin sələfidir.***
***M.Seyidov***

Uzaq keçmişimizə boylanmaqla dünənimizlə bu günümüz arasında yaratdığımız yaddaş körpüsündə ulu sələflərimizin idrak xəzinəsini, ruhi duyğusunu, tarixin müxtəlif dövr və mərhələlərində yaşadıqları adilikləri və qeyri-adilikləri xatırladıqca ən incə mətləblər çözələnir…

Ulu əcdadlarımızın həyat, yaşamaq, var olmaq uğrunda apardıqları mübarizə səhnələri gözlərimiz önündə canlandıqca, tarixin bütün qatlarında qədim insanların mücadilə prosesində təzahür edən düşüncəsinə, fəhminə, müdrikliyinə həssaslığına heyran qalmamaq olmur.

Nəzəri fikirdən bəllidir ki, hər bir etnosun mifoloji inamının xarakterinin, adət-ənənələrinin, mənəviyyatının və s. formalaşmasına yaşadığı coğrafi mühitin mühüm təsiri olmuşdur. Əsas yaşayış yerləri dağların, daşların oyuğu, qayaların, dərələrin dibi olan ibtidai insanın elə təkcə daş dövrünü iki dəfə yaşadığını düşünsək, onların daşlara, dağ süxurlarına, minerallara olan müqəddəs inamlarının haradan doğduğunu anlamaq o qədər də çətin olmaz. Təbii ki, ibtidai insan daşların, dağ süxurlarının, sözün bütöv mənasında, mineralların öz həyatı üçün önəmli və vacib tərəflərini müşahidə etdikcə, onlara qarşı laqeyd qala bilməzdi. Uzun zaman fasiləsindən sonra e.ə. VI–IV minilliklərdə ibtidai insanın daşla bağlı yeni bir dövrü – Daş-Mis dövrünü də yaşaması onun məişətinə daha bir elementi daxil etdi (21, 3-9).

Paleolit – qədim daş dövrünü yaşayıb daşlara sığınan

insan Neolit və Eneolit mis daş dövrünü də yaşamaqla daşlara daha çox bağlandı (21, 9).

Eneolit – mis-daş dövrü insanın daş və mis elementinə qarşı həssaslığını artırmaya bilməzdi (21, 10-11).

Bu məhz o zaman idi ki, insanlar daşdan və metaldan əmək aləti və yaşamaq üçün mübarizə vasitəsi kimi istifadə etməyə başlamışdılar. Belə bir şəraitdə onlar daşın qüvvəsinə daha çox inanırdılar və bu inam zaman keçdikcə sitayişə çevrilirdi. Hətta bu inamın qalıqları müasir dövrümüzə qədər gəlib çatmışdır.

Folklorşünas Sədnik Paşayevin daş kultuna dair topladığı əllidən çox rəvayət xalqımızın daşa inamını təcəssüm etdirən əsas mənbələrdəndir (28, 46-101). Belə nümunələr dünya və türk xalqlarının, o cümlədən xalqımızın folklorunda kifayət qədər çoxdur. Daşa inam xalqımızın yalnız folklorunda yox, qədim dövrlərdən indiyə kimi doğma yurdumuzun müxtəlif yerlərində dağla bağlı sitayişə çevrilən abidələrdə də təcəssüm olunur. (Abşeronun Novxanı kəndi yaxınlığındakı «Ağdaş» piri, Quba rayonundakı «Ayin daşı», Şamaxı rayonundakı “Baba dağı”, Quba yolundakı “Beşbarmaq dağı” və s.). Məlumdur ki, müqəddəs dinimizdə də daşa bağlı inam mühüm yer tutur. Dini inama görə Kəbədəki Qara daş Adəm cənnətdən qovulanda Tanrı tərəfindən ona verilmiş “Ağ inci”dir. Adəm də “Ağ yaqut”u Məkkəyə gətirib və daş sonradan insanların günahı ucbatından qaralıbdır.

Daş ayini ilə bağlı «Mənim daşım ağırdır», «Onun daşı başına düşsün», «Gəl ətəyindən daşı tök», «Səni görüm qara daş olasan», «Dəliliyin daşın at» və s. kimi bir çox ifadələrin qalıqları daşın insan həyatı üçün əhəmiyyətli tərəflərindən irəli gəlir.

Bulaqda daş olaydım,
Gözündə yaş olaydım,
Hər gün səni görmək üçün
Üzüyündə qaş olaydım (2).

Xalq arasında geniş yayılan belə bayatılar da uzun illər

daşlara tapınmanın izidir. Hətta insanlar elə hesab etmişlər ki, onların ruhu daşlarda da yerləşə bilir. Daş insanın ruhunun daşıyıcısıdır. Yəqin ki, qəbirlərin baş tərəfindən qoyulan «baş daşı» ənənəsi də ruhun daşda yaşaması inamı ilə birbaşa bağlıdır.

Qardaşım bir daş oldu,
Anama sirdaş oldu,
Anam hey çağırsa da,
Dillənmədi, yaş oldu (2)

Və ya:

Oturmaram başdan mən,
Yemərəm hər aşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən. (2)

Hər iki bayatının zəngin məna çaları vardır, ancaq ilkin nəzərə çarpan məna insanın daşdan yaranışı və dünyasını dəyişən insanın ruhunun daşa köçürülməsidir.

Çax daşı, çaylax daşı,
Bir-birinə çax daşı.
Dayanma, söyləginən,
Tanrı versin yağışı. (29)

Azərbaycanın şimal-şərq rayonlarında da daşa inamın izi kimi hava quraqlıq keçərkən daşları bir-birinə sürtüb tanrıdan yağış diləyərmişlər. Xalqın inancına görə çay daşının dini ayin obyekti olması üçün onun bütövlüyü də əsas şərt imiş.

Qədim inamlara görə, hər bir şəxsin özünəməxsus daşı mövcud imiş. Daşa insan ruhunun yerləşdiyi yer kimi baxmaqla yanaşı, hətta onu əvəz edəcək bir qüvvə kimi də qiymətləndirərmişlər.

"Daş atma" adlanan bir ayin bu gün də icra olunur, hətta Həcc səfərində, yəni dünya müsəlmanlarının ən müqəddəs ziyarətgahı hesab olunan, Peyğəmbərimizin (s.ə.s.) müqəddəs iqamətgahında şeytana daş atma ənənəsi indinin özündə də davam edir.

Qarabağda yas mərasimi vaxtı cənazə götürülərkən yerinə bir qara daşın qoyulmasında əsas məqsəd o olub ki, müqəddəs daş öz xeyirxah qüvvəsi ilə ruhun mənfi enerjisini həmin evdən təmizləsin, bir də bu evdə şər iş olmasın, həmişə müsbət, uğurlu hadisələr baş versin.

İtirdim nə qardaşlar,
Nə dostlar, nə tanışlar.
Qorxumu götürdülər
Şəvələr, qara daşlar. (29)

Burada artıq ibtidai insan qiymətli daş kultunun ecazkar tərəflərini aramağa başlayır. Doğrudan da, «şəvə» adlanan zil qara daş qorxunu götürmək üçün əsas vasitələrdən biri kimi uzun illər boyu xalqın dərin inam obyektinə çevrilmişdir. «Şəvələr, qara daşlar» deməklə bayatı söyləyən, yəqin ki, şəvədən başqa, bir çox qiymətli daşların da qorxu götürmək qabiliyyətinə malik olduğunu vurğulayır ki, bu gün biz onların bəzilərini tanımırıq, bəzilərini isə aramağa çalışacağıq.

Süfrəyə aş yaraşır,
Kirpiyə qaş yaraşır.
Qızıl üzüyə yaqut,
Gümüşə ağ qaş yaraşır. (29)

Bayatıdan məlum olur ki, artıq insanın bir çox daş-qaşları adlandırmaq qabiliyyətləri meydana çıxıb. Qiymətli daş olan yaqutu insan tanıyır, qızıla saldırır və ulu insan yaqutu heç vaxt təsadüfi olaraq bu cür yüksək qiymətləndirmir. Çox güman ki, bu, mis-daş dövründən başlanan mərhələdir. Çünki bir çox arxeoloji qazıntılar sübut edir ki, hələ eramızdan əvvəl IV minilliyin sonu, III minilliyin əvvəllərindən başlayaraq, ölkəmizdə metaldan istifadə edilməyə başlanmışdır (16,102). Və burada bu qiymətli daşın metal məmulatı ilə qoşalaşdırılması da heç vaxt təsadüfi ola bilməz. Əgər ən qədim mərasimlərimizdən olan toy mərasimindəki bəzi adətləri araşdırsaq, bu məsələyə aydınlıq gətirə bilərik. Məlum məsələdir ki, toy insanın həyatında ən mühüm hadisələrdən biri

olduğu üçün insan həmin günü qorunmağa çalışır, şər qüvvələrin, bəd nəzərin, pis ruhların xətər yetirəcəyindən ehtiyat edir. Buradan belə bir nəticə çıxarmaq olar ki, uzun illər boyu insanlar sığındığı daşlara, istifadə etdikləri metal məmulatlarının köməyinə inanmış, onların mahiyyətini anlamasalar da fərqinə varmağa çalışmışdılar.

Budur, Şahdağ etnik qrupuna daxil olan buduq, xınalıq, qırızların ənənələrinə diqqət edək: mövcud adətlərə görə, onlar gəlini oğlan evinin həyətinə gətirib çıxardıqdan sonra, onun başına şirniyyat, arpa-buğda ilə yanaşı xırda dəmir qırıntıları və ya mıxlar da səpirdilər və inanırdılar ki, bununla onlar gəlinə xoşbəxt, firavan həyat bəxş etməklə yanaşı bəd nəzərdən, pis ruhlardan da qoruyurdular (20, 90). Hətta gəlin bəy otağına girərkən ayağının altına dəmir də atardılar, bəzi rayonlarda isə gəlinin ayağı altına mis məcməyi qoyurlar. Quba-Xaçmaz bölgəsində təzə mal-qara alanlar malın ayağı altına dəmir əşya atardılar (20, 19). Bəzi rayonlarda isə gecə çay kənarına, su üstünə gedənlər başlarının üstündə dəmir əşya yellədər və belə hesab edərlər ki, guya, onlar özlərini su pərisi Serovidən mühafizə edirlər və s. (20, 20). Daşa sığınan, onun qəribəliklərini dəfələrlə sınayan, müşahidə edən ulu xalq, nəhayət ki, daşlara qiymət verməyi də bacarmış, bu əşyalar arasında olan fərqli xüsusiyyətlərini sezmiş, gözəlliyinə, möhkəmliyinə, keyfiyyətinə, təbiiliyinə və xüsusən də insan həyatındakı müsbət rolunu nəzərdən qaçırmayıb, ona sehrli qüvvə kimi yanaşaraq qızıla, gümüşə bağlayıb üzərində gəzdirməyi vacib bilmişdir. O zaman artıq insanlar çox, yaxud az dəyərli daşların, dağ süxurlarının, qayaların insan həyatı üçün son dərəcə əhəmiyyətli və vacib təbiət töhfəsi olan minerallarınmahiyyətini anlamağa başlayırlar.

Dönərəm daşa dönüm,
Üzükdə qaşa dönüm,

Yar bizə qonaq gəlsin
Dolanıb başa dönüm.

Daşa inamın dərin izi bu bayatı da çox aydın müşahidə olunur. Daşa dönməyi daha önəmli hesab edən ulularımız üzüyün qaşını da vurğulamaqla daş-qaşa tapındığını bilavasitə açıqlayır. Yarın başına dolanmaq isə ilahi eşqin izharıdır. Folklor materiallarında bu cür bayatılar son dərəcə çoxdur, rəngarəng və çoxvariantlıdır.

İstər daş, istər metal məmulatlarının folklor materiallarındakı izi hər iki ünsürün insan həyatı üçün uğurlu olan tərəfləri ilə bağlıdır. Qiymətli daşları başqa daşlardan seçib araşdırmaq da, söz yox ki, ibtidai insanın müdriklik yaşamının bir tərəfidir. Tarixin ən dərin qatlarında bu qəribə ecazkar xüsusiyyətlərə malik (məmulatları) elementləri tapıb, tanıyıb, seçib-arayan ibtidai soylarımızın fikirləri ilə sonrakı inkişaf dövrünün yaradıcı şəxsiyyətlərinin fikirlərində yaxınlıq varsa, bu, doğrudan da, bəşər övladının şüuru ilə bağlı böyük sədadır, səsdir. İbtidai insan şüuru ilkin çağlarda tədricən inkişaf etdikcə daş-qaşların və bir çox metal məmulatların uğurunu, mahiyyətini müşahidə edərək onların müxtəlifliyinin fərqinə varır, bir çox tərəflərini sınaq obyektinə çevirir, hətta tibbi anlamına belə laqeyd qalmır.

Tarixin sonrakı mərhələlərində artıq qiymətli daşlar seçilmiş olur, təfəkkür formalaşdıqca müşahidələr güclənir, inanc mövqeyi təkmilləşir və hətta dünya şöhrətli bir çox mütəfəkkirlər nəinki bu inanclara laqeyd yanaşmır, hətta öz əsərlərində onu təhlil etmək, arayıb-axtarmaq təşəbbüsündə olurlar. Orta Asiyada Əbu Əli ibn Sinanın, məşhur ensiklopedik biliyə malik alim Məhəmməd Nəsrəddin Tusinin, Əbu Reyhan əl-Biruninin və s. bu sahədəki araşdırmaları, şübhəsiz ki, əvəzsizdir.

Əbu Əli İbn Sina əgər daşların təbabətdəki rolunu özünün «Tibb elmi qanunları» əsərində şərh edirdisə, Məhəmməd Nəsrəddin Tusi «Cavahirnamə» əsərində onların quruluşundan, növündən, keyfiyyətindən və xalq hikməti ilə bağlı mifik anlamından bəhs etmişdir. Ən maraqlı burasıdır ki, bu əsərin əsas məğzi xalqdan toplanan tədqiqatlarla üst-üstə düşür.

Baxmayaraq ki, cüzi istisnalar nəzərə çarpır, ancaq bütövlükdə araşdırma xalqın bu sahədə söylədiyi hikmətli fikirləri aydın şəkildə əks etdirir. Əsrlər ötməsinə baxmayaraq, hətta zərgərlik məmulatları ilə bağlı istehlakçıların da müəyyən mənada fikirlərinin bu tədqiqatlarla səsləşən tərəfləri çoxdur. Əgər tədqiqatlarda firuzə, yaqut, zümrüd bir qiymətli daş olaraq daha çox təsvir edilirsə və daha çox uğurlu rəmzlərlə bağlıdırsa, istehlakçılar tərəfindən Almaz daha yüksək qiymətləndirilir və s. bu cür uyğunsuzluqların olmasını nəzərə almasaq, demək olar ki, hər üç mənbə bir-birinə çox uyğun gəlir.

Artıq bu məlum həqiqətdir və tədqiqatlardan da aydınlaşır ki, xalq öz mifik təfəkküründə daş-qaşları təkcə zinət əşyası deyil, həm də sehrli, uğur gətirən qüvvə kimi qətiləşdirmişdir. Ulu xalq inanmışdır ki, daş-qaşlar insan həyatındakı **uğurlu hadisələrə, şər qüvvələrə, qorxuya, səksənməyə qarşı, ailə həyatının möhkəmliyinə, döyüş zamanı qələbəyə, yaxşı yuxunun çinliyinə, bəd yuxunun batilliyinə, gözün nuruna, sevginin uğuruna** köməkçi vasitədir.

Bu da məlumdur ki, qiymətli daşlar, əslində, təbiətdə nadir tapılan minerallardır və bunun da xalq təbabətindəki rolu şübhəsizdir. Qiymətli daşların müalicəvi rolu hələ ibtidai dövrdə insanın diqqətindən yayınmamışdır. Qədim insan inanmışdır ki, **ametist qaş** sərxoşluğun qarşısını alır, (20, 90) **zümrüd qaş** gözə nur verir, (20, 90) **firuzə** şən əhval-ruhiyyə yaradır. Hətta xalq arasında belə bir inam da var idi ki, sapfir ilanı öldürür, zümrüd daşı gürzə ilanı kor edə bilir və s.

**İstəkli oxucularıma...**

İstəkli oxucum, bu tədqiqata ayrı-ayrı qiymətli daş-qaşlarla bağlı inancları, sınamaları sıralamaqla başlamağı qərara aldım və hər bir daş-qaşa: qızıl, gümüş, platin, mina və s. zinət əşyalarına dair topladığım materiallarla bərabər, nağıl, əfsanə və rəvayətlərin mayasındakı həmin əşyalara aid uğur gətirən yozumları, inancları da yazmağı planlaşdırdım ki, yorucu olmasın. Bu əşyalara dair söyləməli, yazmalı fikirlər

sonsuzdur və toplanılıb, əlimdə hazırdır. Ancaq mən fikrimi yekunlaşdırıb bir kitab olaraq geniş oxucu kütləsi üçün tədqiqatı bütövlükdə bura vermədim. Sizləri incitməmək, sizləri yormamaq naminə düşündüm ki, aqillər əbəs deməyiblər ki, hikmətə bax, gör nə demiş atalar: qısa sözdə olar dərin mənalar.

Təbii ki, tədqiqat işində yox, ancaq bir kitab olaraq, mən bu əsərdə mövzunu uzatmayıb, yekunlaşdırdım və düşündüm ki, oxucu üçün əsas mətləbə keçmək daha maraqlı olar.

Bir neçə ümumişlək olmayan, yəni bəzi oxucular üçün tanış gəlməyən və bu kitabda tez-tez işlətdiyim ifadələrin açmasını da qeyd etməyi vacib bildim. Bunlardan biri **«Korund»** ifadəsidir ki, almaz və bu mənşəli daşların tərkibində olan ən əsas mineraldır.

**Karat** – qiymətli daşlarla bağlı iqtisadçıların işlətdiyi ölçü vahidi olub qramın beşdə bir hissəsini təşkil edir.

**«İnci»** sözü həm zinət əşyalarının məcmusu, həm də yalnız mirvari kimi işlənən bir ifadədir.

**«Gövhər»** də ümumi zinət əşyaları, yəni cavahirat mənasını bildirməklə bərabər, həm də tarixin müəyyən mərhələlərində nadir bir qiymətli daşa aid ifadə olub.

**Ləl** daşın da bəzi məxəzlərdə bəzən gövhər adlandırılması vurğulanır.

**Şpindel** ifadəsinə gəlincə isə, ümumiyyətlə, ləl və yaqut hər ikisi, adətən, yəni daha çox qırmızı rəngdə olur və demək olar ki, həmişə bir yerdən tapılır və şərqdə bu qiymətli qaşların hamısına **şpindel, qırmızı qranat, yaqut və ya rubin**, ya da **ləl** deyilir. **Rubinin**, yəni yaqutun və sapfirin tərkibinin eyni olması korundun müxtəlif rəngli forması kimi qəbul edilir. Ləl öz parıltısına görə bu daşlardan çox fərqlənir.

**Zefir qaş** isə almaza aid ifadədir. Almazın bir növüdür. Ancaq bu ad tarixin müəyyən mərhələlərində, yəni artıq almazın mifik anlamda "qələbə", "zəfər" rəmzi tək qətiləşdiyi bir zamanda, hökmdarların bu daşa sığınaraq, inanc kimi üzərində gəzdirib, zəfər çaldığı vaxtlarda yaranıb.

Maraqlı burasıdır ki, rəvayətlərin qayəsində də, müşahidə edəcəyimiz maraqlı süjetlərdə də «**Almazın zefiri**» müxtəlif rəng çalarına malik olur. Yəni «zefir» adlanan almaz növü sarıya, çəhrayıya, yaşıla çalır. Bəzən isə bir neçə rəngi əks etdirir. Bu, Almazın tərkibinə yeni mineralın daxil olması ilə əlaqədardır.

Xalqın mifik təfəkküründə daim yaşamaq, yaratmaq uğrunda mübarizə və bu mübarizədə qələbə qazanmaq arzusu onlara bir çox canlı və cansız əşyalara tapınma hissini aşılayıb. İbtidai insan tarixin müxtəlif anlarında gah ata, gah qoyuna, xoruza, daşa, qiymətli zinət əşyalarına və s. müxtəlif varlıqlara xüsusi inanc yaratmaqla ancaq öz məqsədlərinə çatmaq üçün yol axtarıblar. Daha bəsit söyləsək, özləri üçün xoşbəxtlik mənbəyi seçməyə çalışıblar. Və bunu da qətiyyətlə qəbul etmək lazımdır ki, bu hadisə heç vaxt təsadüfi baş verməyib. Bu inama, haradasa, bir əsas verən amil olub. Yəni istər zinət əşyalarına, istər güzgü predmetinə və ya başqa əşyalara ibtidai insan kortəbii şəkildə yanaşmayıb. Haradasa müşahidələr, sınaqlar onları bu predmetlərin bu cür rəmzləşməsinə sığındırıb, inandırıb. Əgər qəbul etsək ki, bir sıra qiymətli daş-qaşların faydalı elementlərdən, insan orqanizmi üçün son dərəcə vacib minerallardan ibarət olduğunu ibtidai insan, əslində, anlayıb, ancaq onun mahiyyətini, elmi əsasını araşdıra bilməyib və buna görə də bu əşyalara sehrli, tilsimli qüvvə kimi yanaşıb, onda əsl həqiqətin izinə düşmüş olarıq.

İnsan arzularının mənbəyini daha çox şifahi xalq ədəbiyyatı açır. İnsanın istəyi, arzusu, yaşamaq, haqqını qazanmaq uğrunda mübarizəsi nağıllarımızın, rəvayət və əfsanələrimizin, dastanların və hətta bayatı, oxşama, vəsfi-hal kimi şeir nümunələrinin məğzində özünə həmişəlik yer edib. Bu baxımdan şifahi ədəbiyyatımıza ensiklopedik məlumatlar kitabı da desək, yanılmarıq. Müqəddəs Dədə Qorqud dastanında dağların, daşların, bulaqların xüsusi önəmi olub. Oğuz cəmiyyətinin əhatəsində olanların dağlara-daşlara laqeyd

qalması mümkün deyildi. «Kitabı-Dədə Qorqud»dan da görürük ki, daşa çevrilməyə, daşa dönməyə inam oğuzlar arasında daha çox müşahidə olunur. Hətta Dirsə xan oğlunun ölümcül yaralanmasının səbəbini Qazlıq Dağında görür və:

Keyiklərin qaçır sənin, Qazlıq dağı
Qaçar ikən qaçmaz olsun, daşa dönsün. (18, 246)

misralarını dilə gətirir.

Daşa tapınmanın izlərini nağıllarımızın da mayasında aydın izləyə bilərik.

**«Daş üzük»** nağılı daşın bütün sehrli tərəflərini əks etdirən əsaslı mətndir. Burda xeyirxah, ədalətli və müdrik keçəlin ilanı xilas etməsi, ilanların padşahından dilinin altındakı üzüyü alması və nəhayət, daş üzüyün vasitəsi ilə bütün arzularına çatması, hətta padşahın qızı ilə ailə qurması çox aydın verilir. Süjetin müəyyən məqamlarında üzük keçəlin əlindən çıxır və onun xeyirxahlığı, nəfssizliyi nəticəsində pişiyin, göyərçinin vasitəsi ilə yenidən özünə qayıdır. Keçəl daş üzüyün sehri ilə çətinliklərdən qurtulur, kasıbçılığın daşını atır və xoşbəxt həyata qovuşur (5, 62).

Daha sonra «Ələddin və onun sehrli çırağı» nağılında da daş-qaşların, zinət əşyalarının insanlara fəallıq, cəsarət və xoşbəxtlik gətirməsi vurğulanır. Guya, yeraltı bağda ağaclar meyvələri ilə birlikdə ağ mirvaridən, açıq qırmızı və göy yaqutdan, yaşıl zümrüddən, mavi firuzədən, bənövşəyi ametistdən yaranmışdır. Bunları Ələddin öz sehrli çırağı vasitəsilə edir və s. Əlbəttə, belə misallar yetərincədir.

Təbii ki, bu nağıllar təsadüfi söylənilmir: ilkin insan öz fantaziyasında həyatda rastlaşdığı, inandığı lakin əsl mahiyyətini dərindən dərk edə bilmədiyi hadisələri əks etdirir. Daş-qaşlar meyvə deyil, heç vaxt qida məhsulu kimi qəbul edilə bilməsə də, insan orqanına həmin qidadan da qat-qat gərəklidir və hər bir daşın tərkibindəki minerallar, üzvi maddələr heç də meyvənin tərkibindəki vitaminlərdən az deyil. Yəqin ki, bütün bunları verməklə ulularımız insanı axtarışda olmağa səsləmək istəmişdir.

**«Üç şahzadə»** (4, 192**)** adlı nağıla diqqət edək. Burada qızlar ailə quracağı oğlanların bacarıq, namus-qeyrət, ağıl və qabiliyyətini yoxlamaq üçün sınaqdan keçirir (4, 62).

Qızlarla evlənmək istəyən qardaşların kiçiyi dünyagörmüş piranilərin öyüd-nəsihətləri ilə tilsimi sındırır. O, aslan və qaplana üstün gəlir, sehrli qılıncı qırır, od-alov içində ona sarı gələn əjdahanı öldürür. Bundan sonra qız igidin ağıllı-kamallı olmasını da yoxlayır. Nağılda deyilir: «Sabahısı gün qız oğlana bir zümrüd daşı göndərir. Oğlan bazara gedir və bir zəbərcəd daşı alaraq onun yanına qoyub, geri qaytarır. O biri gün qız oğlana bir almaz göndərdi. Oğlan almazı bir daş altından, bir daş üstündən qoyub əzdi və bir dəsmala bağlayıb geri qaytardı.

Üçüncü gün qız oğlana bir brilyant göndərdi. Oğlan gedib bazara ondan da qiymətli bir brilyant alıb iki dənə də yaqut daş hamısını birdən göndərdi qıza». Bu hikmətli sual-cavabın açması belə izah edilir: Qız özünü valideynləri üçün Zümrüd kimi qiymətli bilirsə, oğlan ondan da qiymətli və nadir hesab edildiyini izah edir, çünki Zəbərcəd daha nadir tapılan daş, zümrüdün ən qiymətlisi və parlaq növüdür. Qız oğlana almaz daş göndərməklə özünün möhkəmliyini, əzəmətini, arzularının tükənməzliyini bildirmək istəyir. Oğlan isə almazı əzməklə izah edir ki, əgər şıltaqlıq, tərslik etsən, əzilə bilərsən, yəni bu dünyada sınmayan, tükənməyən heç nə yoxdur. İnsan öz səbri, ağlı ilə gözəl görünməlidir, tərsliyi, sərtliyi ilə yox.

Qız oğlana brilyant daş göndərməklə şəffaflığını, cilalılığını, gözəl və saflığını bildirir. Oğlan isə daha qiymətli bir brilyant almaq və yanına iki yaqut daş qoyub qıza göndərməklə ona bildirir ki, hər ikimiz qovuşsaq və iki yaquta bənzər oğlumuz olarsa, daha qiymətli olarıq. Beləliklə, nağılda bir tərəfdən müdrikliyin təcəssümü, digər tərəfdən qiymətli daş-qaşların bir simvol olaraq mifik anlamda tərəfləri açılır, əks olunur. Ulularımızın bu qiymətli daşları belə dəqiqliklə tanıması, onların sehrli tərəflərinin, yəni insan həyatı üçün uğurlu simvollarının nağılda əks olunması göstərir ki, daşların həm özünəməxsus spesifik xüsusiyyətləri, həm də bəzi

məqamlarda insanı qoruması məsələsi ilkin ibtidai insana şüur formalaşdığı vaxtlardan bəlli imiş.

Sonra qızılın, daha doğrusu, qızıl üzüyün «Dədə Qorqud» boylarında «altun» deyə səslənməsi də bu zinət əşyasının dövrəl-qədimdən xalqın məişətinə daxil olmasını göstərən tutarlı faktlardandır.

Belə ki, boyda deyilir:

Qız aydır:

–Yaqut, Baybecanın qızı Banıçiçək mənim.

– dedi:

Böyrək üç öpdü, bir dişlədi.

– Düyün qanlı olsun, xan qızı, – deyib, barmağından altun üzüyü çıxarıb, qızın barmağına keçirdi.

– Ortamıza bu nişan olsun, xan qızı, – dedi. (18, 60-62)

**Uyğur dövlətinin yaranması və yəşmə daşı**

Dağın yıxılması bir faciənin baş verməsi, dövlətin dağılması və s. anlamda işlənirsə, biz bu görüşün izini oğuzlara bəlli uyğur törəmiş əhvalatları ilə bağlı bir mifik mətndə arayaq.

«Başlanğıcını uyğurlara məxsus Qaraqorum dağından götürən Tolqa və Selenqa çaylarının arasında həmişə yaşıl bir ağac olur. Bir gecə görürlər ki, bu ağacın üstünə göydən bir işıq, şüa düşdü. Ağac bu işıq-şüadan hamilə oldu. Dünyaya beş oğlan uşağı gətirdi. Səngur Teqin, Kötur Teqin, Tugel Teqin, Or-Teqin, Bögü Teqin.

Sonuncu uşaq – Bögü Teqin yaraşıqlı, boylu-buxunlu, iradəli, səbirli olması ilə seçilir. Buna görə də, böyüyəndə o xaqan olur. Bir gecə Bögü Teqin yatdığı yerdə pəncərənin önünə gələn qız onu yuxudan oyadır. Bu, üç dəfə təkrar olur. Vəzirin məsləhəti ilə Bögü Teqin bu qızı alıb Ağ dağa gətirir. Burada bir müddətdən sonra ayrılma məqamı yetişir. Qız Bögü Teqinə deyir ki, doğrudan da, Batıya qədər bütün dünya sənin buyruğun altda qalacaq.

Yenə bir gün Bögü Teqin yatdığı zaman ağ geyimli bir nurani kişi gəlib yuxuda ona «Yəşmə daşı», yəni yaşıl, parlaq

bir daş verib deyir: «Sən bu daşı qoruya bilsən, dünyanın dörd guşəsi sənin buyruğun altda qalacaqdır. Bundan sonra Bögü Teqin özünün və qardaşlarının başçılığı ilə dünyanın dörd yanına qoşunlar yeridir və hər yerdə uğur qazanır. Beləliklə, Bögü Teqinin xaqanlığı ilə ulu Uyğur dövləti yaranır. Yəşmə daşı Uyğur dövlətinin uğur daşı olur (31, 68).

Böyük türk dünyasının bəşəriyyətə bəxş etdiyi dahi Nizami də xalq ədəbiyyatı ilə yoğrulan yaradıcılığında, demək olar ki, bütün zinət əşyalarından istər bir bənzətmə, təsvir vasitəsi kimi, istərsə də inanc mənbəyi tək istifadə etmişdir. Hətta o, ömrünün sonuna yaxın yazdığı “İsgəndərnamə” əsərində bir çox mətləblərin elmi mahiyyətinə də toxunub izahını vermişdir. Zinət əşyalarına gəlincə isə “İsgəndərin peyğəmbərlik səfərinə çıxması” başlıqlı hissədə mina, yaqut, zümrüd, almaz və başqa minerallar çox aydın şəkildə tərənnüm olur.

Təpənin ətrafı uca dağlardı
Mina tək yamyaşıl daşları vardı.

və ya:

Ağacları qızıl bir bağdı abad
Meyvəylə doluydu bütün ağaclar,
Ləl idi, dürr idi verdikləri bar.
Hamısı qızıldan, parlaq yaqutdan
Gümüşü narınclar, qızıl turunclar,
Adam inanmırdı saldıqca nəzər
Baharı cəvahir, yeri kimyatək
Zümrüddü, mərcandı hər ot, hər çiçək
Büsat içindəydi, o zinətli bağ
Burda gövhərdəndi hər yanan çıraq
Orda saf büllurdan vardı bir hovuz
Xalis gümüşdəndi içindəki, buz
Burda saf əqiqdən balıqlar vardı
Seyrinə dalanlar heyran qalardı (24, 20-53)

Artıq on ikinci əsrdən də çox-çox əvvəl bütün incəlikləri

ilə insanların məişətinə daxil olan bu mineralların insan orqanizmi üçün vacibliyini nəzərə çatdırmaq istəyən dahi Nizami bu cür təsvirlərlə bu əşyaların bir daha araşdırmaya ehtiyacı olduğunun vacibliyini duyurdu. Tərkibində meyvələrdə olan vitaminlərdən də vacib üzvi birləşmələrin, piqmentlərin olduğunu tədricən dərk edib, zamanı qabaqlayan alim fikrini şeirlərinin məzmunu, poetikasının fəlsəfi tərəfləri ilə çatdırır. Bu sadəcə bir təsvir deyil, bu misralar zinət əşyalarının elmi mahiyyətinin açıq-aydın izharıdır. Bunların adlarını sadalayıb şərh etməklə dahi bu maddələri bir daha gündəmə gətirib üzərində araşdırmalar aparmağın zamanını vurğulayır. Əslində bu fikirlər xalq hikmətinin bəhrəsindən doğmuşdur. Nizami yaradıcılığının böyüklüyü də xalqın dərin təfəkkürünün onun zəngin poetikasında əks olunmasından irəli gəlir.

Şair hətta zinət əşyalarının, daha doğrusu, bu vacib mineralların rəngini, çəkisini də ayrı-ayrılıqda təsvir etməkdən zövq alır:

**Şəvə** yüngül olar ağırdır gövhər,
Gövhərə sərraf da çox qiymət verər (24, 158)

və ya:

Dəvənin zəngindən, fil güzgüsündən
**Sədəf şəvə doğdu** inci doğarkən (24, 77)

O şəvə qələmi oynatdı şən-şən
Manini, "Ərjəng"i saldı qiymətdən (24, 129)

- deyən şair bir tərəfdən hadisələrin dəyişdiyini izhar etməklə, digər tərəfdən oxucusuna incinin, yəni mirvarinin şəvədən fərqli olaraq sədəfdə yetişdiyini anladır. XII əsrin bilgisi kimi son dərəcə qiymətli bir izah olaraq bu gün də oxucuların maraq dairəsində olan bu cür araşdırmalarda heç bir yanlışlıq nəzərə çarpmır, əksinə Nizami dühası bu fikirləri daha şəffaf əks etdirir:

Üzünü kəhrəba kimi saraldar
**Əlbəsən laciverd** bir rəngə çalar

**Laciverd** fələkdən ibrət al barı
Al ilə aldır bu, sarıyla sarı (24, 159)

Şair demək olar ki, hər misrasında bu cür bənzətmələrdən istifadə edir və hər bənzətmə bir neçə ideyanı açıqlamaqla oxucunu təlimatlandırır, axtarışlara yeni-yeni tədqiqatlara səsləyir:

O müşkün kömürdən axan şölələr
Daşlara əks edən **gövhərə** bənzər (24, 223)

Maraqlı burasıdır ki, dahi bütün daş-qaşları incəliklərinə qədər tanıyır, xüsusiyyətlərini, rəngini dəqiqliyi ilə bilir. Əslində Laciverd o qədər də məşhur olmayan yarımqiymətli daşdır. Hətta bir çox araşdırmaların tədqiqatında, o cümlədən Nəsib Göyüşovun araşdırmalarında da bu daşın isti və quru olmağı, mərmər daşları yonub cilalamaqla əldə olunmağı, qəliz xıltıları həll edə bilməsi, qanı saflaşdırması, laciverd taxan kəsin ürək qüsurundan azad olması kimi xüsusiyyətləri də göstərilir (15, 142).

## QİYMƏTLİ DAŞLARIN İNSAN HƏYATINDAKI UĞURLU YOZUMLARI…

Qiymətli daşların əhəmiyyəti və mifik anlamı haqqında da danışarkən birinci onu vurğulamaq istərdim ki, hər bir fikrin arxasında bir gerçəklik sədası var, yetər ki, o fikir düşünülə, incələnə, araşdırıla…

## ALMAZ DAŞI

1. Almaz, daha çox, Qoç bürcü altında dünyaya gələnlər üçün uğurludur, yəni belə hesab edirlər ki, onların talismanıdır. (26, 130-137)
2. Tərəzi bürcü altında dünyaya gələnlər üçün də bu daş uğurlu sayılır, daha doğrusu, almazın cilalanmış forması briliyant nəzərdə tutulur.

3. Almaz sevgi rəmzi kimi vurğulanır, yəni bu daşın sevgi hisslərini coşdurub gücləndirdiyinə çoxdan inanılıb, odur ki, ta qədimdən ilk nişan üzüyü almaz qaşla bağlatdırılardı (23, 24).
4. Almaz qaşı orta əsrlərdə cəsarət rəmzi kimi də (29) qiymətləndirilib.
5. Almazın insanı bədnəzərdən qoruduğuna inam çoxdur. (29)
6. «Üstündə almaz gəzdirən şəxsə bəla gəlməz», – deyərlər. (37)
7. Döyüşə gedən almaz qaşlı silahı sol tərəfindən asarsa, ona güllə batmaz. (19)
8. Almaz yad aləmlə barışmaz, pozitiv enerjisini saxlayar, sahibinə sədaqətli olar. (19)
9. Almaz qəzəbi və şəhvəti söndürən qaşdır, onun sakitləşdirici xüsusiyyətə malik olması həmişə vurğulanır. (19)
10. Almaz ürək və beyin sisteminə yaxşı təsir göstərir. (19)
11. Almazı ağızda saxlamazlar, onun elə növləri var ki, zəhər buraxır. (19)
12. Almazın cilalanmış forması olan brilyantın sahibini xəstəliklərdən qoruduğuna çox inanılır. (3)
13. Almazın daha başqa bir cilalanmış qara brilyant növü insanın yuxugörmə qabiliyyətini tənzimləyər, sahibini bəd yuxulardan qoruyar. (3)
14. Lunatiklərin də onlara xəta toxunmasın deyə üstlərində brilyant gəzdirdiklərini söyləyirlər. (3)
15. Yaşıla çalan brilyantı bir qaş olaraq o qədər qiymətləndirməsələr də onun qoruyucu xassəsinin gücünə daha çox inanılır. Deyərlər ki, yaşıla çalan brilyant əsəb sistemini qaydaya salar, rahat yuxu gətirər. (3)
16. Ümumiyyətlə, Almazın və o cümlədən brilyantın xəyanət sevmədiyinə çox inanılır. (3)
17. Almazın titrəyişinin insan orqanizminə güclü və müsbət təsirindən danışanlar çoxdur. (3)

18. Almaz insan orqanizmində hərarəti tənzimləyir. (3)
19. Almaz insan orqanizmində qanı coşdurur və hətta qan təzyiqi olan insanlara almaz qaş gəzdirmək olmaz deyirlər. (3)
20. Almaz orqanizmdə infeksiyaya qarşı mübarizə qabiliyyətinə malik, maddələr mübadiləsini nizama salan mineral kimi də əvəzsiz daş hesab olunur. (3)
21. **Almazda yorğunluğu aradan qaldırmaq qabiliyyəti** olduğunu da söyləyirlər.
22. **Ağ, şəffaf, parıltılı, heç bir rəng çaları olmayan almazı** axşamdan suda saxlayıb, səhər sübhdən içməyin faydalı tərəflərini də söyləyənlər çoxdur. Belə izah edirlər ki, bu cür almazlar təmiz karbohidratlardır, rənglilər isə başqa mineralların qarışığı olduğundan qorxuludur – zəhərlənmə verə bilər. (3)
23. **Almaz qaşın bütün tarixi mənbələrdə geri dönmək** xüsusiyyətini də vurğulayırlar. O qaş necə olur-olsun, sonda öz doğmasında olur, öz sahibinə çatır. (3)
24. **Yuxusunda almaz qaşı görən ümumilikdə sevinər,** ancaq burada da süjet xətti və almazın növləri əsas götürülür. «Zefir»in almazı uğur, sarı və şəffaf almaz, yəni tərkibində başqa piqmentlər olmayan təmiz almaz göz yaşı verər, hətta almazın dünyaya uşaq gətirən qadına köməkçi vasitə olmasına da inanılır və odur ki, yaşıla çalan almazı analıq simvolu hesab edirlər. (3)
25. **Dini məxəzlərdə də almazın öd kisəsinə, böyrəklərin** fəaliyyətinin gücləndirilməsinə, sidik ixracında yaranan problemlərin həllinə kömək etdiyi vurğulanır. (22, 10)

**Almaz** qaş əsasən ağ, şəffaf, göz yaşına bənzəyən, təmiz, çox parıltılı, saf karbondan təşkil olunan mineraldır. Onun azacıq rənglənmiş növlərində, yəni rəngli almazlarda cüzi miqdarda kənar qarışıqlar var. Almaz Mendeleyev cədvəlinin 2-ci dövrünün altıncı elementidir. Cilalanmış almazlar, yəni brilyantlar bütün tarixi dövrlərdə öz qiymətini saxlasa və bir zinət əşyası olaraq iqtisadçılar tərəfindən daha çox qiymətlən-

dirilsə də, qədim mənbələrdə və xalq arasından toplanmış nümunələrdə firuzə, zümrüd, topaz, kəhrəba, mərcan kimi başqa daşlar istər müalicəvi əhəmiyyəti, istərsə də uğurlu yozumu baxımından almazdan qat-qat yüksəkdə durur.

Rəvayətlərdən və qədim mixi yazılarından, o cümlədən arxeoloji qazıntılardan məlum olur ki, Almaz insanlara eramızdan beş min il əvvəl məlum olub və hətta quldarlıq dövrünün ilk günlərində bəzək kimi istifadə olunmuşdur. «Almaz» sözünün «adamaz» ifadəsindən deformasiyaya uğrayaraq bu cür səsləndiyini, mənasının isə «məğlubedilməz» olduğunu söyləyənlər də çoxdur və almazın uğurlu tərəflərinin əsas hissəsini, təbii ki, bu ifadə ilə bağlayaraq, onu uzun illər araşdırmağa səy göstərmişlər.

İbtidai icma quruluşunda belə, almazın şəffaflığı, günəş şüalarını əks etdirməsi, qaranlıqda işıq saçması, bir sözlə, qeyri-adi parlaqlığı insanları bu daşa qarşı laqeyd qoymamışdır. Eramızdan iki min il əvvəl artıq insanlar bu daşı öz tozu ilə yonmağa başlamış, brilyantlar hazırlamışlar ki, o zaman bu daş işığı daha çox əks etdirmək qabiliyyətinə malik olmuşdur.

Başqa qaşlar kimi almaz da karatlarla hesablanır.

Almaz yataqlarına gəlincə, Braziliya almaz mədənləri, dünyada birinci yeri tutan Hindistan almaz mədənləri, İndoneziya almaz mədənləri, Avstraliya və Rusiya almaz mədənləri çox məşhurdur.

Braziliyanın bir çox mədənlərində, o cümlədən Sinkarada və Karbonado yatağında incə dənəli, məsaməli qara almaz aqreqatına çox rast gəlinir.

XVIII əsrin əvvəllərində İndoneziyadakı ən iri adalardan birində, daha doğrusu, Kalimantanda almaz daşıyan çöküntülərin aşkarlanması, hətta 1787-ci ildə burada 367 karat çəkili bir almazın tapıntısı bir çox iqtisadçılar tərəfindən göstərilsə də, o zaman elə bir mütəxəssis olmamışdır ki, bu daşın xalis olub-olmadığını müəyyənləşdirsin. Odur ki, bu daşın kvarsın bir parçası, yəni dağ büllurunun bir parçası

olduğunu düşünənlər də çox olmuşdur. Çünki kvarsın elə növləri vardır ki, onlarda üst və alt piramidalar inkişaf etdiyinən, prizma görünmür və daş **almaz** görkəmi alır. Bu cür daşlara Azərbaycanın Laçın və Kəlbəcər rayonlarında da, çaykənarı qumlarda da rast gəlmək olur. Bu daş vaxtilə Mattan raçkasına hədiyyə edildiyi üçün onun şərəfinə bu daşa Mattanın adı verilmişdir. Sonralar Lyuminesent analiz vasitəsi ilə məlum olmuşdur ki, Mattan daşı, doğrudan da, kvars imiş. Lyuminesent analiz vasitəsilə almazı bütün daşlardan asanlıqla ayırmaq olur. Digər tərəfdən, almaz ultrabənövşəyi şüaları qəti buraxmır. Kvars isə əksinə. Kvars lampalarının köməyi ilə ultrabənövşəyi şüalarla müalicə üsulları tətbiq olunur. Təmiz, bülluri, şəffaf almazla şəffaf qırmızı rəngli qranatı da ayırmaq çətindir. Çünki onlar eyni geoloji şəraitdə yarandığına görə bu iki mineralın sıxlığı çox yaxın olur. Almazın sıxlığı 3,52, qırmızı rəngli qranatın yəni popurun sıxlığı 3,57-dir. Qaldı rənglərin müxtəlifliyinə, bəzi ixtisasçılar bunu Lyuminesensiya hadisələri ilə əlaqələndirir, bəziləri isə kənar qarışığın varlığı ilə izah edirlər.

Lyuminesensiya hadisəsi – təbii və sintetik birləşmələrin rentgen ultrabənövşəyi və kadot şüalarının təsirindən işıqlanmasına deyilir (35, 42).

Almaz təmiz karbondan təşkil olunsa da, onun azacıq rənglənmiş növlərində, qırmızımtıl, sarımtıl, yaşıla çalan almazlar da var ki, cüzi miqdarda kənar qarışıqların nəticəsində bu cür rəng alır.

Dünyanın bir çox yerlərində, o cümlədən Hindistanda, İndoneziyada, Rusiyada, Avstraliyada və s. bir çox başqa ölkələrdə almaz mədənləri fəaliyyət göstərir. Dünyanın ən qiymətli almazları da muzeylərdə saxlanılmaqdadır. Hətta Rusiyada «Almaz fondu» adlanan muzeydə iri karatlı almazlar nümayiş olunur ki, bunlardan ən məşhuru «Knyaz Orlov» adlı qaşdır. Bu qaş 189,62 karatdır.

Sankt-Peterburqda, Ermitajda və Almaniyanın Drezden şəhərində yerləşən Qryunes Qevyolbe muzeyində də yüksək

karatlı almaz daşları var.

Almazın növlərindən bəhs edən Nəsrəddin Tusi onun əsas vətəninin Hindistan olduğunu vurğulayır. O göstərir ki, almaz əsasən hündür, əlçatmaz, sıldırım qayaların arasından axan çaylarda olur. Çaylar keçilməz olduğundan, almaz axtaranlar ət parçasını çaya atar, almazlar ətə sancıldığı zaman quşlar ət parçasını götürüb dağ başına, yuvalarına aparar və beləliklə əti yeyərkən yerə düşən almazları əldə eləmək mümkün olardı. Bu mövzu Nizami Gəncəvinin "İsgəndərnamə" poemasındakı "İsgəndərin başa sitayiş edənlər kəndinə yetişməsi" başlığı altında verilən hekayətdə də əks olunur. Burada deyilir ki, İsgəndər sıldırım bir qayanı aşarkən qoşununun atlarının ayaqlarını deşən sərt daşlara məruz qalır. Lakin müdrik şah bu daşların qiymətli olduğunu ilk baxışdan anlayır və əmr edir ki, yerdə nə qədər sərt və parlaq daşlar var, hamısı yığılsın. Qoşun tərəfindən çox az bir vaxtda daş yollardan təmizlənib yığılır. Şah ətrafa baxıb daşın mədənini aramağa çalışır və görür ki, daşın mədəni ilan-çayan qaynaşan əlçatmaz, ünyetməz bir qayanın dibidir. Bir an düşünür, əmr edir ki, qoyunlar kəsilsin, ətləri parça-parça edilib həmən dərələrə atılsın. Vəhşi quşlar ət parçalarını caynaqlarına alıb səhralara endikcə ət parçalarına yapışan daşlar da səhralara töküləcək və beləliklə, həmin daşlar yığılacaq. Şah belə də edir:

Almazla doluydu o dərin dərə
Gəlirdi tacdakı su tək nəzərə.
Qaynaşır ilanlar min-min hər yanda
Kim görüb ilanı gövhər satanda?
Şahın əmriylə görüldü tədbir,
Qoyunlar kəsilib soyuldu bir-bir.
Almazlar mədəni sayılan yeri
Ətlə doldurdular atıb leşləri.
Ətə almaz duz tək yapışan zaman
Quşlar da uçub gəldi hər yandan
Qayalar üstünə qonub yedilər.

Hər quşun dalınca getdi on nəfər.
Şah yığdı bir yerə o almazları
Pislər gömgöy idi, yaxşılar sarı. (24, 547)

Təbii ki, bu hadisələrin çox uzaq keçmişdə, yəni almaz mədənlərinin məlum olmadığı dövrlərdə baş verdiyi rəvayət olunur. Almazın növlərinə gəlincə isə:

1-ci: şüşəyəbənzər ən şəffaf göz yaşına oxşayan almaz, sadəcə olaraq, «Almaz» adlanır və almazın ən yaxşı növü hesab olunur.

2-ci: «Təbni samanı» adlanır ki, azacıq sarıya çalır.

3-cü: «Simabi» adlanır; bu, civə rəngində olur.

4-cü: «Zəytim» adlanır; bu, yaşıl rəngdə olur.

5-ci: «Əkbər» adlanır; bu, almazın qara və qırmızı növüdür.

Almazı yoxlamaq üçün onu nəfəslə isidib, üstünə buz kimi su və ya qar töküb, sonra diqqətlə baxarkən, əgər ağararsa, bu yaxşı növə aid xalis almazdır. Almazın üzərini mumla örtüb günəşin qarşısına tutduqda, göy qurşağına bənzər rəng görünərsə, deməli, xalis almazdır. Almazın bir çox təpəsi olur, onu nə qədər sındırsalar, yenə görkəmini itirməz. Onu ancaq qurğuşunla sındırmaq olar. Hətta zindanın üstündə çəkiclə döyülsə belə, çəkicə batar, ancaq sınmaz. Qədimdə insanlar şəhadət barmağını almazın arxasına qoymaqla onun saflığını araşdırmışlar. Belə ki, saf almazın əksetdirmə qabliyyəti yüksək olduğu üçün barmaq görünməzdisə, deməli, xalis imiş.

Karbonun dörd allotropik şəkildəyişmələrindən biri də Almazdır.

Almaz daşı ən bərk maddədir. Bərkliyi etalon olaraq «10» qəbul olunub. Çox şəffaf kristaldır. Almazı müşayiət edən minerallardan korund, qızıl, qrant, titanlı minerallar, maqnit, turmalin və s-i. göstərmək olar. Almazların görünüşlərində müxtəliflik nəzərə çarpdığı kimi, tərkibləri də müxtəlif ola bilir və bu baxımdan onların mifik anlamlı xüsusiyyətlərində də fərqlər özünü göstərir. Bu hallar təkcə

almaz qaşa deyil, bütün qiymətli və az qiymətli qaşlara aiddir.

**Brilliyant** – məlum həqiqətdir ki, almazın cilalanmış formasına brilyant deyilir. Brilyantın parlaqlığına və günəş şüasını qəribə çalarlarla əksetdirmə qabiliyyətinə görə onu bütün daşlardan fərqləndirirlər. Briliyant şüaəksetmək qabiliyyətinə görə ən yüksək zirvədədir və ona qiymət gətirən xüsusiyyət də elə budur. Təmiz brilliyantın əsasən 57 tili olur. Cavahirat aləmində, adətən, brillyant düzülmüş qaşların arasına sapfir, və ya  yaqut qoyurlar. Zefir isə Almazın xüsusi bir növüdür ki, bu ad Türkiyədə peyda olub və bunun tədqiqatlarda Şah Əkbər olduğunu da söyləyənlər çoxdur. Tədqiqat zamanı bu daşı İngilis-Hind müharibəsinin qurtarması ilə əlaqələndirənlərə də rast gəldim. Hətta belə nəql edirlər ki, bu daş vaxtilə Nadir şahın xəzinəsində olub, sonradan yoxa çıxıb və Nadir şah qətlə yetirildikdən 100 il sonra həmin daş "Zefirin Almazı" adı ilə yenidən  Türkiyədə peyda olub, təbii ki, bunlar fərziyə və ya rəvayətlərdir.

Dünyada məşhur olan bir çox daşlar var ki, onların adı tarixin müxtəlif dövrlərində çox hallanıb və bu qiymətli zinət əşyaları ilə bağlı maraqlı rəvayətlər çox söylənilir. Ayrı-ayrı zamanlarda müxtəlif hökmdarların xəzinəsində olduğundan adları da tez-tez transformasiyalara məruz qalıb. Bunlardan «Kuhi-nur» adlanan qiymətli almazın Hindistanda tapılması, «Orlov»un Avropanın ən iri brilyantı hesab olunması və onun da vaxtilə Hindistandan gətirilməsi, daha sonralar Nadir Şahın əlinə keçməsi, «Böyük Moğol»un uzun illər boyu ingilis kraliçası Viktoriyada olması, Nəhayət «Dəryayi-nur» və Şiri-Xurşud qızıl Çərçivəli «Orlov»un (bəzi məxəzlərdə Böyük Moğolun parçaları kimi müxtəlif versiyalarla əfsanələrimizin, nağıllarımızın, rəvayətlərimizin mayasında daim əks olunması diqqətdən yayınmır. Hətta bu çox qiymətli daşların Fətəli şahın xəzinəsində olması çox səslənmişir. Bütün bu qəribə əhvalatların bu cür söylənməsi zinət  əşyalarının həqiqətən də müsbət uğurlu tərəflərinin təsdiqidir.

Hal-hazırda «Kühi-nur», yəni vaxtilə yüz **doxsan bir karat çəkisi** olan bu brilyant qaş Böyük Britaniyadadır. Lakin onun sonralar bir daha cilalanıb, çəkisinin azalması haqqında da fikirlər var.

«Şah» adlandırılan almaz parçası ilə bağlı da nağıllar, rəvayətlər çoxdur. Ancaq bir tarixi həqiqət kimi bu daşın varlığı haqqındakı, fikirlər də müxtəlifdir.

Hətta professor Ə.R.Həsənov göstərir ki, keçən əsrin əvvəllərində Rusiya-İran müharibəsinin Rusiyanın qələbəsi ilə başa çatmasında, yəni 1828-ci il fevral ayının 10-da Türkmənçay müqaviləsi, Naxçıvanın və İrəvan xanlıqlarının Rusiyaya birləşdirilməsində, Rusiyanın səlahiyyətli səfiri Aleksandr Sergeyeviç Qriboyedovun öldürülməsi və bu kimi başqa məsələlərdə də **«Şah»ın** rolu az olmayıb. Yəni bir çox tədqiqatçıların fikri ilə razılaşsaq, Almaz «Şah» hazırda Rusiyanın Almaz fondunda saxlanılır. Onun üzərindəki, ikinci ad Cahan şahdır. Məzmunu belədir: «Cahangir şahın oğlu Cahan şah, 1051».

Cahan şah Hindistanda 1627-ci ildə taxta çıxmışdır. Cahan şah tarixi bir şəxsiyyət olmaqla yanaşı, mineroloq kimi də tanınan mütəxəssis olub.

Almaniyanın Drezden şəhərində yerləşən «Qryunes Qevyolbe» muzeyində isə yaşıl rəngli almaz və heç bir yerdə rast gəlinməyən tünd sarı rəngli almazın qəribə bir parçası saxlanılır.

Almazın **qaraya, göyə çalan növünə Zefir deyilir**. Belə bir fikir də var ki, «Şah Əkbərin» yüz il sonra Türkiyədə «Zefirin almazı» adı ilə səslənməsi almazın bu növünə o adı vermişdir. Bu adı ingilis müharibəsinin qurtarması, «Kuhi-nurun» İngiltərəyə gətirilməsi ilə də əlaqələndirirlər.

Ən maraqlı burasıdır ki, dünyanın bütün adlı-sanlı şahları, hökmdarları bu daş-qaşları, yəni «Şah»ı, istər «Kuhi-Nur»u və ya «Dəryayi-nur»u tanıyıb, haqqında danışıb, düşünüblər və demək olar ki, çoxunun xəzinəsində olub.

Müdrik ulularımız Almaz haqqında çox rəvayətlər,

nağıllar, əfsanələr uydurub, onun gerçək və xəyali tərəflərini bəsit düşüncələri əsasında formalaşdıraraq, bu günümüzə qədər yaşadıblar. Hətta bu yaşam yazılı ədəbiyyatımızın da qayəsində əks olunub, qəzəllərin klassik şeir növlərinin mayasında insanların saflığı, qüruru, nəcibliyi bir çox daş-qaşlarla müqayisə olunaraq, tərənnüm edilib.

Dahi Nizaminin, demək olar ki, hər bir əsərində istər insan xarakterinin incəlikləri, istərsə də bütövlükdə hadisələrin süjet xətti gövhərlərlə, qiymətli daş-qaşlarla, gümüş və qızıla bənzətmə, müqayisə şəklində açılan məqamlarla ilgilidir:

Söylədi, görürəm bir gövhərsiniz,
Zənnimcə, Cahangir İsgəndərsiniz.(24, 235)

və ya:

Dünyaya nur saçar, ucadır tacın
Qızıla, gövhərə yox ehtiyacın
Padişah buyurdu, o gözəl dilbər
Yaqut sandığından saçsın saf gövhər (24, 553)

Şairin ən çox işlətdiyi söz «gövhər» və «inci» ifadələridir ki, hər ikisinin də mənası daş-qaşların ümumi məcmusu deməkdir, yəni cavahirat mənasını verir. Ancaq araşdırmalar zamanı gövhərin tarixin müəyyən bir dönəmində xüsusi bir qiymətli daş olaraq sevildiyi də izlənilir. İnci isə aydın məsələdir ki, daha çox mirvarilərə şamil edilən bir ad olub; ümumi məfhum kimi bu əşyaların ən çox istifadə edilən, dünyada tanınan adı cavahiratdır. «Cavahirat» deyəndə bütün daş-qaşlar; qızıl, gümüş və s. əşyalar nəzərdə tutulur.

Ən geniş yayılan rəvayətlərdən biri «Fətəli şahın «Dəryayi-nur»u başlıqlı rəvayətdir ki, bu, Qarabağda çox hallanır. Müxtəlif versiyalarda danışılsa da, rəvayətin məğzi, demək olar ki, eynidir. Məhz bu rəvayətin daha çox Qarabağda səslənməsinin bir səbəbi də, çox güman ki, İran şahı Fətəli xanın Qarabağ xanı Pənahəli xanın qızı Ağabəyim ağa ilə ailə qurmağıdır:

**Fətəli şahın "Dəryayi-nur"u**

Belə rəvayət edirlər ki, zinət əşyalarına xüsusi zövq ilə

yanaşan Ağaməhəmməd Şah Qacarın qardaşı oğlu Fətəli şah çox sevdiyi kənizinə ancaq almaz qaşla bəzənmiş zinət əşyası hədiyyə edərmiş və onun xəzinəsində iki qiymətli qeyri-adi inci varmış ki, bütün xəzinəyə dəyərmiş. Bu incilərin hər ikisi yüksək ölçülü (yəni karatlı) almazlardan ibarət imiş. İncilərin sorağından, dünyanın bir çox padşahları xəbər tutubmuş. «Dəryayi-nur» və «Şahı» adlanan bu inciləri Fətəli şah heç kimə verməz, öz üzərində gəzdirərmiş. Bütün döyüşlərdən qələbə ilə çıxmağının uğurunu da şah bu incilərlə əlaqələndirərmiş. Hətta Şah incilərin üzərinə öz adını da yazdırıbmış. Fətəli şah, ən sevimli oğlu Abbas Mirzə dünyaya gələrkən «Dəryayi-Nur»u ona bağışlayacağını vəd edir və Abbas həddi-buluğa çatanda incini onun üzərinə sancır. Belə rəvayət edirlər ki, o gündən şahın çərxi dönür, uğursuz döyüşləri başlayır, xəzinəsi yavaş-yavaş tükənir. «Dəryayi-nur» Abbasa da xoşbəxtlik gətirmir, o, bu incini itirir, yəni özündən uzaqlaşdırır ki, ondan sonra onun vəziyyəti nisbətən düzəlir (29). Bunun səbəbi isə bu zinət əşyasının sahibi sağ ola-ola ondan uzaqlaşması hesab olunub. Qarabağda bir inanc olaraq bu hadisə çox vurğulanıb.

## İsgəndərin dünya səyahəti

Belə bir rəvayət vardı ki, Makedoniyalı Filippin oğlu İsgəndər şah bütün dünyanı gəzir, dolanır. Nəhayət, Hindistana keçir. O, hansı ölkəyə gedirsə, onun qarşısına böyük ehtiramla, gül-çiçək çələngləriylə bərabər daş-qaş dolu zinət xonçaları ilə çıxırlar. Hər elə, hər mahala yayılıbmış ki, İsgəndər şah dünyanı gəzir, ölməzliyin sirrini axtarır. Əgər taparsa, bu mükafatı bütün dünyadakı insanlara verəcək. Və o, Hindistanda olarkən qarşısına gətirilən zinət xonçalarının içərisindən bircə dənə böyük daş götürür. Bu, almaz daşı imiş, onun qiymətini hindlilər özü bilməzmiş. İsgəndər dünyanı gəzdiyindən, dünyagörüşlü olduğundan dərhal bu daşın çox qiymətli olduğunu başa düşür. Deyilənə görə o, İrana köçəndə daşın bir parçasını İranda gözəl bir xanıma hədiyyə edibmiş ki, bu parça «Dəryayi-nur», bir parçası isə uzun bir müddət sonra

Nikolay şahda olur və «Orlov» adı ilə məşhurlaşır. Sonralar Nikolay bu qaşın onu dəfələrlə qoruduğunu və bir çox qanlı döyüşlərdə ölümdən xilas etdiyini xatırlatmışdır. Ancaq belə rəvayət edirlər ki, sonralar Ağa Məhəmməd Şah Qacarın böyük qardaşının oğlu Fətəli şah müharibələrdə qələbəsi zamanı bir çox xəzinələri ələ keçirmiş və bu gün belə adı hallanan, yəni vaxtı ilə dünyada məşhur olan bir neçə qiymətli daş, o cümlədən "Dəryayi nur" bir vaxtlar da onun xəzinəsində olmuşdur.

**Fətəli xan Əfşar və Kərim xan**

Almazla bağlı başqa bir rəvayətdə deyilir ki, xanlıqlar arasında baş verən müharibələrin birində **Fətəli xan Əfşar** Qarabağa hücum edib, Qarabağ xanı Pənahəli xanı onunla saziş bağlamağa məcbur edir və bu vaxt həmin asılılığı qəbul edən Pənahəli xan oğlu İbrahim Xəlil ağanı onun yanına göndərir. O zaman İranın həyatında baş vermiş siyasi hadisələr, Kərim xan Zəndini əsas rəqibə çevirir və o, Fətəli xan Əfşarın bütün planlarını alt-üst edərək Pənahəli xanla birləşib Urmiya xanlığına hücum edərək Fətəli xanı ailəsi ilə birlikdə əsir götürür və onun xəzinəsini ələ keçirir. Fətəli xanın xəzinəsindəki saysız-hesabsız qiymətli daş-qaşların çox hissəsinin «Almaz»dan ibarət olduğunu görəndə Kərim xanın anası oğluna bildirir ki, oğul, qardaşın İsgəndərin qisasını ala bilməməyinin səbəbi bax bu almaz qaşlarıdır ki, sahibinə güc, qüdrət verirmiş.Kərim xan isə qələbəsindən məmnun olduğu üçün Fətəli xanın üstündəki iki böyük almaz qaşı götürür və onları İbrahim Xəlil ağaya bağışlayır. Təbii ki, bir çox başqa zinət əşyaları və qızıl yəhərli atla bərabər onu Şuşa qalasına, vətənə yola salır. Pənahəli xana isə onunla bərabər Fətəli xanla birlikdə Şiraza getməyi təklif edir (3).

**Natavan xanımın qara brilliyantı**

Almaz haqqında rəvayətlər olduqca çoxdur, bunlardan biri də Natavan xanımla bağlıdır. Natavan xanımın «Qara briliyant»ı başlıqlı rəvayətdə deyilir.

İbrahim Xəlil ağanın nəvəsi tanınmış Qarabağ xanımı

Xurşidbanu Natavanın bütün zinət əşyaları ancaq almaz daşlarla bəzədilərmiş, həm də, daha çox, cilalanmış qara brilyantla. Xan qızı, ümumiyyətlə, Qara brilyantı daha çox sevər, onu gözmuncuğu əvəzinə, bədnəzərdən qorunmaq üçün daim üstündə gəzdirərmiş. Qarabağ elatında danışardılar ki, bir gün xan qızı Xındırıstan kəndinə toya gedir. O kəndə ki, vaxtilə atası Mehdiqulu xan həmin kəndi Qasım bəy Zakirə bağışlamışdır. Qasım bəy Zakirin doğmalarından birinin toyu imiş. Xan qızı qara brilyantla bəzənmiş qızıl haşiyəli sancağını böyük toy mağarında salır və gec xəbər tutduğu üçün tapa bilmir. Natavan xanım çox sarsılır, sevdiyi əşyanı itirdiyi üçün narahat olur. Deyilənə görə bu daş onun uğur daşı imiş, yəqin ki, talismanı nəzərdə tutulur. Və xanım sonrakı həyatının bütün uğursuz tərəflərinin bir ucunda qara brilyantlı sancağının itməsi ilə də əlaqələndirir. Yəni hadisələrin üts-üstə düşməsi onda belə bir inam yaradır ki, bəlkə də ona mənəvi güc verən, qələbə rəmzi bəxş edən, uğur gətirən qara brilyantlı sancağı imiş ki, xan qızı düşünür ki, bəlkə də bunu itirməklə bütün xoşbəxtliyini itirir. Natavan xanımın Ağdam rayonunun Seyidli kəndində yaxın rəfiqələri olub. Belə rəvayət edirlər ki, o kənddə olan xanlıqların əsas kökü elə Pənahəli xanın törəmələri imiş. Odur ki, Natavan xanım və onun qohum-əqrəbaları ilə bağlı rəvayətlərin çoxu o kənddən qaynaqlanır. Həmin kənddə İldırım xan, Çərkəz bəy, Mənzər xanım, Şərif bəy və s. bir çox bəylər Pənah xanın nəsli ilə əlaqələndirilir.

**Almaz qaşla bağlı başqa bir məxəzdə göstərilir ki,** İran şahı Rza Pəhləvinin də tacındakı daşların arasında almaz qaşa daha çox önəm verilib ki, şah həmişə, hər bir işdə qalib olsun, bədnəzərdən qorunsun. Hətta onun sonuncu xanımı Fransada təhsil almış Fərəh Dubanın xatirələrində vurğuladığı kimi gəlinlik libasının yalnız almaz qaşlarla bəzədilməsini nəzərdən qaçırmasaq, ümumiyyətlə, Şərq aristokratiyasında almaz qaşa inancın nə qədər böyük vüsət aldığını anlayarıq: «Pers motivləri, gümüş sapla işlənmiş inci və qiymətli almazlarla bəzədilmiş gəlinliyimi geyinəndə Dior moda evinin dərzilərini sevgiylə

xatırladım. Bundan başqa, gözəllik pərilərinin şaha bu qədər ümidlə gözlədiyi oğulu vermək üçün gəlinliyimin bir tərəfində mavi sapdan istifadə etdiklərini də bilirdim» (14, 94).

**Fərəh Dubanın xatirəsi**

Başqa bir səhifədə şahbanu Fərəh Duba söyləyir ki, dini mərasim vaxtı mənim öz toyumda olmayan hadisələr baş verdi. Şahbanu toy mərasiminin bu məqamını belə təsvir edir: «Xoşbəxt ailələri olan xanımlar Zadan və Nilufər bibim, Piran Duba və doktor Pirnia adətlərə uyğun olaraq oturan gəlin və bəyin başları üzərində örtük tutdular və həmin örtüyə sürtülən iri şəkər parçası cütlüyün həyatlarının xoşbəxt keçməsinə, sonra bir xanımın həmin örtüyü bükməsi ilə qayınananın ağzını yummasını təmin etmək üçün görülən iş idi. Toy hədiyyəsi kimi Rza gənc arvadına üzərində atasının şəkilləri olan qızıllar və kiçik quran, mən isə Yasəmənə möhkəm ailə təməli üçün **almaz** üzük hədiyyə etdim».

Almaz qaşla bağlı ayrı-ayrı tarixi dövrlərdə söylənilən vəsfi-hallar, bayatılar, nəğmələr, ağılar da bir daha göstərir ki, xalq bu daşa çox güvənib, inanc duyğularında bir sıra qiymətli daşlarla bərabər, almaz daşına da xüsusi önəm verib. Bu qaş zinət əşyaları arasında daha çox feodal aristokratiyasında sevilib, istifadə olunub və qiymətləndirilib. Bütün bu yanaşmalar bir tərəfdən almazın keyfiyyəti ilə bağlıdırsa, digər tərəfdən onun müalicəvi mineral kimi insan həyatındakı uğurlu tərəflərinin qiymətləndirilməsi ilə əlaqədardır. Bu cəhətlərlə bərabər, almaz qaşın yad aləmlə barışmazlığı, doğma yurdunda, doğma sahibinə sadiqliyi, sədaqətliliyi də çox vurğulanır.

**Almaz** qaşam, kəsirəm,
**Yad əllərdə əsirəm.**
Doğmalarım gəlməzsə,
Uğurumu kəsirəm.

Təbii ki, xalqın təfəkkür süzgəcindən qaynaqlanan bu ifadədə almaza inanc duyumu əks olunur. Almazın bir çox mifik anlamlarına inanan xalq onun naxələf hadisələrə, natəmiz

mövqeyə qarşı israrlı olduğuna da inanır. Şübhəsiz ki, bu inam, ümumiyyətlə, daş kultuna güvənin izidir. Daşları müqəddəs hesab edən, ona tapınan insan, söz yox ki, onun zəbt olunaraq, oğurlanaraq yad əllərə keçməsinin də nə dərəcədə uğursuz olduğunu başa düşür. Burada daha incə, dərin mətləblərin izi var. Bu qiymətli daş-qaşlar tarix boyu müharibələrin iştirakçısı olub, şahlardan-şahlara, hökmdarlardan-hökmdarlara ötürülüb, xəzinələrdən xəzinələrə keçib və aydın məsələdir ki, göz yaşı ilə, qanla qazanılan qazanc heç vaxt xoşbəxtlik bəxş edə bilməzdi. Ulu xalq da bütün söyləmələrində əsas bunu nəzərə çatdırmaq istəyir. Təbii ki, bu söyləmələrdə ayrı-ayrı qaşların incəliyi, qiyməti, şövqü, gözəlliyi də təsvir edilib.

**Almaz** qaşam, inciyəm
Doğmamın sevinciyəm.
**Yadların yaxasında**
Küskünəm, çox inciyəm.

Burada da almazın öz sahibinə sadiqliyi vəsf olunur. Ümumiyyətlə, rəvayətlərdən də məlum olur ki, xalqın hafizəsində bu qaş oğurluqla əldə ediləndə aldadılıb ələ keçiriləndə, yəni xeyirsiz-duasız qazanılanda uğur vermir. Bir inam kimi artıq bu yozum belə qətiləşib.

**«Haram tikə boğazdan keçməz»**

Bu nağılın, əslində həqiqət olduğunu da söyləyirlər. Ancaq çox qədim zamanlarda baş verdiyindən, o artıq nağıla çevrilmişdir. Nağılda almaz qaşı ilə ilgili qəribə bir süjet var.

Siracəddin adlı bir iş adamı böyük bir torpaq sahəsi alır. Bir müddətdən sonra eşidir ki, burada vaxtilə almaz yataqları olub və deyilənə görə, yenə də var. O, tez bir qrup qul gətirir və bu sahəni xüsusi dərinlikdə qazmaq haqda tapşırıq verir. Sahədə qazıntı yeni başlayır ki, qulun biri böyük bir almaz parçası tapır, parıltısından başa düşür və tez ayağını zədələyir, həmin almazı zədələnmiş yerə qoyub, möhkəm sarıyır. Sarığın üstündən qan çıxdığına görə, hər kəs inanır ki, doğrudan da, qulun ayağı yaralanıb. Gecəni səhərə qədər ufuldayır; səhərə

yaxın, yatağından durub qaçır. O, xeyli aralıda yerləşən gəmiyə yaxınlaşır və gəmiçidən xahiş edir ki, onu vətəninə çatdırsın, ancaq pulunu o tayda ödəyəcək. Gəmiçi əvvəl tərəddüd edir, qul əhvalatı danışandan sonra, o razılaşır və xeyli gedəndən sonra onu sorğu-suala tutur onlar dostlaşır, həmsöhbət olur. Gəmiçi öz rahat yerini ona verir və qul yatandan sonra düşünür ki, niyə elə o almaz bütövlükdə mənim olmasın. Odur ki, qulu itələyib, dənizə salır, almazı özü götürüb yoluna davam edir. Sahilə çatır, zərgər arayır, almazı çox böyük qiymətə satır və milyoncu olur. Var-dövlət gəmiçinin başından aşıb-daşır və dostlar-tanışlar çoxalır, məclislər, yemək, içmək tükənmir. Nəhayət, gəmiçi çox ciddi problemə düçar olur. Dostları ilə keçirdiyi xoş məclislər ona baha başa gəlir. O, tiryək aludəçisi olur və dünyasını çox tez dəyişir. Bu oğurluqda Almas daş heç kimə xoşbəxtlik gətirmir.

Bəzi məxəzlərdə də göstərilir ki, tarixən tanınmış almazların demək olar ki, çoxu Böyük Moğolların zəmanəsində Cənubi Hindistanın Nolkonda yataqlarından tapılmışdır. Bu əfsanəvi yer hazırda Heydərabad şəhərinin yaxınlığında tərk edilmiş bir balaca şəhərcikdir. Bu şəhərdə XVI–XVII əsrdə müxtəlif ölçülü, formalı və çəkili təmiz, şəffaf, sarı çalarlı almazlar alınıb- satılardı. Daşlar, əsasən, Dekkandan şərqdə, Krişna və Mahandi çaylarının arasında, Qodavari çayının hövzəsində qum, çınqıldan yuyularaq əldə edilirdi. Tarixə adı düşən almazların çoxu Krişna çayının qollarında və Qadavari çayının qumlarından tapılmışdır.

XVII əsrdə Braziliya və Cənubi Afrikada tapılan almaz yataqları Hindistan almazlarının qiymətini çox endirdi. Bu gün isə çox təəssüflər olsun ki, almaz, brilyant, zümrüd, yaqut, səfurə kimi qiymətli **daşları süni yollarla da istehsal edirlər**. Lakin təbii daşlar və onların sintetik analoqları bəzi fiziki xassələrinə, mikroquruluşuna, daxilində olan piqmentlərə və s. görə bir-birindən kəskin şəkildə fərqlənirlər.

## ZÜMRÜD

**Zümrüd** də daşlar arasında tarix boyu ən çox sevilib-seçilən, qiymətləndirilən daşlardan olub. Onu daima, bəlkə də, rəngi ilə əlaqədar olaraq bərəkət, yağış və artımın simvolu hesab ediblər. Zümrüd daşının sehrli xüsusiyyətlərindən çox müalicəvi əhəmiyyəti vurğulanır.

**Zümrüd daşına aid toplanan inanclar**

1. Zümrüd daşı buğa bürcü altında dünyaya gələnlərin talismanı hesab edilir və Zümrüdün onlar üçün daha çox uğur verəcəyinə inanılır (26, 133).
2. Bəzi astroloqların fikrincə, oktyabr ayında doğulanların xoşbəxtlik daşı zümrüdün açıq rəngli, dəniz suyunu xatırdalan, «bəhri» adlanan, sonralar «Aleksandrit» kimi səslənən növüdür. Lakin tarixdə Aleksandrit bir neçə başqa daşlara da deyilib. Bu təbii ki, Aleksandrın şərəfinədir (34).
3. Zümrüd daşı xəyal gücünü artırar, yaddaşı möhkəmlədər, – deyərlər (17).
4. Üzərində zümrüd daşlı zinət əşyası gəzdirən heç zaman qara-qura yuxu görməz (13, ).
5. Zümrüd insanı bəd əməldən qoruyan daş hesab olunur.
6. Zümrüd daşı insanın hərarətini aşağı salır. (xalq təbabəti)
7. Zümrüd daşının tozunu zəhərlənmə üçün ən vacib məcun hesab edirlər (23, 40).
8. Zümrüd də bir çox daşlar kimi ruhi xəstələrə yardım edir, onların fikrinin, yaddaşının cəmləşməsinə köməkçi olur (2).
9. Zümrüd ürəyə çox qüvvət verər; barmağında zümrüd qaşlı üzük gəzdirənin ürəyi sancmaz, – deyərlər (29).
10. Soyuq şərbətdə və dərmanları qəbul edərkən ondan çox istifadə edirlər.
11. Ümumiyyətlə, zümrüd daşı soyuqdəymə ilə bağlı bütün xəstəliklərlə mübarizə vasitəsi hesab olunur.
12. Zümrüd qaşı bir çox infeksiyalara qarşı da tutarlı əhəmiyyətə malikdir.
13. Bu daş ilan və əqrəb zəhərinə qarşı tarix boyu məlhəm hesab edilib (1).

14. Zümrüd dünyaya övlad gətirəcək, yəni hamilə qadınlar üçün də çox əhəmiyyətlidir, onlara rahatlıq verər.
15. Zümrüd qaşlı üzük taxanın bəxti daim açıq olar.
16. Zümrüd qaşlı zinət əşyaları taxanın övladı çox olar.
17. Səhər tezdən Zümrüd qaşa baxanın həmin gün işi uğurlu alınar.
18. Üstündə zümrüd qaşlı zinət əşyası gəzdirənə ilan, əqrəb və hətta nankor insan zərər toxundura bilməz.
19. Zümrüd qaş insana mərhəmət hissi də aşılaya bilir. Ən qəddar adamlar üstündə zümrüd qaşlı zinət əşyası gəzdirərsə həlimləşər.
20. Yuxusunda zümrüd qaşlı üzük və ya başqa zinət əşyası görən ən yaxın, istəkli adamı ilə, gəncdirsə, sevdiyi adamla görüşər və sevinib məmnun olar. Zümrüd yuxuda uğurlu görüş rəmzidir (11, 25).

Q.Aslanoğlu öz araşdırmalarında göstərir ki, zümrüd daşı bir tərəfdən, guya, bakirəliyi saxlamağa güclü təsir göstərir, digər tərəfdən isə qadın uşaq salmaq istərkən onu buduna bağlayır (20, 51).

Bir çox əfsanə, nağıl və rəvayətlərin mayasında zümrüd daşı ilə bağlı, onun sehrli və daha çox müalicəvi əhəmiyyəti ilə əlaqədar fikirlər çözələnib. Məlum olur ki, uzun illər boyu zümrüd daşına güclü inam qətiləşib, şahların, saray əyanlarının bu daşla bağlı qəribə inam duyğuları yaşanıb. Zümrüd daşının əsasən hikmət simvolu olması, qanlı döyüşlərdə, müharibə səhnələrində bu daşın soyuqqanlılıq hissi yaratması bildirilir. Hətta bir çox əfsanələrin mayasında bu daşın nahaq qan tökmək istəyəni, bu niyyətindən daşındırması, səhv hərəkətlərdən uzaqlaşdırması qabiliyyəti də göstərilir.

Bəzi məxəzlərdən də məlum olur ki, Zümrüd daşı Şərq aristokratiyasında xüsusi mövqeyə malik bir inanc mənbəyinə çevrilmişdir. Onun insan həyatı üçün uğurlu cəhətlərinə çox inanılmışdır. Daşın bütün variantlarda söylənilən pozitiv mifik və mistik anlayışını da onun insan üçün son dərəcə əhəmiyyətli

olan bir çox mineralların birləşməsindən törənməsi ilə bağlı hesab etmək daha real olardı.

Zümrüd daşı ilə bağlı mineroloqların fikrinə tuşlansaq, zümrüdün yaranması haqqında deyə bilərik ki, o, xrom üç oksid qarışığının təsirindən, əsasən, yaşıl rəngdə olur. Berulin şəffaf növüdür. Bəzən çatlı kristallar şəklində yaranır, şistli-karbonatlı süxurlarda rast gəlinir. Zümrüd qiymətli daşların birinci sinfinə aiddir. Xrom ionları çox olan zümrüdün rəngi yaşıl və keyfiyyəti üstün olur.

Zümrüd daşının yüksək karatlı, yəni beş karatdan artıq olan zədəsiz, təmiz növü Almazdan daha qiymətlidir. Məhəmməd İbn Həsən, yəni dünyanın böyük ensiklopedik alimi kimi tanınan Nəsrəddin Tusi özünün «Cavahiratnamə» əsərində üçüncü fəsli zümrüd daşına həsr edir. Hətta almaz daşından daha çox zümrüdü qiymətləndirir. O da göstərir ki, zümrüdü gəzdirən şəxs pis yuxu görməz, zümrüd ürəyə qüvvət verir. Soyuq şərbətlərdə ondan istifadə etməyi məsləhət bilən Əli-əl-ibn Sinanın fikirlərini Nəsrəddin Tusi də təsdiq edir. Qanaxmanın, qızdırmanın müalicəsi zamanı zəhərlənmiş şəxslərin bəladan qurtulmasında zümrüd tozunun suya tökülərək içilməsi və ya axşamdan suya salınan zümrüd daşlı üzüyün suyunun içilməsinin vacibliyini vurğulayır.

Nəsrəddin Tusi Zümrüdün əsas yatağının Mərakeşdə olduğunu yazsa da, Misirdə də zümrüdün böyük mədəni məlumdur. Ümumiyyətlə, tədqiqatlardan aydın olur ki, zümrüd daşı daha çox isti yerlərdə, o cümlədən Hindistanda daha çox olur və orada da onu qiymətləndirirlər.

Bir vaxtlar xalq arasında belə bir inam da qətiləşibmiş ki, Günəş mizan bürcündə olarkən bir misqal qızıl, bir misqal gümüş, bir misqal zümrüddən düzəlmiş üzüyü taxmaq adamın bəxtini açır, nüfuzunu artırar, arzularına çatdırar (29).

Zümrüdün "zəbərcəd" daşına çox yaxın olduğunu Əbu Reyhan Əl-Biruni də göstərib və qeyd edib ki, artıq zəbərcəd daşı yoxdur və bir vaxtlar bu daş zümrüd daşının ən yaxşı növünə aid idi ki, bu daşa Zəbərcəd deyilərdi.

Nəsrəddin Tusi zümrüd daşının on iki növünü göstərir. **«Asi»** adlanan növünü zümrüdün ən yaxşı növü hesab edir. «Asi»ni müəllif As ağacının yarpağına bənzədir. Bu növlər, daha çox, bu daşın rəngləri ilə bağlıdır. Aşağıdakı qruplaşma Nəsrəddin Tusinin Cavahirnamə əsərində verilir bu, bir çox mineroloqların fikirləri ilə də üçt-üstə düşür (23, 40).

1. Səlqi zümrüd çuğundur kökünə bənzəyir.
2. Səncari zümrüd pas rəngindədir.
3. Lübabi zümrüd milçək qanadına bənzəyir.
4. Reyhani zümrüd reyhan yarpağına bənzəyir.
5. Ləyqəli zümrüd güzgü kimidir, cilalanmış dəmirə bənzəyir.
6. Yulmanı zümrüd orta hissəsi görünməyən tünd-yaşıl zümrüddür.
7. Sahibi zümrüd də yaşıl zümrüddür.
8. Bəhri zümrüd dəniz suyuna bənzər açıq-yaşıla çalan zümrüddür.
9. Saduni zümrüd yaşıla çalır, sabuna bənzər.
10. Kərrasi zümrüd – kunduna yarpağına oxşar.

Müxtəlif yaşıl çalarlı zümrüd növləri daha çox tapılır. Zümrüd sınan, çatlayan daşdır, oda davamlı deyil, ehtiyatla istifadə etmək lazımdır.

Məkki daşı da zümrüd daşına çox bənzəyir, ancaq o, çox sərtdir.

Hətta bu məlum həqiqətdir ki, həkimlər gözü xəstə olan insanlara yaşıl gözlüklər taxmağı məsləhət bilirlər. Başqa yaşıl qaşlardan fərqli olaraq, zümrüd işıqlanmada öz rəngini olduğu kimi saxlayır. El arasında belə məsəl də var ki, gözəl üzə, yaşıl rəngə, axar çaya baxmaq gözün nurunu artırar.

Sulu zümrüd çox cəzbedicidir, gözəl görünüşü var. Zümrüd daşının özündən başqa, iki şəkildəyişməsini – Akvamarin və Berili məşhur mineroloq Pliney də göstərir. Hətta o deyir ki, qiymətli daşlar arasında elə bir daş yoxdur ki, zümrüd qədər insanların gözlərinə istirahət versin. Pliney Berili zümrüdün doğma qardaşı hesab edir. O, qiymətli daşlar

arasıda bir sıra səbəblərdən üçüncü yer də zümrüd daşını görür. Akvamarini də dənizin dərinliklərindən götürülmüş suyun insanın ovcunda bərkiyərək, çevrilib daşa dönmüş, qəribə inci kimi təsvir edir.

Nəsrəddin Tusi Akvamarini – Bəhri, Berili, Zübabi kimi qeyd etmiş, kvarsı isə Zülmani adlandırmışdır. Zümrüdün bəhri növü isə Aleksandrit adlanır. Bu, təbii ki, zümrüd daşını sonsuz məhəbbətlə sevən Aleksandrın şərəfinədir.

Zümrüd daşının, Nəsrəddin Tusinin dili ilə desək bəhri, zərgərlik məmulatları ilə məşğul olan mütəxəssislərin fikrincə isə Aleksandrit adlanan növü uzunsov şəkildə dəniz suyunu xatırladır. Elə lüğəti mənası da «dəniz suyu» deməkdir.

Zümrüd, akvamarin, beril, morion eyni görkəmə: prizmatik, uzunsov və eyni fiziki xassəyə: tez sınan, kövrək xüsusiyyətə malikdir.

Zümrüd ta qədim zamanlardan saray əyanlarının daha çox sevdiyi daş olduğu üçün nağıl, əfsanə və rəvayətlərdə daha çox hallanır və əksər hallarda da zümrüdün hikmət simvolu olduğu vurğulanır.

Zümrüd, guya, döyüşçülərə ən qanlı səhnələrə soyuqqanlı yanaşmaq hissini aşılayır. Bəzən isə əfsanələrdə zümrüd qaşlı zinət əşyası taxanın günahsız qan tökməkdən çəkinməsi göstərilir. Yaşıl zümrüdün tərkibindəki, berillium metalı rentgen şüalarını keçirir və bu, müasir tibb üçün son dərəcə əhəmiyyətlidir.

**Qacarın qılıncı**

Zümrüd qaşla bağlı bir əfsanədə deyilir ki, Ağa Məhəmməd şah Qacar Şuşa üzərinə hücuma keçərkən üstündə almaz qaşla yanaşı zümrüd qaşlarla bəzənmiş qılıncını da götürür. Yol boyu saldıqları məskənlərdə, qurduqları çadırlarda yatarkən qılıncını başının, yəni yastığının altına qoyarmış ki, yaxşı yuxular görsün, qaşlar buna qələbə rəmzi bəxş eləsin. Otuz üç gün ki, Şuşa qalası mühasirədə qalır, aralığa çaxnaşma düşür, Şuşa əhli təslim olmaq istəmir. Belə bir ərəfədə şahın

qılıncı itir. Sonradan Qacar öz adamları tərəfindən öldürülərkən, şahın bu faciəvi ölümünün başlanğıc əlamətini qılıncının itməsi ilə əlaqələndirirlər. Bəzi versiyalarda isə şahın qılıncının itməsi, ona hazırlanan sui-qəsdin ilk addımları kimi vurğulanır.

Rəvayət və əfsanələrin məğzində bu qaşın sehrli tərəfləri daha çoxdur. Ümumiyyətlə götürdükdə zümrüd qaşı ilə bağlı söylənən fikirlərin hamısı uğurlu inanclarla ilgilidir və bu daş şərq aristokratiyasında xüsusi mövqeyə malik bir inanc mənbəyi kimi tanınmışdır.

Zümrüd daşının el arasında Süleyman qaşı kimi tanınması tədqiqatlar əsasında iki versiyada səslənir.

Bir çoxları bu daşın Süleyman peyğəmbərlə bağlı tərəflərini göstərirsə, digərləri isə zümrüd daşının Sultan Süleymanın sevimli daşı olduğunu vurğulayaraq, onun adıyla bağlılığını izah edir.

**Süleyman daşı**

Hətta rəvayətlərdən birində deyilir ki, Osmanlı şahı Sultan Səlimin oğlu Sultan Süleyman altı yaşında ikən çox ciddi xəstələnir. Ağır zökəm onun gözlərinə təsir edir, ətrafı tor görür və bu hal atası Sultan Səlimi çox narahat edir. O, bütün mahallara soraq salır, təbib axtarır və Yəmən şəhərindən gələn loğman balaca Süleymanı sağaldacağına söz verir. O, xalis zümrüd daşı gətirdir, onun bir hissəsini həvəng-dəstədə döydürür, ikinci hissəsini isə alovlanmış oda verib xəstənin gözünün didəsinə tuşlayaraq 40 gün onu müalicə edir. Ovulmuş hissəsini isə müşk suyuna qatıb xəstəyə verir və beləliklə, Süleymanın gözünün nuru bərpa olunur. Rəvayətdə vurğulanır ki, o vaxtdan Süleyman bu daşa çox bağlanır, onu çox yüksək qiymətləndirir, hətta ən çox sevdiyi yaxınlarına sonsuz hörmət və məhəbbətini də yaşıl rəngli zümrüd qaşlı zinət əşyaları bağışlamaqla izhar edir. Guya, Sultanın məmləkətində, sarayında da yaşıl rəngli zümrüd daşına xüsusi qiymət verərək, «Süleyman daşı» kimi müqəddəs anlamla yanaşıblar. Hətta yaşıl rəngin də gözün nurunu artıracağına çox

inanırlar.

Deyilənə görə, Sultan Süleyman sevimli hərəmi olan Hürrəm Xatuna da böyük sevgisini zümrüd qaşlı üzük bağışlamaqla bildirib. Bu tarixə düşmüş bu uğursuz məhəbbət də zümrüd qaşı ilə təcəssüm edilib (29).

Bu daşla bağlı başqa versiyalı bir rəvayətdə deyilir ki, Süleyman peyğəmbərin bir yaşıl qaşlı zümrüd üzüyu var imiş. Peyğəmbər hansısa hadisəni dəqiqləşdirmək istərkən, axşamdan sehrli üzüyünü suya salar, həmin hadisənin açmasını Tanrıdan diləyər və yatanda suyu içib yatarmış. O gecə həmin hadisə yuxusunda peyğəmbərə agah olarmış. Bu yaşıl qaşlı zümrüd üzüyə isə Süleyman daşı deyərmişlər.

Zümrüd daşı ilə bağlı orta əsr ədəbiyyatçılarının da həmişə fikirləri olub. O cümlədən öz yaradıcılığının mayasını folklorda alan Nizami Gəncəvi bütün əsərlərində demək olar ki, zinət əşyalarının, o cümlədən zümrüd daşının adı hallanıb.

**Zümrüddən** nərd verdi-üstü al-əlvan
Bəzəyi qırmızı sarı **yaqutdan** (24, 251)

Daha bir məxəz isə müqəddəs Qurani-Kərimdə də adı hallanan Süleyman peyğəmbərlə bağlı rəvayətdir. Bu əfsanə **“Süleyman və onun sehirli üzüyü”** rəvayətinin başqa bir versiyasıdır.

Möhtəşəm Süleyman peyğəmbərin bir üzüyü varmış ki, həmin üzüyün qaşında Allah yazısı varmış. Elə Süleyman peyğəmbərin möhtəşəmliyi də bu üzüklə bağlı imiş. Üzük onun barmağında olanda yerin də, göyün də hakimliyi məqamına ucalmış, bütün canlılar və cansızlar, insanlar, divlər, pərilər, quşlar və heyvanlar onun fərmanı altında olarmışlar. Qəzadan bir gün o üzük bir div tərəfinən oğurlanır və bununla Süleyman öz möhtəşəmliyini itirir. Lakin sonra haqq bərqərar olur: Süleymanın özü həmin üzüyü dəryadan tutduğu balığı bişirmək üçün yararkən mədəsindən aşkar edir və o, keçmiş möhtəşəmliyini geri qaytarır... (30, 136).

Zümrüd daşı ilə bağlı topladığımız bir çox bayatılar da bu daşın uğurlu enerji mənbəyi olduğunu təsiqləyir.

Gün gedər, zaman qalar
Bu qaş zümrüd daşıdır
Dərdi-bəlamı alar,
Məni xoş günə salar.

Zümrüd daşına inam daha uzunömürlü olub.

Zülfüm ucu ilandı,
Zümrüd daşı dərmandı.
Sənin məhəbbətinə
İnanmıram, yalandı... (2)

Burada da Zümrüd daşının adının ilanla qoşa çəkilməsi bir çox incə mətləblərlə ilgilidir. El arasında zümrüdün ilanın gözlərini kor etməsi inamı, ikinci bir tərəfən ilanın zəhərinin yaşıl rəngi ilə zümrüdün yaşıla çalmasının bənzərliyi bu cür bayatıların məna çalarına uyğun gəlir. Hər halda xalq sözü yalan olmaz, hətta yanlış olsa belə, nəsə bir hikmətlə ilgili söylənər.

Ağrıdar yar yarası
Zümrüd qaşdır çarası
Üzüyümdən düşübdür
Ləl qaşının parası

Xalq ağrısının çarəsini təsadüfi olaraq zümrüd qaşında görmür, bir tərəfdən nişanə simvolu daşıyan bu pozitiv enerjili daş digər tərəfdən də sehirli qüvvəsi ilə dərdlərə çarə kimi qiymətləndirilir.

Təbii zümrüdü başqa daşlardan və süni yolla hazırlanan zümrüddən fərqləndirmək bir qədər çətindir. Birinci ona görə ki, zümrüdün növləri müxtəlif və fərqlidir. Onun spesifik yaşıl rəngi, tərkibindəki xrom ionlarının olmasından irəli gəlir. Zümrüdü süzgəclə müşahidə etmək mümkündür və o zaman təbii zümrüd qırmızı rəngi əks etdirməlidir, sünilər isə yaşıl rəng verir. Zümrüdün süni yolla hazırlanması da çox baha başa gəlir.

## YAQUT

Cavahirat aləmində ən qiymətli daş almaz və ya onun cilalanmış növü olan brilyant qaşlar hesab olunsa da,

Nəsrəddin Tusi kimi ensiklopedik bir alim «Yaqut» qaşına daha çox önəm verib və hətta özünün «Cavahirnamə» əsərinin ikinci fəslini bu daşa həsr edib. Reyhani əl Biruni isə zinət əşyalarının arasında yaqutu ən qiymətli daş hesab edib. Yaqut daşı ilə bağlı inanclar toplusu:

1. Yaqut daşı, əsasən, xərçəng bürcü altında düyaya gələnlər üçün uğurlu sayılır və bu bürcün həmayili, əsasən, açıq qırmızı yaqutun bəhrimani növüdür (2).
2. Qız bürcündə dünyaya gələnlər göy yaqut, yəni sapfir qaşlı üzük taxsalar, işləri daim uğura yönələr. Deyərlər ki, bu daş onların talismanıdır (26, 137).
3. Oxatan bürcü altında dünyaya gələnlər üçün də tünd-qırmızı yaqut uğurlu hesab olunur (10).
4. Yaqut daşı, ümumiyyətlə, tarix boyu qorucuyu xüsusiyyətə malik olan bir daş kimi qiymətləndirilib. Hətta belə hesab edirlər ki, Yaqut qaşlı üzük insanı üşüməyə qoymur (10).
5. Yaqut qaşlı üzük-sırğa taxanlar qəm-qüssədən uzaq olarlar (10).
6. Yaqut qaş susuzluğu söndürmək qabiliyyətinə də malikdir (10).
7. Yaqut qaş gəzdirən döyüşçü həmişə qələbə çalar (10).
8. Ruhi xəstələr yaqut qaşlı üzük taxsalar, özlərini çox yaxşı hiss edərlər (10).
9. Yaqut qaşlı zinət əşyaları insanda ruh yüksəkliyi yaradır. Bu, daha çox əsil qırmızı yaquta aiddir (10).
10. Deyərlər ki, qırmızı yaqut həm də sevgi rəmzidir; o, insanda məhəbbət hissini saflaşdırır (10).
11. Sapfir daş, yəni göy yaqut insanın günahlarını təmizləyir; bu qaşa tarix boyu «müqəddəs sapfir» də deyilib. Bu daşa "səfurə" də deyilir.
12. Yaqut üzük taxanın baş ağrısı olmaz, – deyərlər.
13. Yaqut, ümumiyyətlə, orqanizmdə olan ağrını çəkib çıxarır.
14. Üzüyünün qaşı yaqutdan olanın ürəyi möhkəm olar.

15. Hər kəsin zinət əşyalarının arasında xeyir-duası verilməyən yaqut qaşı olarsa onun bütün əşyalarına neqativ enerji keçirər.

16. Yaqut daşını gəzdirənin vicdanı təmiz olar, – deyərlər.

17. Yaqutun insana güc verdiyinə də çox inanılıb.

18. Yaqut qaş bir yuxu obrazı kimi çox uğurlu yozum verir və bütün yaqutlar yuxuda qələbə müjdəli rəmzdir və rənginin də səbəbi budur.

Yaqut korund mineralının ən şəffaf növüdür. Əsasən qırmızı olur, yəni xromla qarışığı olduğu üçün rubindi (36, 11).

Bəzən yaquta korbunkul və antraks da deyilir; bu adlar onun rəngi ilə bağlı səslənir. Ümumiyyətlə, qiymətli daşlar xalq arasında öz xüsusiyyətlərinə görə iki qrupa bölünür. Bir qrup sirli və əsrarəngiz qüvvəyə malik olmaqla sehrli, tilsimli sayılır, digər qrupu isə müalicəvi əhəmiyyətə malik olub, insanı xəstəliklərdən qoruyur. Sapfir qaşlar, əslində, sehrli daşlar qrupuna aiddir; o, korundun göy rəngli növüdür. Cavahirat aləmində qırmızı rubindən, yəni yaqutdan başqa, korundun digər rənglərinə də sapfir deyirlər. Bu nə dərəcədə düzdür, deyə bilmərəm, ancaq Nəsrəddin Tusi də, Reyhani əl Biruni də bütün araşdırmalarında bu qaşları qırmızı yaqut, göy yaqut, sarı yaqut kimi növlərə ayırıb və əsasən, elə o cür də səsləndirib.

Nəsrəddin Tusi özünün «Cavahirnamə» əsərində göstərir ki, yaxşı almazın qiyməti qırmızı yaquta bərabərdir. O, yaqutu, mirvarini almazdan çox yüksək qiymətləndirir. Təbii ki, alim burada bu daşlara mineralların orqanizmə təsiri nöqteyi-nəzərindən yanaşır.

Dini məxəzlərdə yaqut əsasən dörd rəngdə göstərilir: qırmızı, sarı, mavi və ağ. Yaqutun büllurları yad maddələri özündə ehtiva edir. Yaqutun ən bəyənilən rəngi mavi rəng kimi göstərilir. Dünyanın ən böyük və məşhur qırmızı yaqutları bunlardır:

1. Eduardın qırmızı yaqutu 167 karatdır. London muzeyində saxlanılır.
2. Rioz ulduzu yaqutu. 139 karatdır. Amerika

muzeylərindən birində saxlanılır.

3. Lanqastar yaqutu. 100 karatdır. Nyu-York muzeyində saxlanılır.

Burada göstərilir ki, dünyanın ən yaxşı yaqutu mavi yaqut – yəni sapfir sayılır ki, bu söz yunan dilində “mavi” deməkdir. Sapfirlər əslində mavi, qara və tünd sürməyi olur. Bu minerallar beyin xəstəlikləri, revmatizma, oynaq ağrıları, dəri həssaslıqları, qalxanvari vəzlər və səs tellərinin müalicəsi üçün son dərəcəli əhəmiyyətlidir (22, 36).

Yaqut – ta qədim zamanlardan enerji daşı hesab edilib (2). O, tarix boyu inanclara görə qoruyucu vasitədir. Yaqut qaşı insanları əsasən davadan, düşmən hücumundan, vaxtsız ölümdən qoruyur. Bu daş Hindistanda daşların şahı kimi qiymətləndirilir. Onda istilik enerjisi də var.

Yaqut əsasən iki cürdür:

1. Bəhremanı əsasən Qırmızı rəngdə olur.
2. Ərğavani əsasən qara-qırmızı rəngdə olur.

Rənginə görə isə 4 cürdür:

Yaqutun cilalanmış başqa rəngləri sapfir adlanır.

1. Qırmızı yaqut
2. Sarı yaqut
3. Göy yaqut
4. Ağ yaqut

Yaqut ləl daşdan başqa, bütün daşlardan parıltılıdır.

Qırmızı yaqut bu qaşın ən yaxşı növüdür. Ona Bəhremanı deyirlər.

Tünd-qırmızı yaquta yəni Ərğəvaniyə nisbətən o daha qiymətli hesab olunur. Qırmızı Yaqutun daha beş növü də var, bu qaşlar da sevilir.

1. Vərdi – bənövşəyi yaqut, ləldən ucuz qiymətlidir.
2. Xəmri – qırmızı-sarı rəngində
3. Zəhmi – ət rəngində
4. Çülnarı – tutqun-qırmızı olur.

Yaqutların ləl oxşarlıqları olsa da, onlar keyfiyyətinə və qiymətinə görə çox fərqli daşlardır.

Yaqut Şərq aləmində xüsusi qiymətləndirilən daş olmuşdur. Əl Biruninin fikrincə, qiymətli daşlar içərisində ən füsunkarı Yaqutdur. Nəsrəddin Tusi kimi böyük bir korifey daşların bu zümrəsinə laqeyd yanaşmayaraq, özünün «Cavahirnamə» əsərində bu qaşın bütün növlərini xırdalıqlarına qədər araşdırmışdır. Hətta o, göy yaqutun Tavusi göy, asimangün və kəhli–sürməyi nili – lacivərdi, şəbəhrəng deyilən qara-göy növlərini də göstərmişdir.

Sarı yaqutun isə ən yaxşı növü ərik rəngli mismisi, Şəmi – parıltılı sarı, Narıncı – zəfəran, Turunc – sepidpey, Kirşanı kahı-samanı və s. kimi növlərindən və ağ yaqutun qurğuşun – Bülluri növlərindən danışır.

Yaqutu nadir hallarda cilalayırlar. Cilalanmış yaqut isə çox dəyərli hesab olunur. Qırmızı yaqut bütün daşları cızır. Yaqutun özünü isə ancaq Almaz cızır. Oda çox davamlı olur və odun təsirindən ağarsa da, sonra yenidən əvvəlki vəziyyətinə qayıdır.

Ümumiyyətlə götürəndə, bütün daş-qaşların insan həyatına təsir edən uğurlu tərəfləri sonsuzdur. O cümlədən Yaqut daşı da bu cəhətdən çox səciyyəvidir. Hətta Nəsrəddin Tusi qədim hind mənbələrinə istinad eədərək «Cavahirnamə» əsərində göstərir ki, yaqutu özü ilə gəzdirən şəxs bir çox xəstəliklərdən uzaq olar. O cümlədən taun və vəba xəstəliyinə heç vaxt tutulmaz. Yaqutu ağıza aldıqda ürəyə şəfa verər, o qəmi, qüssəni, kədəri dəf etmək qabiliyyətinə malikdir. Yaqut susuzluğu yatırır və bir çox daşlardan fərqli olaraq, ağızda soyuqluğunu itirmir. Yaqutu üstündə gəzdirənlər camaatın gözündə heyrətli və əzəmətli görünər. Şərbət və məcunlara qatılarsa, çox xeyirli olar. Yaqut insanda sevinci və şücaəti artırar. Qanı saflaşdırar. Hətta yaqutu ölünün qoluna və ya bədəninin hansısa hissəsinə bağlasalar, qanı donar. Məcunlardan zəhərlənmə qorxusunu aradan qaldırır. Məcazı qüvvətləndirər. Bir dərman kimi gözün işığını artırar və sağlamlığı qoruyar.

Yaqut, ümumiyyətlə, birinci növbədə ruhi xəstəliklərin

müalicəsi üçün çox əhəmiyyətlidir. Bunu topladığımız bir çox nağıl və rəvayətlərin (7, 11) süjetində də izləyəcəyik. Yaqut daşının tarix boyu sehrli qüvvəyə malik olması haqqında da fikirlər çoxdur. Müqəddəs kitabımız «Qurani- Kərimdə» **də yaqut daşı ilə bağlı** cənnətin huriləri haqqında deyilir ki, «onlar, elə bil ki, yaqut və mirvaridirlər».

Əl Biruni də özünün «Cavahirnamə» əsərində ən qiymətli və sevimli daş kimi Yaquta daha çox önəm vermişdir.

A.İ.Kuprin «Sulamif» hekayəsində göstərir ki, Süleyman peyğəmbər yaquta belə qiymət verir: «Müqəddəs torpağın müqəddəs daşı antraksa baxın. O, nəm və suludur. Baxınız, o qan kimi qırmızıdır. Batan günəşin şəfəqini, açılmış nar gülünü, engediya üzümündən hazırlanmış qatı al şərabı xatırladır. Bu daş sevgi, qəzəb və qan daşıdır. Titrətməli və yaxud arzusundan keflənmiş insanın əlində daş tündləşir, al alovla yanır. Onu əridib su ilə içsən, sifətin allanacaq, qarnın sakitləşəcək və ruhun şənlənəcəkdir.

Yaqutu daşıyan insanlar düşmən üzərində hökmən qələbə qazanar. O, ürəyi, zehni və xatirəni müalicə edir.

Bütün Şərq yaqutu vəba xəstəliyinin qoruyucu daşı heçab ediblər və bu daşı «Səməcü-əsmir» adlandırıblar, yəni vəbanı dəf edən.

Göy yaqutu – yəni sapfiri düzlüyün, vicdanın və təmizliyin simvolu hesab edirlər.

Hətta bu daş haqqında belə bir fikir də söylənilir və bu, əslində heç rəvayət deyil ki, ingilis şahları Dövlət imperiya tacının qabaq hissəsinə tünd-göy sapfir yerləşdirmişlər.

Ancaq rəvayətə görə Britaniya xəzinəsinin ən qiymətli daşı göy yaqut, yəni sapfir olmuşdur. Deyilənlərə görə, o göy yaqut elə tapıldığı formada da qalmışdır. 1042-ci ildə o zəmanənin ənənəsinə uyğun olaraq taxta çıxan dindar Eduardın üzüyünə bağlatdırılmış, sonra Eduarda «müqəddəs» ləqəbi verilir və onun bu üzüyü də tarixə «Müqəddəs sapfir» kimi düşmüşdür.

İngilis şahı Karlın tacını ancaq sapfir qaşla bəzətdirmiş

və o, bu daşı çox uğurlu hesab edərmiş. Şahlar sapfiri göy qübbəsinə bənzətdikləri üçün onu ucalıq rəmzi hesab edərmişlər.

Tədqiqat zamanı görüşdüyümüz bir çox zərgərlik aləmi ilə bağlı insanlar yaqut haqqında danışarkən tez-tez onu «rubin» deyə səsləndirir və göstərirdilər ki, qırmızı rubindən başqa, yəni yaqutdan başqa korundun digər rəngdə olan növlərinə sapfir deyilir. Hətta onların fikrincə sarıya, yaşıla, çəhrayıya, narınca, zəfərana çalan sapfirlər də alıcılar tərəfindən həmişə sevilib, sevilir və qiymətləndirilir. Ağ sapfir də ən qiymətli qaşlardan hesab olunur.

Parisdə cilalanmış iki qiymətli sapfir saxlanılır. Onlardan biri «Raspoli» adlanır çəkisi yüz otuz beş qramdır.

Nyu-Yorkda da C.P.Merqanın kolleksiyasında «Hindistan ulduzu» adlanan sapfir kövkəb var ki, onun üç yüz altmış üç karat çəkisi var.

Yaqut haqqında rəvayətlərdən birində deyilir ki, keçmişdə Xosrov Ənuşirəvan şahın xəzinəsində çox qiymətli bir yaqut daş varmış ki, bu daş əslində **"Gövhəri"** adlanırmış, ancaq gecə vaxtı gur işıq verdiyindən ona **"Gövhəri-şəbçıraq"** deyərmiş-lər.

Bu qiymətli yaqut sonralar Bağdad xəlifəsinin əlinə keçir. Xəlifə Mehdinin bundan başqa üç qiymətli gövhəri də var imiş. Onlardan birinə «Dürri-yətim», o birinə «Yaqut Misqalı», üçüncüyə isə «Dinari» deyirdilər. Dürri-yətim fars vilayətinin yaxınlığındakı Xark dənizindən çıxarılmışdı. Xəlifə Mehdi öldükdən sonra bu yaqutlar iki oğluna – Hadi və Rəşidə verilir. Hadi Xəlifə olduqda Rəşidin yanına adam göndərir ki, «Gövhəri-yaqutu» versin. Rəşid vermək istəmir, onu atasının yadigarı kimi qoruyub saxlayacağını düşünür. Xəlifə əl çəkməyəndə Rəşid Yaqutu Dəclə çayına atır. Lakin xeyli müddətdən sonra mirvari çıxaran üzücüləri çağırır, yaqutun yerini göstərir və yaqutu çıxartdıra bilir. Rəşid çox sevinir və bunu yaxşı bir əlamət kimi yozur. Yəni uğurlu əlamət hesab edir.

## Sara xatunun Trabzon səfəri

Yaqut daşı haqqında toplanan rəvayətlər arasında daha çox diqqəti cəlb edən Sara Xatunun Trabzon səfəridir. Belə söyləyirlər ki, Sara xatun Ağqoyunlu dövlətinin hökmdarı uzun Həsənin anası, öz oğlunu Trabzon hökmdarının qızı Dəspinə xanımla evləndiribmiş. Və Trabzona hücum etmək istəyən hökmdarları, həmişə uzun Həsənin onlarla müttəfiq olmağı narahat edərmiş. Bir vaxt da Osmanlı Sultanı Fateh Mehmet Trabzonu almaq fikrinə düşür, ancaq arxadan təhlükəsizliyini təmin etmək məqsədi ilə Ağqoyunlu dövləti ilə danışıqlara girməyə təşəbbüs edir. Hər bir işin həllində anası ilə məsləhətləşən, onun müdrik fikirlərindən bəhrələnən Uzun Həsən Mehmet bəylə danışığa bir saray ağbirçəyi kimi yenə də müdrik tədbirli Sara Xatunu göndərir. Təcrübəli diplomat xanım işləri elə düzüb qoşur ki, Sultan Mehmet «ana» deyə-deyə Sara xatunun tədbirləri ilə razılaşır. «Türk-türkə arxa olmalıdır» prinsipi ilə heç bir qan tökmədən Trabzon Türkiyə hakimiyyətinə birləşir və bu zaman Trabzon hökmdarının xəzinəsi təbii olaraq Sultan Mehmetin əlinə keçir. Sara xatun əvvəlcədən qoyduğu şərtə əsasən xəzinədən cavahirat götürməli olur. O, öz zövqünə uyğun ən qiymətli daşlar seçir və deyilənə görə bu daşların çoxu təbii qırmızı yaqut və almaz daşlar imiş. Sonradan məlum olur ki, Sara xatunun gətirdiyi cavahirat Trabzon xəzinəsinin ən qiymətli daşları imiş və demək olar ki, xəzinədən daha qiymətli xanımın bu müdrikliyi bütün şərq aləmində heyrətlə qarşılanmışdır.

## Sərkərdə Cavanşir bəyin İran səfəri

Daha bir əfsanədə deyilir ki, VII əsrdə Albaniya Sasani hakimiyyətindən yarımasılı vəziyyətdə olduğu üçün Albaniya hökmdarları sazişə, əsasən, oğlu Cavanşiri qoşunla bərabər İrana göndərir ki, ərəblərlə müharibədə onlarla bərabər döyüşsün. Cavanşir orada igidlik göstərir, qəhrəmanlıq edir və döyüşdə İran, demək olar ki, Cavanşirin köməyi nəticəsində qələbə çalır. Bu vaxt İran şahı Cavanşiri öz otağında qəbul edir və əlini onun başına qoyaraq «mənim xəzinəmdən nə istərsən,

götür» deyə təklif edir. Cavanşir heç nə götürmək istəmir, çox təkiddən sonra o, qələbə rəmzi olaraq tünd-qırmızı qaşlı yaqut üzük götürür. Lakin şah onu sərkərdəliyinin kanarayları olaraq bayraq, qızıl nizə, qalxan və başqa qiymətli hədiyyələrlə də təltif edir və Cavanşirdən nə üçün məhz o üzüyü seçdiyini soruşanda, Cavanşir yaqut qaşın şücaət rəmzi olduğunu və insana güc-qüvvət verdiyini açıqlayır. Əslində isə Yaqut daşı öz gözəlliyinə, parlaqlığına və şəffaflığına görə həmişə diqqət mərkəzində olmuşdur. Hətta şairlər, yazıçılar bədii təsvir, müqayisə zamanı bu qaşdan çox istifadə edir. Yaqutu saf, müqəddəs duyğuların təcəssümü, gözəlliyin rəmzi kimi vurğulamışlar.

Yaqut daşını digər daşlardan və süni yaqutdan fərqləndirmək də çox asandır. Bunu mikroskopla müşahidə etmək olur. Təbii yaqutun tərkibi heç vaxt təmiz olmur. Orada tutqun, qeyri-bərabər ölçülü iynəyə bənzər xətlər görünür və müxtəlif formalı ləkələr olur, ancaq bu ləkələr və xətlərdə bir ardıcıllıq, səliqə, nizam da müşahidə olunur. Sapfir də eyni ilə təyin olunur, əslində o da yaqutdur. Ancaq yaqutun tərkibindəki korund mineralının şəkil dəyişməsidir. Hər iki daş eyni şüasındırma göstəricisinə, disspersiya effektinə və sıxlığa malikdir.

Dünya elmlərindən xəbərdar olan şifahi xalq ədəbiyyatının hikmət xəzinəsini tam mənası ilə dərk edən dahi Nizami Gəncəvi də əsərlərinin bir çox məqamlarında Yaqut qaşı xüsusi vurğulayır və bu daşı daha müqəddəs anlam kimi qiymətləndirib.

Padişah buyurdu o gözəl dilbər
**Yaqut** sandığından saçsın saf gövhər (24, 553)

**Yaquta** bənzəyən suyu saqi dur
Bu yaqut yağdıran qədəhə doldur. (24, 47)

O gülgün meydən ki, **yaquta** bənzər
Gündüzün üzünə səpdilər **gövhər**.

Üzümün rəngini şərabla bir tut
**Yaquta** bənzətmə, qıl tam bir **yaqut**!
Gördüm ki, xəzinə dolu bir mədən
Tamam **yaqut**, qızıl boldu nə desən
Dünyanın cürbəcür hiylələri var
Gah **yaqutu** əzər, gah dürr oğurlar
Bu üç rəngə əgər o yüz rəng alar
Hər daşı **yaqutla** həmahəng olar

İraq-Kərkük bayatılarının birində deyilir:

**Yaqut** sizsiz, altın biz
Qar dağın sədd qoydular
Çoxdan keçdik altun biz, (27, 70)

həmin bayatının Azərbaycan variantında:

**Yaqut** mənəm, **zümrüd** sən
Qarlı dağlar keçərsən
O yolda kimi görsən
Məndən salam deyərsən (29)

Ulduz axır, durma, tut
Qəmi, kədəri unut
Sevginin əlacıdır
Qırmızı Xəmri yaqut

Gövhəri şəb-çırağam
Yaqutam, ancaq ağam
Sahibimi itirdim
Heyif ki, özüm sağam

Yaqut qaşın daha saf, uğur inanclı olması bu misralarda da öz təsdiqini bir daha tapır. Bu daşla bağlı bayatıların, oxşamaların, layla və ağılar kimi şifahi xalq ədəbiyyatının bir çox nümunələrində də yetərincə faktlar müşahidə olunur.

## LƏL

Qiymətli zinət daşları sırasında ən qədim tarixə malik, hökmdarların, şahların sevdiyi ləl daşının xüsusi yeri var.

Təbiətdə nadir tapılan, gözəl xarici görünüşə malik olan bu mineralın həm sehrli, həm də müalicəvi tərəflərinə inam çox olmuşdur. Ləl – Yaquta bənzəsə də, onun parlaqlığı daha çoxdur. Bir mineral kimi onun tərkibi də müxtəlif və daha çox

birləşmələrin məcmusudur. Odur ki, ləl daşı parlaqlığı və rəng çalarlığının müxtəlifliyi baxımından bir çox daşlardan fərqlənir. Əslində, Ləl də Yaqut kimi korundun şəkildəyişmələrindən biridir. Ləl, demək olar ki, Yaqut qədər müalicəvi əhəmiyyətə malik bir daşdır, ancaq onun sehrli tərəfləri daha çox vurğulanır.

**Ləl daşa dair inanclar toplusu…**

1. **Ləl** daşı insanı şər qüvvələrdən qoruyur, – deyərlər.
2. **Ləl** qaşlı üzük və sırğa taxan böhtana düşməz.
3. **Ləl** qaşlı zinət əşyasının əsasən şahlara, vəzifə sahiblərinə uğur gətirəcəyinə inanarlar.
4. **Bənövşəyi ləl** daş şöhrət rəmzidir, bu daşı gəzdirən tez bir zamanda şan-şöhrət sahibi olar, vəzifəsi, rütbəsi yüksələr, – deyərlər.
5. Hansı şahın xəzinəsində ləl daşı olsa, onun xəzinəsinin zənginləşməsinə çox inanarmışlar.
6. Ləl daşı da Yaqut kimi ürəyə qüvvət verir.
7. Ləl qaşlı sırğalar taxanın qarşısında hər kəs lal olar, yəni tabeçilik rəmzidir.
8. Deyilənə görə ləl daşını İdris peyğəmbər çox sevər və onu taxanlara həmişə yardımçı olarmış.
9. Ləl daşı böyrəklərin fəaliyyətini gücləndirir, insanın qanını təmizləyir.
10. Yuxusunda Ləl qaşı görənin əlinə sərvət keçər, deyərlər (12, 20).
11. Ləl daşı insanın həmzatını təmizləyər, bağlı yollarını açar, talismanı olduğu şəxslərə xoşbəxtlik verər, deyirlər.
12. Deyərlər ki, Ləl qaşlı üzük taxanın köməyinə İdris peyğəmbər gələr, dara düşərkən onu çağırmaq yetər (1).
13. Ləl qaşlı zinət əşyası gəzdirən yol azmaz, bu daşa istiqamət rəmzi kimi də inanırlar (1).
14. Ləl daşı əsasən sərvət, ruzi verən daş kimi qiymətləndirilir (1).
15. Ləl həmçinin qəm, qorxu, pis yuxuları uzaqlaşdırar, insana yaşam üçün eşq, zövq verər (22, 30).

**Ləl** – daşı, ümumiyyətlə, cavahirat aləmində həmişə yüksək qiymətləndirilib. Ancaq yaquta bənzədiyindən qeyri-peşəkar mütəxəssislər tərəfindən çox zaman yaqut kimi qəbul edilib və onun adı ləl olaraq çox hallanmayıb. Digər tərəfdən, ləl az tapılan mineral kimi də nadir daş hesab olunub. Nəsrəddin Tusinin «Cavahirnamə» əsərinin beşinci fəslində vurğulanır ki, Sultan Cəlaləddinin xəzinəsində böyük bir ləl parçası var imiş və bu ləl parçası ilk öncə Azərbaycan Atabəylərinin xəzinəsində olub, sonradan Xarəzmşah Sultan Cəlaləddinin xəzinəsinə keçmiş, oradan da Çində hakimiyyət başında duran Qaanın dərgahına gətirilmişdir. Ləl ən qədim tarixə malik daşlardandır və tarix boyu xəzinələrin qiymətli cavahiratlarından olub.

Zərgərlik aləmində Ləlin min ildən çox istifadə olunub, bu gün də öz dəyərini, keyfiyyətini itirmədiyindən danışılır. Tədqiqatlardan məlum olur ki, Ləlin ilk tapılan, tanınan və saray əyanları tərəfindən sevilən növü bənövşəyiqarışıq rəngli **İdrisi** növüdür. Orta əsrlərdə isə İdrisi ləllə yanaşı bənövşəyi, göy, qırmızı, yaşıl, sarı növləri də tapılmış və istifadə olunmuşdur. Ləlin «nəcib» adlanan bir parlaq növü də var ki, onun qarışığı olduqca azdır və bu ləl qırmızı rəngdə olub, yaqut daşı xatırladır. Nəsrəddin Tusi göstərir ki, ən böyük ləl parçası altmış-yetmiş misqal ağırlığında olub və Ləl mədənlərinin ən məşhuru Əbül–Abbası və Süleymani adlanır ki, həmin ləl Süleymanidən tapılmışdır.

Sarı ləlin, qırmızı ləldən bərk olduğunu Reyhani əl Biruni də təsdiq edir. Hətta Nəsrəddin Tusi bu mineralın bir tərəfinin qırmızı, digər tərəfinin isə sarı ola bildiyini də qeyd edir. Ləl zümrüddən və yaqutdan daha parlaqdır.

Qırmızı ləl **«piyaz»** ləl adlanır. Nəsrəddin Tusi bu daşı ləlin ən yaxşı növlərindən hesab edir. Əkhəb növünün isə tünd-qırmızı rəngdə və aşağı keyfiyyətli olduğunu qeyd edir. O, ləlin növlərini belə qruplaşdırır.

1. İdrisi – parıltılı-bənövşəyi və qırmızı rəngli ləldir.
2. Piyazək – sulu ləldir, şəffaf-parıltılı olur.

3. Təmri – hər rəngdə olur.
4. İnnabı – qırmızı-parıltılı ləldir.
5. Bəqqəmi – əsasən sarı rəngdə olur, çox parıltılıdır.
6. Əkhəb – tünd-qırmızı rəngdə olur, parıltısı zəifdir, keyfiyyətcə aşağı növdür.

«Bicadə» adlanan bir daş var. Onu ləl adına çox satırlar. Əslində, bu, ləl deyil, ancaq cavahiratla məşğul olan mütəxəssislər buna saxta ləl deyirlər. Bu daş ləldən çox sərtdir və sürtdükdə rəngi dəyişir. Ləli isə nə qədər sürtsən, rəngini saxlayar, ağarmaz (23, 25).

Ən qiymətli ləl sulu Ləldir. Ləl ləkə götürən daşdır. Onu mirvari kimi mühafizə edib qorumaq vacibdir. Kəskin iyli və təmli şeylər onun gözəlliyini itirər.

Ləl qaş, daha çox, sehrli əlamətlərinə görə tanınır.

**İdris peyğəmbərin ləli**

**«İdrisin ləli»** adlı bir rəvayətdə deyilir ki, İdris peyğəmbər hələ gənc ikən bir səhər sübh tezdən çay kənarında var-gəl edərkən qəflətən bir parıltı görür, yaxınlaşır ki, iri bir daş bərq vurur, göz qamaşdırır. Bənövşəyi rəngin arasında min bir çaları olan bu daşa baxdıqca, elə bil, ruhu təzələnir. Müdrik gənc başa düşür ki, bu adi daş deyil, onu götürür, xeyli diqqətlə baxır, sonra evə gətirib yatağının baş tərəfində mütəkkəsinin altına qoyur. Gənc İdris həmin gecəni çox rahat yatır, həmişəkindən fərqli olaraq qəribə yuxular görür və bu hal bir neçə dəfə təkrar olunduqdan sonra İdris bu əhvalatı ağsaqqallara nəql edərək, gördüyü yuxuların məzmununu da onlara danışır. Ağsaqqallar daşa baxıb deyirlər ki, bu, sehrli daşdır. Səxavətli İdris bu daşı o yan-bu yana fırladır, onun çıxıntılarından astaca qoparıb ağsaqqallara hədiyyə də edir. Bundan sonra hər kəsin işi dara düşüb xəstələnərsə, İdrisin yanına gələr, tilsim daşının köməyindən istifadə edər, altından keçər, ağrıyan yerlərinə sürtər, sulu qaba salıb suyunu icər, bir sözlə, bu daşın kəramətinə çox inanarmışlar. İdris böyüyüb peyğəmbər kimi kamilləşəndə, artıq bu daşa «peyğəmbər daşı» da, «İdris daşı» da deyərmişlər. İdrisi ləl uzun illər şahların,

sultanların xəzinələrində ən qiymətli cavahiratlardan hesab olunmuşdur.Ləlin bu növü çox parlaq və əsasən, bənövşəyi rəngli olur.

**«Üç qardaş, bir daş»** nağılında göstərilir ki, şahın üç oğlu var imiş. Şah dünyasını dəyişənə yaxın övladlarını çağırır, vəsiyyət edir və sərvətini üç oğlu arasında bölür. Cavahirat bölümünə gələndə şah birinci böyük oğlu Səttarı çağırır, böyük oğlu xəzinədəki bütün yaqut qaşları seçib götürür. Sonra ikinci oğlu Sərdarı çağırır, ikinci oğlu xəzinədəki bütün zümrüd qaşları seçir və xəzinədə ancaq ləl qaşlı zinət əşyaları qalır. Ləl qaşları da üçüncü oğlu Ələmdar yığışdırır. Ata dünyasını dəyişir. Böyük qardaş taxta çıxır, ortancıl və kiçik qardaş ölkəni tərk etməli olurlar. Hər iki qardaş belə qərara gəlirlər ki, biri günbatana, o biri isə gündoğana tərəf səfər etsinlər. Gecəni öz otaqlarında qalmalı olurlar. Gecənin bir aləmi Ələmdar görür ki, səfərə hazırladığı heybəsindən bir səs gəlir, yerindən qalxır, diqqətlə qulaq asır, görür xışıltılı bir səs deyir ki, Ələmdar, sən gündoğan tərəfə get, sənə xeyir oradan gələcək.

Nağıl dili yüyrək olar, oğlanlar: Sərdarla, Ələmdar hərəsi bir səmtə gedirlər. Ələmdar gündoğana, Sərdar günbatana yollanır. Amma Ələmdar bütün günü fikirdə olur», bu nə səsdi» deyə düşünür və nəhayət, heybəsini açır, orada yerləşən paltarlarını, götürdüyü əşyaları bir-bir çırpır. Düşünür ki, yəqin, bunu qara basırmış. Yenidən bütün əşyaları heybəsinə yığır, yoluna davam edir. Bir xeyli yol gedir, nağıl diliynən desək, az gedir, üz gedir, dərə-təpə düz gedir, dağı aşanda görür orada elə bir şəhər var ki, imarətlərin işığı göz qamaşdırır. Bir xeyli gedir ki, şəhərə çatsın, birdən heybə çiynində titrəyir, içərisindən bir xırıltılı səs gəlir: «Oğuz, düz get saraya gir». Ələmdar cəld heybəni açır, töküb baxır ki, heybədəki ləl daşlardan biri titrəyir, tez daşı götürür, daşın dörd tərəfi qızıl çərçivəyə salınmış par-par yanan yaxalıq olduğundan, bu ləli yaxasına sancaqlayır. Ələmdar düşünür ki, yəqin, bu ləl sehrlidir. Nağılın sonunda ləlin vasitəsi ilə Ələmdar həmin ölkənin şah olur, qardaşlar onu tapır. Böyük və

ortancıl qardaşlar bütün varidatlarını itirmiş olurlar. Ələmdar təmiz qəlbli olduğu üçün başına gələnləri qardaşlarına danışır. Qardaşlar atalarının ruhunun sehrli ləl daşına yerləşdiyini bildirir və deyirlər ki, bir halda ki bu daşda atamızın ruhu yaşayır, bu daş üçümüzə də aiddir. Ələmdar böyük qardaşlarının qəlbinə dəymir, onlarla razılaşır. Ləl daşı böyük qardaş götürür və deyir ki, bir ilin on iki ayını üç yerə bölək. Ləl daş hər dörd aydan bir bir qardaşda olsun. Əvvəl daş böyük qardaşda olur. O aylar tufan qopur, sırsıra olur, hamı üşüyür, həyat dayanır. Elə ki, ləl daş ortancıl qardaşa verilir, hər tərəf saralır, solur, duman, çən, yağış hamını bezdirir.

Ləl Ələmdara çatan kimi təbiət oyanır, gül-çiçək açır, dünya təzələnir. Nəhayət, qardaşlar qərara gəlirlər ki, daş Ələmdarda qalsın. Ələmdar isə buna razı olmur. Belə olduqda qardaşlar Ələmdardan qar-boran, tufan olduqda öz köməyini əsirgəməməsini xahiş edirlər. Ələmdar bu təklifə razılıq verir və o vaxtdan böyük qardaş ləli götürəndə qış, ortancıl qardaşa ləl çatanda payız, kiçik qardaşın növbəsində isə yaz fəsli gəlir və insanlar ilin bu üç fəslinə də öyrəşirlər.

Nağılda, birinci növbədə, daşa tapınmanın izləri müşahidə olunur. Daş insan ruhunun yerləşdiyi yer və ictimai təsiretmə vasitəsi olmaqdan savayı, bir də o, guya, insan kimi qəzəblənir, istədiyini edir və s. Əslində «Üç qardaş və bir daş» nağılında təsvir edilən daş, yəni Ləl qiymətli daşlar silsiləsindəndir. Təbii ki, qiymətli daşlar adi daşlara nisbətən daha sonralar insanların həyatına, məişətinə daxil olmuş, yəni onların inanc mənbəyinə də çevrilmişdir. Burada bir qiymətli daş olaraq Ləl daşının mineral kimi insan həyatına müsbət təsiri obrazlı şəkildə, müxtəlif fikirlərlə verilsə də, ümumilikdə bu daşın ədalət, uğur, mərdlik, şöhrət, bərəkət rəmzli tərəfləri də əks olunur. Bunu dolayı yollarla olsa da, hiss etməmək mümkün deyil, «Ləl» daşının öz sahibinə yol göstərməsi, ona yüksək şan-şöhrət, vəzifə gətirməsi və nəhayət, yad aləmlə barışmaması nağılın əsas qayəsidir. Maraqlıdır ki, «Ləl» daşı Ələmdarı qardaşlarından niyə fərqləndirir? Səbəb budur:

Ələmdar ədalətlidir; o, ədəb-ərkanı çox sevir, böyük qardaşlarına hörmətlə yanaşır, heç kimin qəlbinə dəymir və onun əsl sahibi Ələmdardır və s. Xalq bir tərəflən öz təxəyyülündə arzuladığı bütün müsbət keyfiyyətləri ləl daşının üzərinə köçürür, digər tərəfdən də bu daşın insan həyatına uğurlu, müsbət təsirlərini müşahidə edib, onu daha qabarıq, daha təsirli şəkildə təsvir edir. (toplama tədqiqat)

Hətta bir çox vəsfi-hallarda, oxşama və bayatılarda da başqa qiymətli daşlarla bərabər «Ləl» daşının da müxtəlif tərəfləri verilir.

Məclisə **Ləl** gətirin,
Düşməni lal gətirin,
Mən söyləyim siz yozun,
Bir xoş xəyal gətirin. (2)

Burada şeirin məzmunundan da məlum olur ki, söhbət Novruz bayramı ərəfəsi su falına yığılanların məclisindən gedir və «yığıncağa ləl gətirin» deməklə, uğurlu bir əşya arzulanır, yəni qalibiyyət rəmzi, qorxunu götürən, pozitiv enerjili ləl məclisə gələrsə, düşmən lal olar, arzu tutanın isə arzusu, xəyalı çin olar. Və yaxud başqa bir misal:

Çaylarda sel olaydı,
Saçımda tel olaydı,
Kaşki mənim sevgilim
Cavahir, ləl oleydi.

Qarabağ elindən toplanan bir bayatı da ləlin – yaqutun insanı bəd nəzərdən qoruduğu vurğulanır.

Ox-oxa dəyər keçər
Sinəmi əyər keçər
Yaqutu-ləli gəir
Bəd nəzər məni keçər.
Cəvahirəm, lələm mən
Səssiz gələn seləmmən
Dərd bəlanı süpürrəm
Sərin əsən yeləm mən

Bayatıda öz gözəl sevgilisini müəllif «ləl» kimi uğurlu,

şəfəqli görmək istəyir, əslində, Ləli qiymətləndirir, sonsuz sevgisinin Lələ bənzəməyini istəyir.

Nizami Gəncəvi yaradıcılığında da ləl xüsusi vurğulanır.

Qaranlıq gecədən sabah baş verər.
Saf ləli dünyaya doğar daş verər (25, 143)

Bu sadə bir bənzətmə deyil, ləl daşının mineral olduğunu anladan, analiz edən nəzəriyyədir. Bu daşı Sədi Şirazi yaradıcılığında da aramaqyerinə düşər.

Aldı uşaqlıqda mənə lövh, dəftər
Bir də qızıl üzük daşı ləl, gövhər (33, 12)

Atasının aldığı qiymətli hədiyyənin ləl qaşlı üzük olduğunu vurğulayan şair bu ifadələri təbii ki, təsadüfi işlətməmişdir. Bir tərəfdən nəsihət məzmunudaşıyan bu şeir parçasında həm də daş-qaşların adlarını, mahiyyətini nəzərə çarpdıran şair Ləl qaşın qiymətli bir aş olduğunu da vurğulayır.

Ləl qaşdan düzülən o parlaq üzük
Süleyman möhrüylə çil-çıraq üzük

Ləli yer öküzü udduğu zaman
Pusqudan sıçradı qapqara aslan (33, 129)

Əbülqasım Firdovsinin "Şahnamə"sində də əqiqin, ləlin yaqutun adları çox vaxt tez-tez vurğulanır.

İşıq mənbəyi gəzdi xeyli zaman
Daşa əvvəl-əvvəl gətirdi güman
Çapıb daşları tapdı gövhərləri
**Əqiqi, ləli, yaqutu** simuzəri
Tapıb bir neçə ruh açan ətirlər
Xalq onları bil, indi də işlədər (9, 33)

Qaranlıq gecədən sabah baş verər.
Saf **ləli** dünyaya doğar daş verər. (25, 143)

**Ləli** tapşırdılar nadana gördüm,
Qiymətin bilmədi, ay hayıf, hayıf! (6, 171)

Bütün tarixi dövrlərdə bir canlı əşya kimi zinət daşlarının oğurluqla, hiyləylə ələ keçməsinin haram mal olaraq uğursuzluq gətirməyi də xalqın qətiləşdirdiyi folklor nümunələrində daim müşahidə olunmuşdur.

Əzizinəm daş mənim
Daş mənim, sirdaş mənim
Yad üzüyə sığmaram
Adımdır ləl qaş mənim

Ləl söyləyib ağlayın
Saf qızıla bağlayın
Sahibimə qaytarıb
Yadlardan aralayın

## FİRUZƏ DAŞI

Ta qədim zamanlardan bu daş diqqət mərkəzində olub və həmişə qalibiyyət rəmzi kimi vurğulanıb. Sehrli daşlar sırasındadır. Firuzə «Həyat daşı» da adlandırılır. Əsəb xəstələrinin firuzə daşı gəzdirmələri çox vacibdir.

**Firuzə daşa dair toplanan inanclar...**

1) **Firuzə** iyul ayında dünyaya gələn xərçəng bürcündən olan insanların ən uğurlu talisman daşı hesab olunur.

2) Firuzənin talismanı olduğu insana tacirdirsə, alverdə müvəffəqiyyət, vəzifəsində isə şöhrət, yüksəklik bəxş etməsinə çox inanılır.

3) Hətta bir inanc var ki, barmağında Firuzə üzük olan insanın sevgisi sönərsə, firuzənin rəngi dəyişib solğunlaşar.

4) Firuzənin də zümrüd kimi gözə işıq, nur verdiyinə çoxdan inanılıb.

5) Ümumiyyətlə, üstündə Firuzə gəzdirənin düşmən üzərində qələbə çalacağına inanc çox sınanıb.

6) Firuzə qaşlı üzük gəzdirən insan qorxu bilməz, deyərlər.

7) Deyirlər ki, Firuzə qaşlı üzük taxan şəxsin barmağında firuzə qaş tundləşirsə, deməli, həmin adamda hansısa xəstəliyin başlanmasını xəbər verir.

8) Füruzə yuxusuzluğu aradan qaldırır.

9) Müğənnilərin firuzə qaşlı zinət əşyaları gəzdirməyi

vacibdir, bu qaş səs tellərini təmizləyir, səsi saflaşdırır.

10) Firuzə daşın da yantar kimi qalxanabənzər vəzini müalicə etmək qabiliyyətinə malik olduğuna çox böyük inam var.

11) Firuzə daşı zəhərlənmənin də qarşısını alır.

12) Firuzə daşını əzib, bala qatmaqla orqanizmin müqavimətini tənzimləmək olar.

13) Firuzə daşı ürək döyüntüsü üçün də çox əhəmiyyətlidir.

14) Firuzə daşından sürmə kimi istifadə edilərsə gözün nuru artar.

15) Ən qədim təbabətdə Firuzə daşının tozu ilə böyrək duzu və daşı təmizlənərmiş.

16) Firuzə daşı bədnəzəri təmizləmək üçün gözmuncuğu qədər hikmətlidir.

17) Firuzə daşı da sahibinə sədaqətli olur, yad aləmi sevmir, yad əldə olarkən onu hökmən təmizləmək lazımdır ki, neqativ enerji verməsin.

18) Səhər-səhər kim firuzə daşına baxarsa, guya o, bütün gün ərzində heç bir şeyin qayğısını çəkməzmiş.

19) Yayılmış inanca görə onu gəzdirən adam çox yaşayar, heç vaxt pis yuxu görməz.

20) **Firuzə** adamı göz xəstəliyindən qoruyur.

21) **Firuzə** daşının çox əzəməti vardır, onun əzəməti və fəziləti barəsində belə bir hədis var ki, İmam Rza (əleyhissəlam) buyurur: Əli ibn Əbu Talibin (ə) vilayətinə iqrar edən ilk daşlar əqiq, füruzə və yaqutdur.

- Bir gün bir şəxs imam Kazmın (ə) xidmətinə gəlir. O, imamın barmağında füruzə üzük görür. Həmin şəxs üzüyə valeh olmuş halda həzrəti (ə) ondan soruşur: Bu üzüyün adını bilirsən? O cavab verir: Füruzə . Həzrəti (ə) ona buyurur: Füruzə adı onun fasr dilindəki adıdır, lakin ərəb dilində ona zəfər deyərlər.

Füruzə daşının faydaları dini məxəzlərdə də geniş verilib. Ruhun şadlığı, gözün nurlanması, daxili rahatlıq, qəlbin güclənməsi, işlərin asanlaşması. İmam Sadıq bu barədə beş

fayda buyurur: İstəyirəm hər bir mömin şəxs əlinə beş üzük taxsın: əqiq, hədid, sini, yaqut, dürri, nəcəf və füruzə (22, 51).

Nəsrəddin Tusi öz araşdırmalarında yazır ki, «Firuzəyə baxdıqda göz işıqlanır. İbn Sina isə göz dərmanları hazırlanarkən Firuzə tozundan istifadə etmək təklifini hələ XI əsrdə vermişdir. Tarix boyu böyük sərkərdələr, yüksək silkin nümayəndələri üzərində Firuzə qaşlar olan qılınc, siqar qabı, üzük, bilərzik, yaxalıq saxlayıb və bunu yaxşı əlamət hesab ediblər.

Firuzənin tərkibinə gəldikdə, bir mineral kimi misin, dəmirin, manqan oksidlərinin, sink, maqnezium, xrom, gümüş, silisium, titan, vanadium, stronsium, molibden, natrium, bor, kobalt, qurğuşun və bir çox başqa üzvi maddələrin qarışığıdır.

Firuzə və xalkosiderit izomorf sıra yaradırlar: Rasleit və Alümoxal kamiderit bu sıranın orta hissəsinin üzvüdür.

Təbiətdə Firuzə əsasən dağ süxurları arasındakı çatlarda görünür. Azərbaycanda Gədəbəyin mis yataqlarında Firuzə daşa çox rast gəlinir. Onun rənginin mavi olmasının səbəbi də tərkibində mis qarışığının olmasıdır.

1911-ci ilə qədər bir çox mineroloqlar firuzənin amorf maddə olması fikrində olublar.

Qədimdə padşahların belə bir adəti olub: Günəş həməl bürcünə girdikdə, yəni yeni il gələrkən məclisə gətirilən cavahirlərə baxar, yaqut, zümrüd, mirvari və firuzəni şərbət qədəhlərinə doldurub içərdilər. Bu məqamda hər kəs firuzəyə daha çox diqqət verər, daha çox maraq göstərərdi və hər kimin şərbət qədəhində firuzə daşı çox olarsa, yeni ildə onun qələbəsinin böyük olacağına inanardılar (20, 38).

Bu da dağla, daşla bağlı kultun izidir ki, tarixin sonrakı çağlarında daşların daha qiymətlisinə sitayiş olaraq əziz gündə onu sinilərdə süfrəyə gətirər, şərbətlərinə tökərdilər. Bu inam Dədə Qorqud dastanındakı bir çox boylarda da başqa-başqa variantlarda əks olunur. Daşa-dağa inamın izi boylardakı alqış, qarğış motivlərində də yaşanır. Beyrəyin bacısı qardaşını ölmüş

biləndə «Qarşı yatan qara dağım yıxılıbdır» deməklə, faciəsini izhar edir. Və ya onuncu boyda Səkrək də qardaşı haqqında doğru xəbər bilmək üçün anasına deyir:

Çox zamanmış Əkrək derlər bir yigit dustaqmış,
Qadir Tanrı yol vermiş, çıxıb gəlmiş

- dedikdə anası

Qarşı yatan qara dağın
Yıxılmışdı, ucaldı axır və s. (18, 62-145)

deyib, gözaydınlığı verir.

Deməli, qara dağın yıxılmağı bir evin, bir ailənin, bir obanın, bir yurdun, daha geniş anlamda bir dövlətin dağılmağı kimi nəzərdə tutulur.

Müsəlman aləmində firuzə ən sevimli və şöhrətli daşlardan biri hesab olunur.

Firuzə Avropaya, əsasən, İran və Türkiyədən gətirilmişdir. Şərq aləmində firuzəni ilk dəfə Nəsrəddin Tusi, Avropada isə Marko Polo təsvir etmişdir. Bu, firuzənin XIII əsr tədqiqatı idi. Lakin Firuzə daha qədim tarixə malik bir mineral kimi diqqəti çoxdan cəlb etmişdir. Nəsrəddin Tusi Firuzənin yeddi növünün xüsusiyyətlərini izah edərkən, onun Əbu İshaqi növünü çox qiymətləndirmiş, ən yaxşı növ hesab etmişdir.

1) Əbu İshaqi – mavi rəngdə
2) Ozhəri Süleymani – süd rəngində
3) Nərüni və ya asimanqunu – səma rəngində
4) Xaki – boz rəngdə
5) Kənari – sarımtıl, ağ rəngdə
6) Cilalanmış – səma rəngli firuzə
7) Peykani – firuzənin ən yaxşı növlərindən biri…

Firuzənin rəngi tərkibindəki misin miqdarından asılıdır. Rənginə görə firuzəni bəzən xrizakol və bu kimi yaşıl daşlarla qarışdırırlar. Hətta keçmiş zamanlarda heyvan sümüklərindən, həmçinin dişlərindən mislə boyayıb, cilalayıb, saxta firuzə əldə edərək, satmağa cəhd göstərərdilər.

Firuzənin ən qiymətli növü ağırlığı ilə müəyyən edilir. Firuzənin üzərində bəzən qaramtıl çat şəklində cizgilər əks

olunur ki, bu da manqan və dəmir oksidlərinin damarcıqlarıdır ki, əsasən ən saf və təmiz firuzənin mavi fonunda üzə çıxır. Bəzən firuzə malaxit xrezokolla kimi minerallarla da qarşılıqlı aqreqatlar yaradır.

Orta əsrlərdən başlayaraq, müxtəlif üsullarla həqiqi firuzəni təyin edə bilirlər.

Firuzənin mavi rəngi çox qızdırılarsa, yaşıla çevrilər. Hətta firuzə günəş şüalarının təsirindən də rəngini dəyişə bilər.

Kosmetikanın, yağın və tərin firuzəyə pis təsiri var. Firuzə qeyri- şəffafdır. Parlaq mavi növü İshaqi adlanır.

Əsrimizin birinci yarısında yaşamış məşhur mineroloq Pliniy firuzə və fosfat qrupunun digər yaşıl minerallarını üç oxşar adlı birləşmə kimi ətraflı xarakterizə edir. Bu mineralları o, kallais, kollain, kallaysa adlandırır.

Pliniy yazırdı: «Kallais rənginə görə sapfirə oxşayır, lakin o, daha solğundur və dənizkənarı suyu xatırladır».

Firuzəyə «Kallait» də deyilir. Ancaq bundan başqa da adı var; Aqafiti, Göy Şpati, ərəb daşı və s.-də firuzəyə aid adlardır.

Zərgərlik sənətində, adətən, firuzədən karboşonların hazırlanmasında istifadə olunur. Bu daş qızıl-gümüşlə yaxşı uyğunlaşır. Qədim Şərq aləmində firuzəni qızıl-gümüş çərçivəyə salmazmışlar ki, öz gözəlliyini itirməsin. Şərqdə iri bir firuzənin məlum olduğu və onun üzərində Məhəmməd peyğəmbər haqqında rəvayətin olması da söylənilir.

Nəsrəddin Şah Qacar zamanı (1934-1896) nişapur firuzələrindən hazırlanmış qəndqabı hazırda İranın Mərkəzi Milli Bankının kolleksiyasında saxlanılır.

Firuzə, demək olar ki, dünya ədəbiyyatında müxtəlif mülahizələrlə adı hallanan, xüsusən əfsanə və rəvayətlərdə sehrli daş kimi təsvir olunan mifoloji arxetip kimi də diqqəti cəlb edir.

Farslarda firuzə qalibiyyət daşı kimi qəbul edildiyindən, bir çox mifoloji mətnlərdə firuzə qələbə funksiyasını daşıyır. Firuzə, demək olar ki, dünyanın bütün ölkələrində tanınır. Lakin bu daş vaxtilə Avropaya cənubi Azərbaycandan və

Türkiyədən aparılmışdır.

Fransızlar da bu daşı çox sevir və onu «Tuçkua» adlandırır, farslar isə firuzəyə «Pirox» deyirlər.

Firuzə su küplərində saxlananda öz şəffaflığını bərpa etdiyindən, qədimdə onu bu cür saxlayarmışlar. Yaş firuzə parlaqlığını, şəffaflığını uzun müddət saxlayarmış. Əslində isə firuzə qeyri-şəffaf daşdır; o, suda şəffaf görünür, quruyanda əvvəlki vəziyyətini alır.

Əbu Reyhan Əl Biruni firuzənin mum və yağlarla hopdurulub məsamələrinin tutulması ilə rənginin parlaqlaşdırılması üsullarını təsvir edir. Firuzənin ağırlığı nə qədər çox olarsa, keyfiyyəti də bir o qədər yüksək olar.

Müasir dövrdə firuzənin rəngini bir il lozuru hopdurmaqla gücləndirirlər. Hətta süni firuzə də istehsal olunur. Yəqin ki, təbii firuzədə olan uğurlu rəmzlər süni firuzədə yoxdur. Süni firuzəni malaxiti , alüminium hidroksidini ovub fosfor turşusu ilə qarışdırır və sonra preslə sıxmaqla başa gətirirlər. Süni firuzənin Vyana firuzəsi, Hamburq firuzəsi, neofiruzə və s. növləri var.

Firuzəni bir çox təbii daşlarla da qarışdırmaq olmaz. Firuzə daşı haqqında şifahi xalq ədəbiyyatının bir çox nümunələrində maraqlı fikirlər verilib. Həmin məxəzlərdən bu daşın qədimliyi və daha çox inanc mənbəyi olduğu aydın olur.

Evimin daşı düşüb,
Üzüyümün, sırğamın
Firuzə qaşı düşüb.
Öz gözüm, öz ürəyim
Özümə asi düşüb,

və ya

Əzizim qara daşa,
Şeh düşdü qara daşa.
Üzükdə firuzəni
Qoymayın yaşıllaşa.

Hər iki bənddə firuzə qaşın düşməsi və rəngini dəyişməsi uğursuz nalə iniltiləri kimi səslənir. Bir çox nağılların da

qayəsində firuzə qaşın tapılması xoşbəxtlik, itkisi isə uğursuzluq rəmzi kimi yozulur. El arasında belə bir sınamaya tez-tez rast gəlirik ki, üzüyünün qaşı düşənin əzizlərindən itkisi olar: ya qardaşı, ya sevgilisi ölər. Hətta, guya, firuzə qaşı düşən, sevgilisindən ayrı düşər, aralanar.

Ümumiyyətlə, firuzə daşın sehrli tərəflərinə şifahi ədəbiyyatda çox yer verilib. «Sehrli üzük» nağılında da Zöhrə adlı qızın üzüyü firuzə olur. Yetim Zöhrə bu üzüyün köməkliyi ilə əmisi arvadı zalım Tinatindən canını qurtarır və xoşbəxtliyə qovuşur.

Böyük Pyotrun qızı Yelizavetanın firuzəni sevməsi haqqında bir rəvayətdə deyilir ki, Yelizaveta, ümumiyyətlə, daş-qaşları çox sevərmiş. Atası böyük Pyotr qızının kiçik yaşlarından qiymətli daş-qaşlar haqqında təlimatlanması üçün ona xüsusi mürəbbiyələr də ayırmışdı. Yelizaveta gənclik mərhələsini yaşayanda Firuzə qaşları daha çox qiymətləndirmiş, demək olar ki, zinət əşyalarının arasında ona xüsusi diqqət ayırmışdır. Bir gün Yelizaveta böyük bir məclisdə bal rəqsi edərkən firuzə qaşlı üzüyünü itirir. Üzüyü çox axtarırlar, tapılmır. Yelizaveta bundan çox məyus olur, baxmayaraq ki, onun sonsuz sayda firuzə qaşlı zinət əşyaları var imiş, ancaq imperatriça bu üzüyə çox bağlandığından, onu daha çox uğurlu hesab etdiyindən narahatlığını gizlədə bilmir. Belə bir elan verilir ki, Yelizavetanın sevimli «firuzəsini» tapanı böyük məbləğdə hədiyyə gözləyir. Hətta deyilənə görə elanda göstərilir ki, firuzə qaş öz qızıl haşiyəli şəbəkəsindən ayrılsa belə, yenə mükafat əvvəlki məbləğində olacaq. Təsadüfən üzük bal rəqsində iştirak edən bir zadəgan oğlunun ayaqqabısının dabanına batdığından, qızılı əzilmiş şəkil alsa da, firuzə öz formasını itirmədən Yelizavetaya çatdırılır. Gənc Yelizaveta həmin zadəgan oğlu ilə görüşmək arzusunda olur, onunla yaxından dostluq edir. Hətta çox az bir vaxtdan sonra gənc zadəgan Yelizavetanın həyat yoldaşı olur. Deyirlər ki, Yelizaveta imperatriça bu gənci ona firuzə qaşının bağışladığını etiraf edərək öz xoşbəxtliyi üçün yalnız üzüyünə

təşəkkür etmişdir. (toplama)

Dahi Nizami yaradıcılığında da bir çox daş-qaşlarla yanaşı Firuzə daşına xüsusi önəm verilib:

Dəyərli üzüklər zümrüd, firuzə
Briliyant, daş-qaşlar gülümsər üzə (24, 225)

Firuzə bələyin səadətindən
İsfahan şəhərində etmədi məskən (24, 187)

Firuzə rəngli tağ ertəsi günü
Dağ-daşdan ucaltdı yaqut güzgünü

Müasir dövrdə firuzənin rəngini daşa berill lazura hordurmaqla gücləndirirlər.

Firuzə İran və Azərbaycanda daima göz muncuğu əvəzinə sancaqlara keçirilərək uşaqların paltarlarına tikilir. Hətta İran əfsanələrində belə bir inam var imiş ki, Firuzə sevgi yolunda ölən insanların sümüyündən yaranır. Odur ki, firuzə daş gəzdirən qadın ərinə xəyanət edərsə firuzə qaralar. Hətta bu inam da İran xalqı arasında çox yayılıb ki, firuzə ölür, doğulur, yenidən yaranır, cavanlaşır, bir də köhnəlir və s. (60, Nairə, İran vətəndaşı, 51 yaş)

Firuzə qaşını saxta firuzədən və ya süni yolla hazırlanan firuzədən ayırmaq zərgərlik aləmində mürəkkəb hesab olunur. Çünki onun xarakterik mavi rəngi əsasən tərkibində olan mis atomları ilə əlaqədardır. Bəzən onun səthində yaşıl rəng çalarları da müşahidə olunur, bu isə dəmir atomları ilə əlaqədardır. Firuzəni yalnız sıxlığına və spektr təsvirinə görə təyin etmək olar.

Şifahi xalq ədəbiyyatının bir çox nümunələrində firuzə qaşın da öz çalarları var. Əsasən qərib ellilər, sevgisindən ayrı düşənlər təbii ki, bu qaşın uğuruna sığınıb tez-tez bayatılarında, oxşamalarında firuzənin adını hallanırır, ondan uğur daşı kimi kömək diləyərmişlər.

Mirvaridir daşım mənim          Firuzəmsən, qaşımsan

Ox, kamandır qaşım mənim
Firuzə üzüyüm itib
Çox ağrıyar başım mənim

Dostumsan, sirdaşımsan
Məni sevgimə çatdır
Sən mənim ay daşımsan

************************************************

Üzüyümün qaşı düşdü
Qəlbim köz oldu bişdi
Firuzə qaş uğurdur
Bu qəm-qüssə nə işdir?

Firuzə qaşlı üzüyəm
Mən küskünəm, əziyəm
Sahibimə qayıtsam
Dirçələrəm gəzərəm

## MİRVARİ

Eramızdan 2000 il əvvəl dənizdən mirvarinin çıxarılması məlum olmuşdur. Bu zinət əşyası inci kimi səslənir. Dünyanın ən gözəl inciləri fars körfəzindən çıxarılıb. Mirvari – bir zinət daşı kimi təbiətdə üzvi yolla əmələ gəlir. Üzvi mənşəli zinət daşına mirvaridən başqa mərcan, sədəf, çanaq və s. də aiddir. Ancaq mirvari bu daşlardan fərqli olaraq xüsusi və çox nadir ilbizlərin qabıqları, yəni sədəfləri daxilində yaranıb, inkişaf edir.

1. **Mirvari** daha çox sentyabr ayında anadan olan Qız bürcləri üçün uğurlu hesab edilir.
2. **Mirvari** də başqa daşlar kimi insanı bədnəzərdən qorumaq qabiliyyətinə malikdir.
3. Belə hesab edirlər ki, **mirvari** taxan xanımlar ətrafdakıların nəzərində nəcib və nəzakətli görünər.
4. **Mirvari** insanı şərdən, böhtandan qoruyan daşdır.
5. Tibet təbabətində mirvarini sinir pozğunluğuna, yaddaş itgisinə müalicə üsulu kimi qəbul edirlər.
6. Gecədən suya qoyulmuş xalis mirvarinin suyunu səhər sübh tezdən acqarına isidib içməklə babasil və diş dibi qanaxmaları müalicə edirlər.
7. Mirvari suyu konyuktivit xəstəliyinə, qaraciyər və öd kisəsinin müalicəsinə də çox kömək edir.

8. Mirvari suyu qanı artırır, soyuqdəyməni aradan qaldırır və bədənin fəaliyyətini normallaşdırır.

9. Mirvari orqanizmin immunitetini də qaydaya salır.

10. Mirvari parıltısını itirərsə bu o deməkdir ki, sahibini ciddi xəstəlik gözləyir.

11. Ta qədimdən mirvarini həkimlər möhtədil saymışlar. Onu suda əridərək məcuna qatırlar.

12. Mirvari sevdadan doğan qorxu və ürək döyüntüsünü aradan qaldırır.

13. Mirvari insanın əhvali ruhiyyəsini yüksəldir, qəm-qüssəni dağıdır.

14. Gözün görmə qabliyyətini və gücünü artırır.

15. Mirvari təmizlik və bakirəliyin təcəssümüdür.

16. Mirvarini bakirə Qız bürcü ilə əlaqələndirir və sentyabr ayının bəzəyi hesab edirlər.

17. Rus mifoloji anlamında üstündə mirvari gəzdirəni heç vaxt aldatmaq olmaz inamına böyük etiqad var.

18. Papağında, qulağında, barmağında mirvari olan kəs, satqın dostdan, hiyləgər insandan uzaq olar.

19. Mirvarini göz yaşına bənzədən və onun sahibinə göz yaşı gətirəcəyinə inananlar da var, təbii ki, bu, qaşın kimlərəsə düşər-düşməz anlamı ilə bağlıdır.

20. Əslində isə yuxusunda mirvari alan və ya taxan ağlayar, göz yaşı tökər, mirvarini dağıdıb atan isə gülər, sevinər.

Mirvari bir zinət daşı olaraq, Azərbaycanda və şərq aləmində daha çox inci kimi səslənmişdir. İnci sözünün başlanğıcı isə Çin Monqol mənşəlidir. Çin sözü «hopcu» monqol tələffüzündə öz formasını dəyişərək «cencu» kimi səslənir və bu əşya Azərbaycan dilində «inci», rus dilində «jemçuq», avropada isə «perl» kimi ifadə olunur.

İncinin Şərq aləmində geniş yayılmış digər adı mirvaridir. Nəsrəddin Tusi də özünün «Cavahirnamə»sində bu daşı mirvari deyə təsvir edir. O, mirvariyə çox yüksək qiymət verərək cəvahirlər cərgəsində onu birinci şərh edir. N.Tusi göstərir ki, mivarinin soğan kimi qabığı vardır, formaca girdə,

azacıq uzunsovu da olur. Mirvari odda yanır və saralır.
İnsan bədəninin hərarətindən tər və çirkdən də sıradan çıxa bilər. Suyun istiliyi, sapa tir çəkilmək, başqa zinət əşyaları ilə bir yerə qoymaq da mirvarini korlaya bilər. Mirvariyə bərk şeylərin toxunması onun üzərində iz qoya bilər. Kəskin qoxular, yağ, müşk, buxar mirvariyə çox ziyandır. Onu başqa daş-qaşla qarışdırmaq olmaz. Mirvari incəliyindən xəstələnə bilər. Sirkə, naşatır kimi kəskin qoxulu maddələr mirvarini yeyir.

Mirvarini qorumaq üçün onu şüşə qabda saxlamaq məsləhətdir, şüşənin ağzı möhkəm bağlanmalıdır.

İldə bir, və ya iki dəfə şüşədən çıxarıb havaya verməli, istifadə olunmursa, yenə də şüşəyə qoymalı. Mirvarini rütubətli və isti yerdə saxlamaq olmaz.

Mirvarilər möhkəm olmaqla müxtəlif ölçülərdə olur. Göyərçin yumurtası boyda mirvarilər olur. Ən böyük mirvari hazırda Londonda cənubi Kensinqtonun geologiya muzeyində saxlanılır. Çəkisi 450 karatdır. Mirvarinin soğan kimi qabığı vardır.

Nəsrəddin Tusinin "Cavahirnamə"sində Mirvarinin rəngindən, xarici görünüşündən asılı olaraq bir neçə növü müəyyən olunur. N.Tusi göstərir ki, mirvarinin yaxşı və ya pis olmasını üç əlamət ilə bilmək olar. Rəngi, görünüşü, kiçik və böyüklüyü ilə. Rənginə görə mirvari təravətli və parıltılı görünə bilər. Təravətli görünən mirvari sulu mirvaridir ki, bunun da ağ parıltılı görünəni ən yaxşı mirvari hesab olunur. Ağ susuz mirvari isə ən aşağı keyfiyyətli mirvaridir. Rəngi azacıq sarıya çalan, ancaq sulu olan mirvarini də çox bəyənirlər. Qabığı qalın olan mirvarilər ən sulu mirvarilərdir. Adətən dümmağ olan mirvarilər susuz mirvari hesab olunur.

Qabığının qalın olması mirvarinin keyfiyyətidir, yəni sulu və davamlılığını bildirir. Sulu da olsa mirvarinin qabığı nazik olanda suyunu tez itirir. Ağ mirvarinin çox nadir hallarda qabığı qalın olur. Odur ki, sarı mirvariləri daha çox axtarırlar.

Mirvarini araşdıran bir çox mineroloqlar bu daşın

müxtəlif növlərini göstərsələr də XIII əsrin dahi mütəfəkkiri və ensiklopedik alimi N.Tusinin bu sahədəki, fikirləri daha çox qənaətbəxşedici olduğundan zərgərlik məmulatları ekspedisiyası da daha çox onun fikirlərinə istinad edir. N.Tusinin «Cavahirnamə»sində mirvarinin rəngindən, xarici görünüşündən asılı olaraq bir sıra növləri göstərilir.

1. Şahvar–i mirvaridir ki, sululuğu, ağlığı, ulduza bənzərliyi, ilə çox qiymətlidir.
2. Təbni mirvari – saman rəngində, yəni azacıq sarıya çalan sulu mirvaridir.
3. Vərdi – mirvarinin qırmızıya çalan sarımtıl növüdür. Sarılığı çox azdır, əsasən, qırmızıya çalır, ən yaxşı növlərindəndir, onun zəif forması var, yaşıla çalır, rəssası adlanır.
4. Tavusi mirvari – parıltılı göyümsov, maviyə çalan rəngidir, əslində göy qurşağını xatırladır. Qabığı nazik olduğundan suyunu tez itirir. Bəzən yaxşısı, davamlısı da olur.
5. Füqai mirvari – tutqun qırmızı, rəngi şəraba bənzəyir.
6. Şəmi mirvari – iki rəngin – sarı ilə mavi çaların birləşməsi kimi görünür.
7. Rommadı – əslində qara mirvaridir, bəyənilir.
8. Zeytuni mirvari də demək olar ki, qaradır, ancaq əslində tünd zeytun rəngindədir və bəziləri onu Nühası adlandırır, miss rənginə çalır.
9. Cəssi – mirvarinin kəc rəngində olan növüdür.

Nühası və cəssi növləri susuzdur. Bunlar mirvarinin ən aşağı növləri hesab olunur.

İnci araqonitin, daha doğrusu, araqonit mənşəli kalsium karbonaitinin və konxiolinin ardıcıl növbələnən nazik təbəqələrindən ibarətdir. Konxiolin – yapışdırıcı buynuz maddəsidir. Araqonik təbəqələri bu mineralın aqriqatını əmələ gətirir. XIII əsrin böyük alimi bu izahı mirvarinin soğan qabığı kimi soyulmağıtək izah edir. Mirvarinin sərtliyi çox olmasa da, mineral çox möhkəmdir. Onu qırmaq çox çətinliklə mümkündür.

Mirvarinin təbii rənginə gəlincə, dalğalanan sədəf rəngi şüaların konxiolin təbəqəsindən keçərək araqonitdən əks etməsinin nəticəsidir. Konxiolin bir üzvi maddə kimi quruya bilər, dəyişə bilər, bu mirvarinin korlanması, mineroloqların dili ilə desək, ölümü ilə nəticələnər, parlaqlığını itirər, rəngi solğunlaşar, quruyar məhv olar. Odur ki, bu sevimli daşı qorumaq lazımdır. Mirvarinin tərkibinə gəlincə, birinci növbədə, demək olar ki, kalsium-karbonatdan ibarətdir. Bu mineral onun doxsan bir faizini təşkil edir. Tərkibində dörd faizə qədər üzvi maddələr də var, eyni zamanda, dörd faiz su və müxtəlif maddələrdən də ibarətdir. Konsentrik sədəf qatlarından təşkil olunub. O adətən dəniz ustrista və midiyalarının unionid ailəsindən olub, şirin su molyuskalarının bəzən başayaqlı, qarınayaqlı ilbizlərin qabıqları daxilində inkişaf edir. Həmin heyvanların bədənlərinin yumşaq hissəsinə hər hansı kənar kiçik bir hissəcik düşür, onu qıcıqlandırır və şirə buraxmasına səbəb olur və **bu şirə** tədricən kənar hissəciyi əhatə edir, həmin incini yaradır. İnci yaradan dəniz balıqqulaqları, sahillərin kənarına yaxın, on-on beş metr dərinlikdə yaşayırlar. Onların yaşama müddəti on-on üç ildir. Dünyanın ən qiymətli mirvarisini Fars körfəzindən çıxarır və dünya bazarında onlara **«oriental»** deyilir, yəni «şərqi» mirvari. Adətən çox incə çəhrayı çalarlı, ağ rəngli olurlar. Hindistanın Manar körfəzindən də mirvari əldə edilir, ancaq o mirvarilər çox kiçik dənələrdən ibarət olur. Hətta onlara «toxum incisi» də deyirlər. Dünyanın daha məşhur sənaye əhəmiyyətli mirvari çıxarılan yerlərindən biri də Mərkəzi Amerika və Şimali Avstraliya sahilləridir. Deməli, mirvari bir zinət daşı kimi, üzvi yolla əmələ gəlir və o, əsasən, isti dənizlərin sahillərinə yaxın yerlərdə ilbizlərin akaya növünə daxil olan partiya çaylarında isə marqaritana çanaqlarında əmələ gəlir. Bir çox ilbizlər sədəf əmələ gətirmə qabliyyətinə malikdir. Mirvari isə yalnız adları çəkilən ilbizlərin fəaliyyəti nəticəsində yaranır. Mirvarinin yaranmasını bir növ ilbizlərin xəstəliyi kimi qiymətləndirən bir çox

mineroloqlar onu insanın böyrəyində yaranan daşla müqayisə edirlər. Prof. Ə.R.Həsənov da qeyd edir ki, çanağın müəyyən hissəsinə təsadüfən düşən xırda qum dənəsi ilbizin lifləri tərəfindən buraxılan xüsusi maddə ilə örtülərək mirvari kurələrini əmələ gətirir.

Bir hind əfsanəsində deyilir ki, gözəl bir qız olan Amala qəddar atasının fikirləri ilə razılaşmadığı üçün evdən qaçır, çünki atası onu dostunun oğluna vermək istəyirmiş. Kamala evdən çıxır və hara gedəcəyini bilmir, okeanın qırağında oturub göz yaşı tökərək, qəmgin halda düşünərkən, bir balıq dilinin altında ki, mirvarini çıxarıb qıza bağışlayır və ona bir neçə məsləhət də verir. Gənc qız balığın sözlərinə qulaq asır, evlərinə dönür və həmin mirvarinin köməyi ilə bütün arzularına çatır, xoşbəxt olur.

Mirvari demək olar ki, xalqın təfəkküründə həmişə xoşbəxtlik mənbəyi kimi vurğulanmışdır.

Mirvarinin bu cür xüsusiyyətləri folklor nümunələrinin çoxunda demək olar ki, əks olunur. Nağıl, əfsanə, əsatir, bayatı, vəsfi-hal, sayaçı sözlər və s. mirvarinin xeyirxah bir daş olaraq müsbət tərəflərini əks etdirir. Mirvari gözəllərin də vəsf olunmasında istifadə olunan bir zinət əşyasıdır. Mirvariyə də bir inci olaraq daim xalqın zəka xəzinəsində təhlil olunmuş, bayatı, layla, oxşamaların mayasına qatılaraq qiymətini günbəgün artırmışdır.

Dəhanın **sədəfdir**, dişlərin **inci**
Sanasan ağzın püstədir, ay qız.
Xumar gözlərini sevəndən bəri
Dərdə düşüb canım, xəstədir, ay qız. (6, 176)

Hətta klassik ədəbiyyat nümunələrində də mirvari yetərincə istifadə olunan bədii vasitələrdəndir. Müəllif nəinki bədii təsvir vasitəsi kimi mirvarini qiymətli bir zinət əşyası kimi şahların, yüksək zümrələrin qarşılanmasında istifadə olunan gərəkli bir əşya kimi də təsvir edir.

Dahi Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasında Xosrovun Fərhadı çağırtdırması parçasına diqqət edək:

Şah əmr etdi ki, onu əzsinlər,
Başına səpsinlər, mirvari, gövhər (25, 75)

Köhnələr söz dedi, nöqsansız, təmiz
**Mirvari** deşdilər nadir**,** ləkəsiz.
Saraldar üzünü hər mirvarinin
Zəmanə keçdikcə toz qonar yəqin. (24, 72-75)

Bütün bunlar hamısı mirvarinin qiymətli bir zinət əşyası olduğunu bird aha təsdiqləyir. Bunu da unutmaq olmaz ki, inci ifadəsi tarixin müxtəlif qatlarında zinət əşyalarının cəminə deyilib. XII-XIII əsr klassik ədəbiyyatında bu məzmunda ifadələrə tez-tez rast gəlmək mümkündür. Hətta Şərq poeziyasının görkəmli nümayəndəsi sayılan hindli şair Əmir Xosrov Dəhləvinin "Şirin və Xosrov" əsərində "Şapurun Xosrova nəsihəti" başlıqlı parçada deyilir:

Gövhər mücrüsündən inci paylayan
Sözün şöhrətini ellərə yayan (24, 98)

## SƏDƏF VƏ MƏRCAN

Sədəf və Mərcan da mirvari kimi üzvi yolla əmələ gələn zinət daşlarındandır. O da dənizlərin sahillərinə yaxın yerlərdə ilbizlərin çanaqlarında əmələ gəlir. Mirvaridən fərqli olaraq mərcan və sədəf bir çox ilbizlərin, mirvari isə xüsusi olaraq yalnız **akaya növünə aid ilbizlərin çanaqlarında yaranır.** Mirvari, əsasən, sədəf qatlarından ibarətdir. Lakin sədəf zinət əşyası kimi qiymətləndirilərsə də, ayrıca bir şəkil almış daşdır.

Mirvariyə aid olan bir çox xüsusiyyətlər Sədəf və Mərcana da aiddir. Tərkibindəki mineralların oxşarlığı da, təbii ki, bu daşların eyni mənşəli olduğuna əsas verir. Lakin **mirvari, mərcan, sədəf** və hətta **çanaq** və bu tipli başqa daşlar quruluşuna görə bir-birindən tamamilə fərqli daşlardır.

Mərcan çox xırda, əsasən tünd narıncı rəngdə ən qədim və sevimli bir daşdır. O daha çox boyunbağı (muncuq) şəklində

istifadə olunub.

Nəsib Göyüşovun araşdırılmalarında Mərcan haqqında xüsusi məlumat verilir və burada da göstərilir ki, mərcan dənizin dibindən çıxarılır. Soyuq və qurudur, qanaxmanı kəsir. Onun yandırılması baş ağrısı, vasvasılıq, ürək döyüntüsü, qanlı ishal, babasil, böyrək və sidik kisəsi daşına qarşı işlədilir. Mərcanı əzib toz halına salmaqla dişdəki sarı ləkələrini aparmaq və dişləri parıldatmaq mümükün olur. Mərcandan sürmə kimi də istifadə edilir. Bunun gözlərin nuruna da çox xeyri olduğu söylənilir. Gündə 1,6 q. mərcanı 3 gün müddətində isgəncəvi ilə içmək dalaq şişinə qarşı faydalıdır. Mərcana **karal** da deyilir. Yəni karal elə mərcandır. O da bədnəzəri çox qaytarır. Deyilənə görə, balaca narıncı mərcan tozunun da insana çox xeyri var. Ürəyin fəaliyyətini normallaşdırır. Mərcanın narıncı, ağ və sud rəngli növləri daha çox yayılmışdır.

## YANTAR – KƏHRƏBA

**Yantar** – kəhrəba müalicəvi əhəmiyyətli daşlardan biridir. Tərkibində başqa minerallarla yanaşı lazımınca yod var. İnsan orqanizmi üçün çox faydalı daşdır. Əbu Nəsr əl-Ütbi özünün «Kitab-Əl Yammini» əsərində göstərir ki, kəhrəba öz cazibə qüvvəsi ilə yerə düşən saman çöpünü qaldırır. Bu cazibə qüvvəsinin səbəbi müasir dövrdə aydınlaşıb və kəhrəbanın yun məmulatlarla sürtülərkən elektrikləşməsi də bu daşın vaxtilə sehrli daşlar siyahısına düşməsinə səbəbdir. Kəhrəba nisbətən aşağı qiymətli daş hesab olunsa da onun insan orqanizminə aid müalicəvi əhəmiyyəti və sehr dolu mifik anlamı daha çoxdur.

### Kəhrəba daşına dair toplanan inanclar

1. Kəhrəba da deyilənə görə insanı mənfi emosiyalardan qoruyur.
2. Kəhrəba maqnit qasırğasının qarşısını alır.
3. Kəhrəba boyunbağı taxanın qalxanvari vəzi əriyər, yəni onda «zob» xəstəliyi olmaz. Ümumiyyətlə, kəhrəba

bədəndə olan şişləri əridir.

4. Yantar üzük orqanizmdə baş və diş ağrısını götürür, təzyiqi aşağı salır.
5. Üstündə yantar qaşlı bilərzik, sancaq gəzdirənin gözləri də yaxşı görər.
6. Təzyiqi aşağı olanlara yantar qaşlı əşyalar gəzdirmək yasaqdır, hətta şəvə və qaqat təzyiqi elə salır ki, bəzən nəticəsi müsbət olmur.
7. Yantar daş soyuqdəyməni də dəf edə bilir.
8. Yantar daş insanın bədənində olan şişləri əridir, yaxud qarşısını alır.
9. Kəhrəba taxanın bəxti daim açıq olar.
10. Kəhrəba sidik kisəsinin fəaliyyətini də normallaşdırmaq qabiliyyətinə malikdir.
11. Kəhrəba boyunbağı taxanın eyni açıq olar, əsəbləri sakitləşər.
12. Kəhrəbanın qanında virus olan xəstələrə də çox böyük xeyri var.
13. Balaca kəhrəba daşını hər səhər iki saat dilinin atında saxlayan kəsin heç vaxt boğaz ağrısı və zökəm xəstəliyi olmaz, ancaq gərəkdir ki, xalis, təbii kəhrəba olsun.
14. Deyərlər ki, kəhrəba daş insanı gələn bəlalardan qoruyar.
15. Kəhrəba təzyiqi aşağı salır.
16. Yuxusunda kəhrəba görən xəstələnər.

Kəhrəbaya çox məxəzlərdə Yantar da deyilir. Yantar əslində ağac qətranından əmələ gəlir. Yantarın tərkibində yetmiş doqquz faiz karbon, on faiz oksigen, on bir faiz hidrogen, kalium, sink və başqa elementlər olduğu üçün onun insan orqanizminə faydası çoxdur. Kəhrəba hələ daş dövründən, yəni beş-altı min il bundan əvvəl məlum idi. İbtidai insanlar kəhrəbanı daş əşyalarla birlikdə tapmış və onunla çox maraqlanmışlar. Kəhrəbanın rəngi limon və portağalın rəngi ilə müqayisə edilir. «Kəhrəba daşıyan» ağaclarda biokimyəvi proseslər nəticəsində ağacın zədələnmiş yerindən balzam və

şirə qətranları əmələ gəlir. İfraz edilən qətranın miqdarı ağacın zədələnmiş hissəsinin ölçüsündən asılıdır. Zədələnən yerdən ifraz olunan qətran tədricən çıxaraq böyüyür, kürəvi və ya armud forması alaraq, nəhayət quruyur və ağırlaşaraq düşür. Bu formaların ağaca yapışan ucu, adətən, şiş olur. Qətran ifrazı ağacda ikən bərkiyir. Bu, yerə düşən kürəvi və yaxud armudu kütlələrin öz formasını saxlaması ilə izah olunur. Qətran uzun müddət gil içərisində, su altında qaldıqda xalis kəhrəbaya çevrilir. O zaman onun tərkibinə xırda cür-cücü cəsədləri və s. Qum, torpaq da daxil olur ki, bu da kəhrəbaya daha çox qiymət gətirir.

Kəhrəbanın insan həyatı üçün uğuruna gəlincə isə, bu mineralın istilik baxımından mötədil və quru olduğu, mədə və ürəyi qüvvətləndirdiyi, əhvali-ruhiyyəni yaxşılaşdırdığı, qanaxmanı dayandırdığı vurğulanır. Kəhrəba qanaxmanı dayandıran, sarılığı, ürək döyüntüsünü, böyrək zəifliyi və sidik kisəsi daşını dəf edən zinət əşyası kimi xalq arasında çox qiymətləndirilir, güvənilir. Hamilə qadınlar kəhrəba taxmalıdırlar. Kəhrəbanı qorxuya qarşı da çox faydalı hesab edirlər.

«Yantar» və ya «Kəhrəba» adlanan bu daşın bir çox müalicəvi əhəmiyyətə malik olması onun uzun illər boyu xalqların hafizəsində qeyri-adi sehrli qüvvəyə malik daş kimi inanc mənbəyinə çevirməsinə səbəb olmuşdur. Odur ki, bu daş haqqında rəvayətlər, əfsanə və nağıllar çoxdur, rəngarəngdir.

**Babur şahın kəhrəbası**

Xalq arasında belə bir rəvayət də dolaşır ki, guya, vaxtilə Hindistanda hakimiyyət sürmüş ən qüdrətli şah sülalələrindən olan Böyük Moğolların əsasını qoymuş Babur şah bərk xəstələnir. O, əslən cığatay türkü olub, Orta Asiyanın görkəmli sərkərdəsi və dövlət xadimi kimi tanınmışdır. Əlişir Nəvaidən sonra ölkənin ikinci mütəfəkkir-şairi hesab olunurdu. Ata tərəfdən Teymurləngin beşinci nəsildən nəvəsi, ana tərəfdən isə Çingiz xanın nəticəsi idi. Xülasə, çox hörmətli-izzətli, əsl şah oğlu şah Babur şahın boğazından bir şiş çıxır. Təbiblər,

loğmanlar bu şişə «yaman şiş» deyirlər və çarəsiz olduğunu bildirib, bıçaq vurmağı da qadağan edirlər ki, bu şişə bıçaq dəysə, kükrəyib hər tərəfə yayılar. Şiş günbəgün böyüyür, Babur şahı əridirmiş. Bir gün Cığatay türklərindən bir loğman bu məsələni eşidir, izn istəyib şahın boğazındakı şişə baxır və ona ümid verir ki, mən bu şişi əridəcəm. O, 40 gün sarayda qalır, iki gündən bir saray əyanları ilə meşəyə gedir, oradan sarımtıl, boz-bulanıq maddənin həm kristalını, həm də məhlulunu gətirir, nəzarəti altında sarı boranının içini yarıb ora yığır və təndirdə bişirib şaha yedizdirir. Çiyini isə çöldən boğazına bağlayır. 40 gün müddətinə şah günbəgün irəliləyir və nəhayət sağalır. Şahın boğazındakı, şiş əriyir, şah taxta çıxıb söyləyir ki, o necə maddə idi, gətirin, ona baxım. Həmin maddənin kristal şəklində bir balaca parçasını gətirirlər. Şah o üzünə, bu üzünə çevirib, diqqətlə baxır və köks ötürərək «mərhəba» deyir. Ətrafındakılar elə zənn edirlər ki, şah maddəni tanıyıb, kəhraba deyir. O vaxtdan bu mineralı kəhrəba deyirlər. Saray adamları o gündən kəhrəba axtarmağa başlayır, «kəhrəba» deyə-deyə hətta şahın bütün taxtını bu daşla bəzəyirlər. Təbii ki, bu rəvayətdir və hər bir rəvayətin bir tərəfi də məişətə bağlıdır.

Doğrudan da, bu daşın tərkibində çox keyfiyyətli minerallar var. İnsan orqanizmi üçün son dərəcə əhəmiyyət kəsb edən bu daş çox faydalıdır. Nisbətən aşağı qiymətli daş hesab olunsa da, tərkibindəki mineralların zənginliyinə görə kəhrəba bütün qiymətli daşlardan üstündür.

Kəhrəba haqqında Ovidey Mazonun e.ə. qırx üçüncü ildə «Metamorfozlar» adlı əsərində belə bir əfsanə söylənilir ki, guya Günəş allahının oğlu Faston göylərdə gəzmək üçün atasından çox çətinliklə çəng arabasını alır. Sürə bilmədiyindən az qalır yeri dağıtsın. Bu zaman allahların allahı Zevs onu arabasından Erudan çayına yıxır. Fastonun bacıları Haliadalar qardaşlarının ölümündən sarsılıb o qədər ağlayırlar ki, allahın əmri ilə özləri palma ağacına, göz yaşları isə kəhrəbaya çevrilir. Və o zamandan bu daş müqəddəs kəhrəba daşı kimi

xəstələrə şəfa verir.

Başqa bir nağılda da kəhrəbanın müsbət tərəfləri əks olunur.

**«Jalənin göz yaşları»** adlı özbək nağılında valideynini itirən Jalə hər gün ağlayır, qalmağa yer tapmır. Bir qarı onu evinə gətirib, ovutmağa çalışır. Jalə gecə-gündüz göz yaşı tökür, ağlamağı, göz yaşı kəsilmir. Bir gün görür ki, bunun gözlərindən tökülən yaş damlaları yerə düşən kimi kristallaşır, saralır. Qarı kristalları görəndə anlayır ki, bu nədirsə, qiymətli bir daşdır, bu kristalları yığıb şahın hüzuruna aparır, şah da bu qəribə, parıltılı kristallara laqeyd qalmır, vəziri, vəkili, toplayır və belə qərara gəlirlər ki, bu çox qiymətli və şəfaverici daşdır. Odur ki, bu daşları çox baha qiymətə alırlar və qarıya tapşırılır ki, bu daşdan nə qədər var, gətirsin. Qarı hər gün balaca Jalənin göz yaşlarından yaranan bu daşları şaha aparıb, evinə kisə dolu pulla qayıdarmış. Şah çox təəccüblənir ki, qarı bu daşı haradan alır? Odur ki, tapşırıq verir ki, qarını güdsünlər, nəhayət, məlum olur ki, bu daşlar Jalənin göz yaşlarıdır. Şah əmr edir, Jaləni saraya gətirirlər, onun valideynlərini tapırlar, sarayda bu ailəyə yer verilir. Jalə günbəgün böyüyür, gözəlləşir. Şahın da Jalə ilə yaşıd Valid adlı oğlu var imiş. Hər ikisi bir-birini görüb aşiq olur və ailə qurub xoşbəxt yaşayırlar.

Bu nağılın süjetində də kəhrəba sehrli qüvvəyə malik qəribə, ecazkar və qiymətli, nadir bir inci kimi təsvir edilir. Onun müsbət tərəflərindən doğan, yəni insan orqanı üçün vacib mineral anlamı təbii ki, onu mifik təxəyyüldə belə rəmzləşdirib. Kəhrəba uzun illər boyu loğmanların ən qiymətli həbləri olub, neçə-neçə insanları şiş xəstəliklərindən xilas edib.

XII əsrdə Nizami Gəncəvinin kəhrəba haqqındakı fikirləri heyrət doğurmaya bilməz.

Göy günbəz altında gəl qurma büsat,
Kəhrəba qələdə yaramaz nişat!
Üzünü kəhrəba kimi saraldar
Əlbəsən laciverd bir rəngə çalar (24, 159)

və ya

Kəhrəbanın eşqə düşməsə canı
Elə cəzb etməzdi quru samanı (25, 55)

Burada kəhrəbanın vacib bir mineral olmağını gündəmə gətirməyi ilə bərabər, onun samanı cəzb etməsi fəlsəfi fikri, həmin əşyanın hansısa bir enerji ilə bağlılığını vurğulamağı və üçüncü tərəfdən ilahi eşq cazibəsini açıqlamağı olduqca heyrətamizdir. Və ən əsası odur ki, dahi mütəfəkkir XII əsrdə bütün daş-qaşları necə dəqiqliyi ilə arayıb, xüsusiyyətlərini, mənşəyini bilirmiş. Bu, əlbəttə ki, şairin xalqla sıx təmasda olub, xalq hikmətini anlamağı, dərindən dərk etməyi ilə bağlı məsələdir.

**Şəvə**

**Şəvə** – qapqara yarımqiymətli daşdır. El arasında çox tanınır və əsasən qorxu götürən daş kimi diqqəti cəlb edir.

Uzun illər sınanmış sehrli bəzək əşyasıtək ulu xalqın hafizəsinə qoruyucu vasitə kimi həkk olunub.

Şəvənin bədnəzərdən hifz etmək xüsusiyyətinə də çox inanılır. Onun uğurlu tərəflərinə bu gün də sığınırlar, yəni şəvəyə olan inanc mahiyyəti günbəgün artır, hətta bədnəzərə qarşı güclü enerjiyə malik olma xassələri də qüvvədədir. Qədimdə insanların üstündə, hətta şahların, hökmdarların sarayında taxt-taclarından başqa qiymətli daşların arasında şəvə də asardılar. Hazırda da dünyaya yeni gəlmiş körpələrin papağına, qoluna, bələyinin üstünə göz muncuğu ilə birlikdə şəvə də bağlayırlar. Şəvə çox keyfiyyətli və insan orqanı üçün lazımlı minerallardan təşkil olunmuş daşdır.

Əslində **Şəvə** yantarın, yəni kəhrabanın ən köhnə növüdür. Yəni **yantar** torpağın altında qalıb qaralıb əvvəl **şəvə** kimi, sonra isə daha başqa minerallarla birləşib **Qaqat** kimi üzə çıxır. Ancaq tərkibinə gəlincə isə Şəvə də **Qaqat** da, **Yantar** da müxtəlif daşlar hesab olunur. Çünki əsrlər ötdükcə bu daşların ayrı-ayrı birləşmələr nəticəsində yeni tərkibə malik olaraq yeni enerji qüvvəsi toplaması daşları bir-birindən fərqləndirməyə əsas verir. Yantar şəvənin ilk variantı, Qaqat isə sonuncu və

fərqli variantıdır. Lakin xalq arasında Şəvə daha dərin inanc mənbəyi kimi vurğulanır.

Xalq hikmətini yazılı ədəbiyyata gətirən dahi Nizami də Şəvəni bir çox əsərlərində vacib və əhəmiyyətli daş kimi qiymətləndirib. Şəvənin adı xalq arasında toplanan vəsfi-hallarda, bayatılarda da çox çəkilir. Onun qorxu götürən bir daş kimi qiymətləndirilməsi qədim ayinlər və adət ənənələr kitabında da öz əksini tapır. Hətta Midiya aristokratiyasında bir çox qabların üzərini şəvə daşlarıyla bəzədilməsi də təsadüfi ola bilməzdi. Təbii ki, bu onun müsbət enerji tərəflərindən irəli gəlir.

**Şəvə** – uzun illər boyu daha çox inanc mənbəyi olaraq başqa daşlardan seçilmişdir.

Qaradır qaşım mənim
Ağrıyar başım mənim
Qorxunu götürürəm
Yoxdur sirdaşım mənim

Dahi Nizaminin də əsərlərində şəvə motivi daim səslənmişdir. Misralarından məlum olur ki, şair şəvəni bir daş olaraq tanımış, onun uğurlu inanclarına biganə qalmamışdır və daim onu nəzərə çatdırmağa çalışmışdır.

Şəvə yüngül olar ağırdır gövhər,
Gövhərə sərraf da çox qiymət verər (24, 95)

və ya:

Dəvənin zəngindən, fil güzgüsündən
Sədəf şəvə doğdu inci doğarkən (24, 77)

## QAQAT

**Qaqat** – da Şəvənin daha köhnəlmiş daha bir neçə əsrlər torpaqda qalan, başqa piqmentli növüdür. Lakin onun sehrli və müalicəvi tərəfləri şəvədən də çoxdur. Qaqata bəzən, yantarın qarası da deyilir. Şəvəyə çox bənzəyir, elə əslində şəvədir, lakin o şəvənin daha uzun müddət torpaqda qalıb, müxtəlif üzvi

maddələrlə birləşmiş formasıdır, ona görə də çox cüzi fərqi var. Lakin o, qan təzyiqini elə salır ki, bəzən yaxşı nəticə vermir.

## YARIMQİYMƏTLİ DAŞLARIN POZİTİV XÜSUSİYYƏTLƏRİ

Ümumiyyətlə daşları sadalamaqla bitməz, istər qiymətli, istər yarımqiymətli daşların müxtəlif növləri, müxtəlif rəng çalarları müxtəlif quruluşu demək olar ki, tükənməzdir. Ancaq maraqlı nüans odur ki, folklor materiallarında, xalq hikmətlərində bu müxitəlifliyə bir ümumi yanaşma prinsipi var. Yəni bir çox məxəzlərdə də, tədqiqatlarda da bu daşların əksəriyyəti eyni olmasa da, yaxın aspektdən pozitiv enerji mənbəyi kimi vurğulanır.

Yarımqimətli daşlar sırasında ən çox sevilən, yaddaşlara sehrli daş kimi həkk olan və daha çox qədim tarixə malik daş kimi tanınan Əqiq daşıdır ki, xalq arasında daha çox Aqat tək səslənir.

## ƏQİQ – AQAT

Əqiq - yəni xalq arasında Aqat deyilən bu daş müxtəlif rəng çalarlarında olub, müxtəlif enerji mənbəyi kimi bütün tarixi dövrlərdə axtarılan, sevilən daş olaraq daim diqqət mərkəzində yaşanıb.

Bir çox folklor materiallarında bu başın adı çox hallanır, hətta XVII əsrə aid olan bir əlyazmasında Yəməni Əqiq barəsində verilən məlumata görə guya o adamı divar və ya ev altında qalıb əzilmək təhlükəsindən qoruyacaq bir qüvvəyə malikdir (20, 34).

Əqiqin xassəsinə gəlincə isə müəllif bu daşı soyuq və qurudur deyə təqdim edir.

Yaxşısı qırmızı və ağ rəngdə olur. Özbəklər arasında belə bir inam var ki, müxtəlif rəngli əqiq daşlar gəzdirən şəxs

düşməndən heç zaman qorxmaz, cəsarətli olar, zəlzələ zamanı dağılma təhlükəsindən xilas olar.

Şərq aləmində əqiq daşının fəzilətləri haqqında deyilir: Salman Farsi rəvayət edir ki, bir gün Peyğəmbər (s.) həzrət Əliyə (ə) buyurdu: Ey Əli, üzüyünü sağ əlinə tax ki, Allaha yaxın olanlardan olasan! Həzrət Əli (ə) soruşdu: Ey Allahın rəsulu, Allahın dərgahına yaxın olan şəxslər kimlərdir? Həzrət buyurdu: Onlar Cəbrayıl və Mikayıldır. Həzrət Əli (ə) yenə soruşdu: Əlimə hansı üzüyü taxım? Peyğəmbər (s) buyurdu: Qırmızı əqiq. Həqiqətən əqiq daşı ilk daşdır ki, Allahın təkliyinə, mənim peyğəmbərliyimə və sənin vəsiliyinə, səndən sonra övladlarının imamətinə və səni sevənlər, övladlarının şiələri üçün behiştin olmasına iqrar edib (22, 43).

Rus mənbələrində isə göstərilir ki, Əqiq daşından olan həmayıl arzuların yerinə yetirilməsi üçün əsas vasitədir.

Onun insana enerji verməyinə, ruhu möhkəmləndirməyinə də çox inanılır. Taciklər əqiqin insan xarakterindəki neqativ tərəfləri dəf etməyinə daha çox inanırlar.

Əqiqin insanın ətrafındakı müsbət auranı saxlayıb mənfi enerjini dəf etməyinə də inam sonsuzdur. Maraqlı burasıdır ki, hətta ortaq türk xalqları arasında bu daşın rəng çalarları ilə müxtəlif yozum verən bir çox xüsusiyyətlərinə münasibət üst-üstə düşür. Məsələn, mavi əqiqin qalxana bənzər vəzin fəaliyyətini bərpa etmək, sarı əqiqin nəfəs orqanlarını müalicə etmək, qırmızı əqiqin qan damar sisteminə, endokrin vəzinin fəaliyyət pozğunluğuna kömək etməsinə özbək, qırğız, türkmən və s. bir çox türk xalqları eyni aspektdən baxır.

Aqat daşlar iki yüzdən çox rəng çaları ilə seçilir. Bəzi aqatların içərisində zolaqlar olur. Aqatlar həm dəniz, həm də quru səhralardan tapılır. Dənizdən tapılan aqatları dağlardan tökülən irmaqlar gətirir və suyun cilaladığı bu aqatlar daha maraqlı şəkillər alır.

Folklor materiallarından yəni bir çox nağıl, əfsanə və rəvayətlərin qayəsində də əqiqin bir daş olaraq qəddarlığı dəf

etməsi, sahibinə uyğun insanlarla yaxınlığa müəyyən mənada köməkçi vasitə olması, insanı mənfi vərdişlərdən uzaqlaşdırması kimi hallara rast gəlinir. Bütün bu xüsusiyyətlərə uyğun inamın izlərini də toplanan tədqiqat materiallarında bir daha izlədik.

Dünyanın yeni yeddi möcüzələrindən biri sayılan yəni, böyük sənət əsəri kimi diqqəti cəlb edən, Tac-Mahal türbəsinin tarixinə diqqət etsək burada Böyük Moğalların davamçısı olan Mahalın sonsuz məhəbbətlə sevdiyi sevimli xanımı Mümtaz Mahalın xatirəsinə ucaltdığı abidənin divarlarının yüz minlərlə əqiq daşından istifadə etməsinin fərqinə vararaq bu daşın sehirli tərəflərinin nə qədər güclü inanclarla bağlı olduğunun da şahidi olarıq. Təbii ki, burada təkcə Əqiq daşından istifadə olunmayıb.

Əqiq daşı ilə bərabər sədəf, firuzə, qırx iki zümrüd, yüz qırx iki yaqut, altı yüz iyirmi beş briliyant, əllidən çox böyük inci ilə bəzəndiyinin səbəbinə də bir araşdırıcı kimi laqeyd qalmaq mümkün deyil. Bütün araşdırmalardan sonra düşünmək olar ki, Tac-Mahal türbəsindəki bu zinət əşyaları zövq oxşamaqdan daha çox ruhların qorunması, türbənin ətrafına müsbət enerji toplanması mövqeyini güdür.

## AY DAŞI – ADLİYAR

Ay daşı da xərçəng bürcü altında doğulanlara uğur gətirir, baxmayaraq ki, onların talismanı Yaqutdur (2).

**Ay daşı** – bu daşa Adulyar da deyilir, onun başqa bir növü isə Yavradar adlanır. Əslində hər ikisi ay daşıdır. Ay daşı – sevgi, məhəbbət rəmzi daşıyır. Daşın öz sahibinə natiqlik verdiyinə də çox inanılır. Bir həmayıl olaraq sahibinə düzgün qərar verməkdə, yuxusuzluğu aradan qaldırmaqda, cəsarət və qürur verməkdə köməkçi vasitə kimi də vurğulanır.

Həqiqətdə ay daşı kvarsın aya bənzəyən növlərindən biridir. Bu baş Opal daşa da çox oxşayır. Rənginin açıqlığına və tərkibindəki bir neçə mineralın fərqinə görə onları ayırmaq

mümkündür. Ay daşının sakitləşdirici xüsusiyyətə malik olmasına, yuxusuzluğu aradan qaldırmasına, insanlara cəsarət verməsinə inam olduqca çoxdur.

Tədqiqat zamanı xalq arasında, xüsusən, Zəngilan rayonundan köçkün düşmüş bir qrup soydaşlarımızın qətiləşmiş inanc duyğuları da bizi özünə çəkdi. Belə ki, ay çıxana yaxın ovcunda ay daşını tutub niyyət edənin, arzusuna çatmağının yolu ona yuxusunda agah olar. Bu qəribə inanc ay daşı və ayın birgə enerjisi ilə bağlılığından asılıdır.

Bir çox başqa məxəzlərdə isə bu daşın ay planetindən gətirdiyi də vurğulanır. Ancaq daşın çox qədim inanclarla səsləşməsi isə bu varianta əsas vermir.

## AMETİST

**Ametist** – daşı da çox maraqlı inamlarla bağlı, sevilən daşlardandır. Bu daş əsasən Dolça bürcü altında dünyaya gələnlər üçün uğurlu sayılır, onların həmayılı hesab olunur (26, 130). Ametist daşının rəngi əsasən yenicə açılmış bənövşəni xatırladır. Çox güclü inanclarla ilgilənir. Sahibinin sağlamlığını, ağlını, şərəfini, hətta varını belə mühafizə etməyinə çox inanılır. Qələbə və uğur qazanmaq üçün güclü enerjiyə malik daşdır. Hətta bir yunan əfsanəsində göstərilir ki, şah öz qəddar sevgilisinə Liviya ametisti bağışlayır, bu ametist daş şəffaf bənövşəyi rəngdə idi. Bu daş hirsi, əsəbi, acığı, ədavəti, çox azaldır, ədalət hissini isə gücləndirirdi. Şah bir müddətdən sonra bütün hərəmlərini unudur və həmin sevgilisini tutur. Ametistə "cəmşət" də deyilir. Ametist yunan dilindən gəlmə sözdür. "Məst olmayan" mənasını verir.

Hətta bir çox nağıllarda bu daşın adı çəkilir və ametist vəhşi heyvanları ovlamaqda ovçulara insaf, ədalət bəxş edən daş kimi də səciyyələndirilir.

Ametistə daha çox sahibini sərxoşluqdan qoruyan daş kimi inanılır. Belə bir inam da var ki, bu daş kimə hədiyyə edilərsə, həmin kəsə məhəbbət verər, uğurlu həyat bəxş edər.

Ametist daş haqqında belə bir rəvayət çox söylənilir ki, guya birinci Pyotr bacısı Sofiyanın ametist daşlarla bəzənmiş qızıl sancağını əldə edəndən sonra Sofiyaya qalib gəlib, hakimiyyətə özü sahib olmuşdur. Hətta Pyotr özü Türk qalası olan Azovu ələ keçirəndən sonra bu qələbəni də həmin ametist sancağın gücü ilə ilgiləndirmişdir.

Əslində Ametist kvarsın emal olunmuş formasıdır. Evdəki neqativ enerjinin təmizləməyinə, stresdən yaranan zehni yorğunluqları aradan qaldırma xüsusiyyətlərinə görə kvarsdan geri qalmır. Müasir dövrdə bu daşı kompüterin, televizorun yanına qoymaqla gözləri qorumaq inamına da çox güvənirlər. Hətta inanclara görə bu daş qərar verməni də çox sürətləndirir (29).

## QRANAT – BİCADƏ – SÜLEYMAN DAŞI

Yarımqiymətli daşlar arasında xüsusi mövqeyi olan bu daşa xalq arasında nar daşı da deyilir. Lakin daha çox qranat deyə səslənir. Bu daşın Süleyman daşı adlandırılması da təsadüfi deyil. Ümumiyyətlə, tarixdə bir neçə daşa Süleyman daşı deyilib və müxtəlif nöqteyi-nəzərdən bu cür səslənmənin səbəbi də ayrı-ayrı «Süleyman»ların adıyla bağlanıb.

Ancaq XII-XIII əsr məxəzlərində, o cümlədən N.Tusinin araşdırmalarında yalnız Bicadə, yəni Qranat daşı Süleyman daşı kimi təqdim olunur. Həzrəti Süleymanın adıyla bağlı bu daşı N.Tusi çox qiymətləndirir və hətta göstərir ki, keçmişdə bu daşın qiyməti çox yüksək idi, lakin Ləl daşı tapılandan sonra bu daş qiymətdən düşdü.

Qranat – Lələ oxşatsalar da Yaqut daşa tərkibi nöqteyi-nəzərdən daha çox bənzəyir. Rəngi qırmızıdır, o, yaqutla dəyişik düşə bilər. Onları bir-birindən odun təsiri ilə ayırmaq olar. Bir də yaqutun başqa daşlardan bir fərqi də var ki, ağıza aldıqda uzun müddət isinmir (29).

Qranat kimi tanıdığımz Bicadə daşı, yəni Süleyman daşı nağıllarımızın süjet xəttində də çox hallanan daşdır. Hətta

Həzrəti Süleymanın üzüyü dini leqenda və əqidələrə görə sehrli üzük təsvirində verilir. Üzüyün qaşında guya allahın bir adı yazılıbmış. Bu üzük həzrəti Süleymana cinlər, quşlar və külək üzərində hökmranlıq qüvvəsi veribmiş. (29)

Ümumiyyətlə, Süleyman daşları daha çox öz sehri ilə səciyyələnir. Ancaq onlarda da müəyyən müalicəvi xüsusiyyətlər də vurğulanır. Belə ki, Qarant da başqa daşlar kimi qan laxtalanmasının qarşısını alır. Qan dövranını sürətləndirir, ürək-damar xəstəliklərinə çox kömək edir.

Bir çox daşların Süleyman adıyla səslənməsinin başqa bir səbəbi də Türk sərkərdəsi Sultan Səlimin oğlu Süleyman Sultanın zinət daşlarına olan sonsuz marağından və bu daşlarla bağlı inancların mahiyyətinə varmağından irəli gəlir.

Hökmdar Sultan Süleymanın zinət daşlarına laqeyd yanaşmamağı, hətta daşların cilalanmasına göstərdiyi xüsusi həvəs, bir çox daşları onun adıyla bağlamışdır.

Bicadə daşının isə, yəni Qranatın adının Süleyman daşı kimi səslənməsinin səbəbi bir başa ulu tarixdə Tiflisin yəhudilərindən olan Davudun oğlu Həzrəti Süleymanla bağlıdır.

Hətta Nəsrəddin Tusi özünün “Cavahirnamə” əsərində Firuzə daşının süd rəngli Şirfam adlanan növünə də Süleymani deyildiyini vurğulayır. (N.Tusi,26) Ümumiyyətlə, şifahi xalq ədəbiyyatında Süleyman daşının adı çox tez-tez hallanır. Hətta nağıllarla yanaşı bir çox vəsfi halların qayəsində də bu daş köməkçi vasitə kimi vurğulanır, el söyləmələrində, oxşamalarda Süleyman daşının şəfaverici xüsusiyyətləri əks olunur.

Əzizim dağ-daşına
Vuruldum göz-qaşına
Gətir gözümü sürtüm
Üzüyündə parlayan
Süleymani qaşına (29)

# OPAL

Opal – da çox sevilən daşlardandır. Bu daşı bəzən aldadıcı daş kimi də səsləndirirlər. Daş sahibinə o zaman uğur verər ki, ancaq əvvəlindən həmin nəslə mənsub olunsun, hətta nəsildən-nəsilə keçsə belə eyni köklə bağlansın. Əks təqdirdə bu daşın uğursuzluq mövqeyinə çox inanılır. Onu el arasında çox güclü enerjiyə malik bir daş kimi tanıyırlar. Və belə hesab edilir ki, Opal yalnız doğmalarına kömək edər, sahibini çətin vəziyyətdən çıxarar, sakitləşdirər, öz gücünə inamını artırar. İradəsi zəif olanları bu daşın xəyallar aləminə aparmasına da çox inanılır. Onun müalicəvi əhəmiyyətinə gəlincə isə uşaqların boyunun uzanmasına, əsəblərinin sakitləşdirməsinə, gözlərə nur verməsinə, insanları kecici xəstəliklərdən qorumasına və s. xüsusiyyətlərə malik olduğu söylənilir.

**Opal** – müxtəlif rənglərdə ağ, torpaq rəngi, suya bənzər, yaşıl, narıncı və qırmızı olur. Opal hind dilində daş deməkdir.

Ən qiymətli opal daşın tərkibi sulu olur. Suyun miqdarının fərqindən asılı olaraq opallar qiymətləndirilir. Təbii ki, daşın tərkibində ki su müxtəlif minerallarla zəngindir ki, bu da insan orqanizmi üçün çox faydalıdır.

Opal bədənin daxili enerjisini gücləndirir. Həzm prosesini normallaşdırır. Qanın fəaliyyətini gücləndirir, mənfi enerjiləri özünə cəzb edir.

# LACİVƏRD

**Laciverd** – də yarımqiymətli zinət əşyalarından biridir. Çox qədim tarixi olduğu nağıl və əfsanələrimizin qayəsi ilə yanaşı Nəsib Göyüşovun araşdırmalarında və toplanan tədqiqat məcmuələrində də müşahidə olunur.

İsti və quru daşdır, təbii halda olmur bu daşı, əsasən, mərmər daşını yonub cilalamaqla alırlar. Qəliz xıltları həll edir, qanı saflaşdırır. Laciverd qaşlı üzük, və ya başqa əşyaları gəzdirmək ürəyi möhkəmləndirir, sevdalı xəstəliklərin qarşısını

alır. Onun tozunu şeytan yağına qatıb bətni də təmizləyirlər. Mədəyə çox ziyandır, ürək bulanması yaradır (15).

Üstündə Lacivərd gəzdirən bədnəzərdən hifz olar.

Nizami yaqut qaşla bərabər lacivərd qaşını da həmişə qiymətləndirib: "Əlbəsən lacivərd bir rəngə çalar" – deməklə şair bu iki daşın oxşar rəngdə olduğunu vurğulayır və ya "Lacivərd fələkdən ibrət al barı".

## AVANTÜRİN – ZOLOTOY PESOK

**Avanturi** – farslar bu başa Zənstari, ruslar zolotoy pesok, bəzi məxəzlərdə isə qızıl qum kimi şərh olunur. Bu daş, əsasən, üç rəngdə olur. Daha çox qızılı yəni sarıya çalan rəngi yayılıb. Bu daşların tərkibində bir çox karbohidratlarla yanaşı qiymətli qumlar da toplanıb. Başqa daşlar kimi avanturi daşının da sehrli tərəfləri ilə yanaşı, müalicəvi xüsusiyyətləri də var.

Çox qədim zamanlardan bu daşı sancağa salar, üstlərində gəzdirərdilər ki, bəd nəzərlər dəf olsun. Qarabağ xanı Mehdiqulu xanın yeganə qızı Xurşdubanu Natavan xanımın da bu daşa xüsusi önəm verdiyi rıvayət olunur. Deyilənə görə, Xurşudbanu xanım qızıla çalan rəngli paltarlarını ki geyib qızıl toqqasın, qızıl silsiləsini taxarkən yaxasına da iri Lənistari qaşlı qızıl sancağını taxarmış. Qızıl rəngli əşyaları bu qaş rəng ahəngi ilə çox tamamlanarmış. Xurşudbanu xanımı daha gözəl göstərərmiş. Qeyri-adi zövqə malik olan xan qızının Lənistari daşa olan diqqəti bu daşın adi daş olmağını bir daha təsdiq edir.

## AKVAMARİN

**Akvamarin** – də zərgərlik aləmində çox istifadə olunan daşlardandır. Bu daş əsasən açıq mavidən tünd maviyə və hətta bəzən mavi ilə yaşıl arasındakı çalarlarla əks olunur. Bu daş əsasən dəniz suyunu xatırladır. Bu daşın daxilindəki boş olan kanallarda işıq əks olunur. Təbii akvamarin çox faydalı daşdır. Hazırda daha çox süni spinel akvamarin rəngində hazırlanıb,

istifadə olunur. Qədim təbabətdə bu daşdan ellergiyanı götürmək, immuniteti gücləndirmək, tənəffüs yolları xəstəliklərini müalicə etmək, o cümlədən bronxit, ağ ciyər fəsadları və beyin temperaturunu yüksəldib hafizəni bərpa etmək üçün istifadə edərmişlər.

## HİMALAY KRİSTALI

**Himalay kristalı** – bu daşı bir çox kristallardan pozitiv xüsusiyyətlərinin çoxluğuna görə fərqləndirirlər. Bu daş haqqında toplanan tədqiqatların çoxunda, demək olar ki, göstərilir ki, güclü enerji mənbəyi olan himalay kristallı kimdə olarsa əvvəlcə üç-dörd gün ərzində yuxulu kimi olar, yəni orqanizmdəki mənfi enerjiləri çəkdikcə insan yatmaq istəyər. Sonra bu kristal guya insana müsbət enerji verməyə başlayar və o zaman hər kəs aktivləşər, sanki ona güc gələr. Bu da himalay kristalının ən qoruyucu qüvvə kimi fəaliyyətindən doğur. Himalay kristalı insanı daim enerji ilə təmin edir. Yorulmağa qoymur. İnsanın müsbət düşüncələrini reallaşdırır. Beyində pozitiv fikirlər yaradır. Sahibini arzularına qovuşdurur. Əgər daş ağırlaşarsa, deməli, sahibinin hansısa hərəkətinə etiraz edir (29).

## MALAXİT – DƏHNƏ – BƏKİR DAŞI

Dəhnə bəkir, yəni malaxit daşı da yarımqiymətli daşlar sırasında çox sevilən daşlardandır. İnam var ki, bu daş sahibinin əhvali-ruhiyyəsini yüksəldir, özünə inam artırır. Uşaqların bədnəzərdən qorunmağına çox kömək edir. Qorxudan qıcolma xəstəliyinə tutulanların əlacı kimi çox güvənli inanclarla ilgilidir. Hələ çox qədimdən bu daşı uşaqların yastığı altına qoyardılar, hesab edilərdi ki, o zaman uşaq yaxşı yuxular görər, səksəkəli yatmaz, rahat olar. Malaxitin də güclü enerjiyə malik olduğuna inanılır. Malaxit əsasən yaşıla çalan parıltısız daşdır, o miss pasına bənzəyir.

Şirin Dəhnə miss pasına oxşayan yaşıla bənzər, üzərində incə, qara və bəzən isə zolaqları olan bir daş kimi diqqəti cəlb edirsə, acı dəhnə qaramtıl zolaqlı, şirin isə qırmızı zolaqlı daşdır. Dəhnənin, yəni Malaxitin əsas mədəni Firəng dağlarıdır (Fransa). Misirdə vaxtilə yaqut rəngində malaxit olub. Qırmızı malaxit daha üstün sayılır. Şam vilayətində və Avropada qırmızı dəhnədən qədəh düzəldirlər. Yəhər daşını və kəmərləri bu daşla bəzəməyi çox sevirlər. Ümumiyyətlə, Misirdə bu daşı çox sevirlər və onun xeyirxah enerji verməyinə hədsiz dərəcədə inanırlar. Şirin dəhnənin gözə xeyrini N.Tusi də öz araşdırmalarında vurğulayıb. O gösətir ki, dəhnə gözün yerindən oynamış damarlarını yerinə salır və gözün işığını artırır.

Dini baxımdan da bu daş hər zaman xatırlanır, qiymətləndirilir. Çox qədim daş olaraq tarixi miladdan 4 min il əvvələ gedib çıxır. Mədəni əsasən Avstraliya, Amerika, Afrika və Ural dağ silsiləsidir.

Bu daşın ürək enerjisi mənbəyi ilə əlaqədə olduğuna inanılır. Hamilə qadınlara güc verən daş kimi də vurğulanır. Hətta orta əsrlərdə bu daşı sonsuzluğun dərmanı da hesab edərmişlər. “Qəbilə daşı” kimi qəbul edilib. Bu daşın bədənin daxilindəki, mənfi enerjini çıxarıb, şər qüvvələri uzaqlaşdırmağına da, insanda həyat ruhiyyəsi və şadlıq icad etməyinə də çox inanılır (22, 30).

## XRİZOLİT

**Xrizolit** – bu daş da Şir, Buğa bürcündə dünyaya gələnlərə çox uğurlu sayılır və onların həmayılı hesab olunur. Xassəcə zümrüd daşına çox oxşayır. Bu daşın da özünə məxsus inanc mənbəyi var. Deyirlər ki, bu daşı sol əldə gəzdirsələr, o zaman çox uğur verər. Sahibini daima mənfi enerjilərdən qoruyar. İnsanlar arasında anlaşma yaradar. İntuisiyanı möhkəmləndirər, insanlara güc verər, sahibini baş verəcək pis

hadisədərdən qoruyar, həta onu intellektual səciyyəni yüksəldən daş kimi də tanıyırlar.

Balıqlar, Qoç və Əkizlər burcu altında dünyaya gələnlər üçün çox uğursuz daşdır. Xrizolit daşının təbabətdə də rolu böyükdür. Qanaxmanı kəsir, sidik və böyrək daşının parçalanmasına da kömək edir. Görmə qabliyyətini artırır. Xrizolit qaşlı üzük gəzdirənin qorxusunu dəf etməyinə də çox inanılır.

## NİFRİT

**Nifrit** daşını Şir bürcü altında dünyaya gələnlər üçün çox uğurlu sayırlar. Halbuki, o bürcün talismanı Zefir və Oliven hesab olunur. Nifriti ibərəkət və uğur daşı hesab edirlər. Ağıl simivoludur. Hətta qəim çində bu daşın cəsarət və ədalət gətirməsinə də böyük inam olubdur. Məişətdə istifadəsi sinir sistemini, ürək böyrək xəstəliklərini müalicə etməklə bərabər, immuniteti möhkəmləndirməyə də kömək etməyinə çox inanılır.

## TOPAZ

**Topaz –** çox nadir tapılan daşdır. Günəş işığında rəngini dəyişir, temperatura davamlıdır. Adı çox hallanan məşhur daşlardandır. Hətta el arasında ehramlı daş adlanır. Topaz daşının müxtəlif rənglərdə olması bu daşın ayrı-ayrı minerallarla birləşmə qabliyyətinin olmasından xəbər verir. Topazın yeni ailə quranlara uğur gətirəcəyinə çox inanılır. O bir çox qiymətli daşların ortasına da elə bu məqsədlə yerləşdirilir.

Topazın da müxtəlif növləri var. Dumanlı topaz, göy topaz və s. çox yayılmışdır. Topaz da kvarsın bir növüdür. Göy topaz xalq arasında çox qiymətləndirilir. Hətta göy topazı rubin kimi sevir, axtarırlar. Kvarsın bütün növləri kimi topaz da yuxu gətirir, əsəbləri sakitləşdirir, sahibini şərdən-böhtandan qorumağa çalışır. Topazın sümüyü bərkitmək kimi müalicə qabiliyyətinə malik olduğuna da çox inanılır.

## SİTRİN

**Sitrin** – də topaz tipli daşdır, topaza çox bənzərsə də tərkibi çox fərqlidir. Topazdan ucuz qiymətləndirilir, ancaq çox zaman topaz əvəzinə təqdim edilir. Bu daş da göz xəstəliyinə qarşı çox faydalıdır. Stresi və gərginliyi aradan qaldırır, özünə inamı artırır, nitq qabiliyyətinə çox kömək edir, yuxusuzluğu dəf edir. Sitrin açıq sarı rəngdən qızılı qəhvəyi rəngə qədər müxtəlif çalarlarda olur. Kvars daşlar qrupuna aiddir. Limon rəngində olduğu üçün bu daşa sitrin-limon deyilir.

Sitrin sənayedə qaş kimi istifadə edilir. Lakin hazırda bu qaşların əksəriyyyəti təbii deyil. Bu daşlar ya ametistdir, ya da yüksək hərarətdə rəngi dəyişdirilən kvars daşlardadır. Təbii sitrinlərin rəng çalarları olur.

## BİLLUR

**Billur**– daşını kvarsın növlərindən biri hesab edirlər. Nəsrəddin Tusi də on birinci fəsildəki araşdırmalarında bu daş haqqında göstərir ki, billurun mədəni Hindistanda Seylon, yəni Sərindib adasının yaxınlığındadır. Lakin ərəbistanda da tutqun qabıqlı billur növü olur və bu qabığı götürdükdə saf, parlaq billur çıxır. Tusi öz tədqiqatında Billuru daşların ən saf və incəsi hesab edir. O göstərir ki, billuru odda yandırıb rənglədikdən sonra yaquta bənzətmək mümkündür. Onu rəngləyib Ləl yerinə də satırlar.

Billurun dağ billuru adlanan bir növü də çox yayılıb. Bu daşın da böyük müalicəvi əhəmiyyəti var.

## GÖZ DAŞI

**Göz daşı –** yəni xüsusi olaraq tuşlanan bəd nəzəri dəf edən bu daşa əsasən **göz muncuğu** da deyilir. Bu daşın özünəməxsus qəribə xüsusiyyətləri var. Əslində göz daşı təkcə qara, üzəri ağ çıxıntıları olan daş deyil. Gözün bəd şüasını dəf

edən **pələng gözü, pişik gözü, şahın gözü, öküz gözü** adlanan daşlara da deyilir.

Həyatda bəd nəzər adlanan bir məfhum var. Göz dəymə mütləqdir. Gözdən Tanrının xəbəri yoxdur. Göz dəyməyə inam tarix boyu olub (8). Nənəm deyərdi ki, ən az bəd nəzər gözdə on səkkiz dərəcə olur. Bu şüa insanı bəlalara düçar edər. Bəd nəzər toxunan kəs, yorğun olar. Qızdırar, süst qalar, tez-tez əsnəyər. Belə bir deyim də var, nəzər əsnək gətirər. Xalq arasında bu daşa sonsuz inam var. Tarixin bir çox mərhələsini sınana-sınana aqillərin hikmət xəzinəsində yaşayan bu daşın gücünə inam həmişə olmuşdur. Tədqiqat zamanı da bu aydın şəkildə müşahidə olundu. Hətta Ağdam rayon sakini hal-hazırda Quzanlı kəndində yaşayan Tünzalə Vəliməmmədovanın göz muncuğu haqqında söylədiyi bir həqiqət bu araşdırmanın əsas qayəsi kimi çox böyük dəlildir.

Bu hadisə təxminən 1985-ci ildə baş verdi. Bizə qonaq gəlmişdi, qohumlardan birinin xeyir işi idi. Bizim zonada bu hadisəyə «parça biçdi» deyilir. Qonağımız qonşuluqdakı həmin parçabiçdiyə getdi və uşağı mənim yanımda qoydu. Mən uşağa baxmalı idim. Ancaq uşaq çox ağladı, mən narahat olaraq uşağı qucağıma alıb, qonşuluqdakı «parçabiçdi» deyilən mərasim mağarına girdim. Uşaq anasını görəndə sevincini gizlətmədi, çox gözəl oğlan uşağı idi. Mən həmin stola yaxınlaşırdım ki, qəflətən uşağın üstündən iki parça daş sıçradı, çay nəlbəkilərinə düşüb çaqıldadı və hətta nəlbəkinin biri sındı. Bu uşağın qolundakı, göz muncuğunun parçaları idi, çay nəlbəkidə çox aydın müşahidə olunurdu. Ağbirçəklər təcili uşağı mağardan çıxarmağını tələb etdilər. Mən uşağı mağardan qaçırdım. Evdə onların göstərişi ilə üzərlik də yandırdım. İndi həmin uşaq böyüyüb, Yasamal rayonunun da polis kapitanıdır. Məsələ ondadır ki, qocaların dediyinə görə, o, uşağı göz muncuğu bədnəzərdən hifz elədi, qorudu. Yoxsa nə isə bir bədbəxt hadisə də baş verə bilərdi (34). Belə faktlar yetərincədir.

Göz daşı, yəni göz muncuğu haqqında yüzlərlə belə toplama. Təbii ki, bu da göz daşı adlanan bu daşın tərkibində ki, mineralların təsirindədir. Yəni təbabətdə də bu hadisəni inkar etməyənlər çoxdur. Belə ki, canlıların əksəriyyətinin gözündə olan müəyyən şüaların təsiri danılmazdır. Bu hadisə də hələ elm aləmində tam mənası ilə açılmayan aura və s. kimi bioloji məqamla ilgili prosesdir.

Ancaq dünya elmlərinin bir çox dərinliklərinə baş vuran dahi Nizami Gəncəvi el ədəbiyyatından mayalanan əsərlərində bu məsələyə çox ciddi şəkildə toxunub.

Şah dedi:

«Düşünüb alimlər incə,
bundan çıxarıbdır belə nəticə:
Şübhəsiz, hər şeyə düşərsə nəzər,
havadan keçərək eyləyər əsər
Bu zaman havayla birləşir yəqin,
Odur ki, təsiri artır nəzərin. (24, 490-494)

Dahi bu mirsalarla bəd nəzərin insanın gözlərindən axan şuanın havadakı hansısa bir oksidlə reaksiyaya girərək insana xətər yetirdiyini çox aydın vurğulayır.

Dəydiyi nöqtəyə göz salar bir iz,
Hava da o yerə bir yol tapar tez.
Əgər sağlam olsa hava bu zaman
Dəydiyi şeylərə yetirməz ziyan
Yox əgər olarsa havada zəhər
Dəydiyi hər şeyi yəqin məhv edər.
Birinə bəd nəzər dəyərsə əgər,
Dəyişər əhvalı tez-tez əsnəyər
Bədnəzər olarsa əgər bir insan
Alnı hərarətdən tərlər çox zaman
Bu iki əlamət aydın göstərər
Kimdir gözə gələn, kimdir bədnəzər.

Dahi bu misralarla artıq bəd nəzərə tuş gələn insanın əlamətlərini təsvir edir. Bədnəzər el arasında çox yayılmış bir inancdır. Bu inanc uzun illər boyu sınanıb və bir daha inanılıb

ki, üzərində göz daşı (muncuğu) gəzdirəni nəzər kəsməz, bu daş göz şüasını geri qaytarır, neqativ enerjini söndürür. Şüanın təsiri həmin daşdakı elementlərlə reaksiya girir və öz təsirini itirir. Gözdəyməni el arasında çox tanınan üzərliklə də dəf etməyə səy göstərirlər və bu bitkiyə də inanc güvənlidir və s.

Bədnəzərlə bağlı göz daşı (muncuğu) ilə ilgili vəsfi-hallar, atalar sözləri, bayatılar alqış və qarğışlar, oxşamalar, laylalar, əfsunlar da çoxdur.

1. Tanrının gözdən xəbəri yoxdur.
2. Göz yıxanı el qaldıra bilməz.
3. Nəzər qılıncdan itidir.
4. Göz kəsdi, söz kəsdi.
5. Nəzər əsnək gətirər.
6. Səni görüm bəd nəzərə tuş gələsən.
7. Tanrı səni bəd nəzərdən qorusun.
8. Göz vuranın gözü çıxsın.
9. Muncuqda qırx göz olsun.
   Bəd nəzərlər köz olsun.
   Muncuğun yeddi gözü
   Bəd nəzərin bəd sözü
   Odda yanıb kül olsun
   Balam açmış gül olsun

və s. bu cür bədnəzərlə bağlı toplanan folklor materiallarının hamısında xalqın hikməti ancaq neqativ nəzərləri dəf etmək aradan qaldırmaq prinsipini gözləyir.

## MARKAZET

Markazit yarımqiymətli daşlar sırasında ən qədim daşlardan hesab olunur. Nəsrəddin Tusinin "Cavahirnamə" əsərində bu daşın bir çox xüsusiyyətləri araşdırılıb. Müəllif on üçüncü fəsildə Markazit daşını saflaşdırmaq üçün odda qızdırılmağından, bu zaman daha parıltılı, parlaq və bərk olmağından danışır. Müəllif göstərir ki, bu daşa abgineyi-

fironu da deyilir. Hətta Tusi markazit daşını mərqaşişa kimi təqdim edir.

Markazit daşı metal parıltısına malik yaşıl boz rəngli kristaldır. Günəş şüallarının altında qeyri-adi parıltı verir. Markazit sözü, əslində, ərəb sözü olub mənası – mürəkkəb kükürd deməkdir. Onu gümüş damcısı, incə daş kimi də səsləndirirlər. Avropada daha çox çıxarılır və sevilir. Körpələrə enerji verdiyinə dünyanın bir çox ölkələrində inanılır. Əhvali ruhiyyəni qaldırır, özünə inam yaradır və onu qorxudan qoruyan daş kimi tanıyırlar.

Markazit daşından qablar da hazırlayırlar. Çarxda hamarlayaraq üzərinə müxtəlif naxışlar və sürətlər həkk edirlər, bu da həmin daşa tapınma ilə daha çox bağlıdır. Çünki bu cür qabların süfrəyə bərəkət bəxş etməsi inancı hələ də yaşanır.

## MANQANİT

Manqanit – daşının qədimliyi "Cavahirnamə" əsərindən də məlum olur. N.Tusi on dördüncü fəsildə bu daşın Manqan daşı kimi səsləndiyini və vaxtilə şüşəçilər və kasa qayıranlar tərəfindən daha çox istifadə edildiyini vurğulayır. Bu daşın dəmir kimi parıldadığına, üzərində gözəbənzər çökəklər olduğuna da müəllif laqeyd qalmayıb. Manqan daşı, əsasən, qırmızı və sarı rəngdə olur. Sarı rəngdə olanı daha çox qiymətləndirilir. Müalicəvi əhəmiyyətinə də inam güclüdür. Əsasən sidik kisəsində əmələ gələn daşların tökülməsinə yardımçıdır. Tədqiqat zamanı daşın bu xüsusiyyəti çox vurğulanmaqla yanaşı N.Tusi də öz araşdırmasında bu məsələni açıqlayıb.

## BELAMORİT

Belomorit – daşı çox tanınan daşlardan deyil. Ancaq bu daşın da özünə məxsus xüsusiyyətlərinə inanılır. Kədəri, depresiyanı, aradan qaldırmaq qabliyyətinə malikdir. Ancaq, deyilənə görə, bu daş mənfi enerji özündə daha çox saxlayır və

vaxtaşırı saf yağış suyu ilə təmizlənməzsə ətrafa mənfi enerjini paylayar. Təmizlənməklə isə daim müsbət enerji verər.

## SİRKON

**Sirkon** – çox maraqlı daşdır. Güclü enerjiyə malikdir. El arasında inanılır ki, sirkon yalançını, iküzlü dostu sahibinə tez tanıdır. İnsanın daxilini açmağa yardımçı olan bir daş kimi inanılır. Əsasən sehrli daşlar qəbiləsindəndir.

## SARDER

**Sarder** – də bərpaedici qabiliyyətə malik daşdır. Sağalmaz yaraları sağaldar. Daha çox təbabət inanclıdır. Soyuqdəymənin qarşısını alır.

## AMAZONİT

**Amozonit də** – yarımqiymətli daşlardandır. Çili daşdır. Əsasən yaşıl və ya yaşıla bənzər mavi rəngə çalır. Sean daşına çox bənzəyir, lakin istər enerji baxımından, istərsə də tərkibinə görə fərqli daşdır. Sevgi daşıdır. Qədimdə bu daşı dünyaya övlad gətirəcək analar üçün köməkçi daş hesab edərmişlər. Əslində isə siniri sakitləşdirmək və stresi götürmək qabiliyyətinə malikdir.

Bir dini mənbədə vurğulanır ki, bu daş bədənin metobolizmini tənzimləyir. Əsəbləri sakitləşdirir, pərişanlığı aradan götürür.

## NİFRİT

**Nifrit –** açıq ağ və yaşıla çalıb adı çox hallanan daşlardandır. Demək olar ki, bütün orqanlardakı qulaq, diş, göz ağrısına kömək edir. Ağrı götürən daş kimi tanınır. Qanı saflaşdırır. Əslində bu daşı bəzək daşı heçab etmirlər, müalicəvi daş kimi qiymətləndirirlər.

# GEMOLİT

**Gemolit** – də müalicə əhəmiyyətli daşlardandır. Ta qədimdən təzyiqi aşağı olanlar bu daşdan çox istifadə edirlər, bu daş təyziqi normallaşdıran daş olsa da, bəzən də qaldırır ki, hipertoniya xəstəliyi ilə nəticələnir.

# PADZƏHR

**Padzəhr** – bu daş haqqında Nəsrəddin Tusinin "Cavahirnamə" əsərinin səkkizinci fəslində çox aydın təsəvvür yaradılır. Burada Padzəhrin beş rəngdə, ağ, sarı, xakestəri (torpaq rəngi), munəqqət (xal-xal), muləvvən (əlvan) olduğu göstərilir. Əlvan rəngli padzəhrin çoxluğundan

# MİNA

**Mina** – da qiymətli minerallardan hesab olunur. Ən qədim bəzək əşyası kimi həmişə diqqət mərkəzində olub. Ancaq ilkin çağlarda onun qiyməti düzgün verilmədiyi üçün daha çox qablara, ev əşyalarına istifadə olunub. Hazırda isə mina ən qiymətli daşların ətrafına həkk olunur.

Mina müxtəlif rənglərdə olur. Onun ən qiymətlisi yaşıla çalan rənglisidir. Qara mina daha geniş yayılıb, daha çox sevilir. N.Tusi öz araşdırmasında göstərir ki, sarı minanı zümrüd əvəzinə də satırlar. Ta qədimdən Şamda və Məğribdə yəni Markeş ölkələrində minadan daha geniş istifadə olunardı, qablar düzəldib üzərinə naxışlar vurub daş-qaşlarla bəzəyirdilər.

# METALLARIN MAGİK ENERJİSİ

## QIZIL

Qızıl insana məlumat olan ən qədim metallardandır. Qızıl əşyaları tarixin qədim qatlarını açmağa kömək edir. Ortaq türk mifologiyasında qızılın xüsusi yeri var. Nağıllarımızın, rəvayət, əfsanə və əsatirlərimizin əsas qayəsi kimi qızıl həmişə qiymətli bir vasitə olaraq diqqət mərkəzində olmuşdur. Hətta eramızdan

əvvəl V əsrdə Heredot yazır ki, Avropanın şimalında çoxlu miqdarda qızıl var. Təbii ki, bu qızılın mifik anlamına gəlincə, o insan həyatının əsası, şər qüvvələrdən qoruyucu vasitə, uzun ömrün mənbəyi kimi tarix boyu qiymətləndirilib və sevilib. Ən qiymətli daşlar uzaq keçmişdə belə adətən qızıla geydirilib, təbii ki, bu təsadüfi deyil. Qızıl qüdrətli şahların xəzinəsində daha çox olub, bunun qiymətli hesab olunaraq belə saxlanılmasının bir tərəfi dəyər meyarı olduğu kimi bir tərəfi də pozitiv enerji mənbəyi kimi inanclarla ilgilənməyidir. Qızılın bir zinət əşyası olaraq xalq arasında tutduğu mövqeyə dair toplanılan inanclara diqqət edək...

1.Üstündə qızıl gəzdirənin ömrü uzun olar.

2.Körpə uşaqların papağına xırda qızıl əşya sancarlar ki, şər qüvvələr ona toxunmasın.

3.Xəzinəsində qızıl olan şaha bata bilməzlər.

4.Qızıl mənfi enerjini çəkdiyi üçün ağır xəstələrə ta qədimdən qızıl suyu içirərdilər.

5.Qızılca çıxaranın qızıl suyu içməsi vacibdir.

6.Su çiçəyi çıxaran uşaq qızıl su ilə çimizdirilməlidir.

7.Qızıl əşya gözü nəfsi götürür.

8.Qızıl ( qaşlı və ya qaşsız ) sırğa insanı qoxudan hifz edir.

9.Qızıl bilərzik taxana güc qüvvə gələr.

10. Qızıl saat taxan kəsin vaxtı itməz , günü uğurlu keçər.

11. Qızılı külçə şəklində saxlamazlar, evə bədniyyətlik gətirər.

12. Qızıl, əsasən, zinət əşyası kimi daha çox uğur verər.

13. Qızıl sirkə bərəkətdir deyərlər, hər kəsin zinət əşyalarının arasında bir dənə də olsa qızıl sirkə saxlanarsa o əşyalar əskilməz .

14. Yuxuda qızıl səsdir, xoş xəbərdir, ancaq yuxunun süjet xəttindən çox şey asılıdır .

15. Təzə gəlin və bəyin üstündə qızıl gəzdirməsi çox vacibdir, deyərlər ki, həyatın başlanğıcında fəriştələr onlarla əylənmək istər.

16. Qızılı isti suya salıb ılıq şəkildə içmək bədəndəki yaman şişləri əridər, vaxtaşırı bir ay davam etmək vacibdir.

17. Qızıl yalnız öz sahibinə uğur verər, başqalarının əlinə keçsə, bəd uğurlu olar.

18. Qızıl halallığı çox sevir, tapılan, oğurlanan, havayı yolla qazanılan qızıl baş yeyər , ailəyə bədbəxtlik verər .

19. Qurbanı qızıl pulla alıb kəsmək ən ağır bəladan qurtulmaq kimi yozulur .

20. Qızıl gözün nurunu artırmaq inamı da çox güclüdür.

21. Hər kəsin öz əcdadından qalan miras qızılın da yalnız sələflərinə xeyir verəcəyinə çox inanırlar.

22. Qızıl məmulatlar boğçasını, yəni qızıldan hazırlanan zinət əşyalarının (sandıqçasını ) gizli saxlayarlar, hər kəsə göstərməzlər, bu, uğursuzluq əlaməti hesab olunur (doğmalardan savayı).

23. Başqasından alınan qızılı saf yağış suyu ilə təmizləyir, sonra üzərində gəzdirərlər.

Qızılın elektriki yaxşı keçirmə qaibliyyəti, yüksək kiməyi sabitliyi, işıq şüallarıı və istilik cərəyanlarını effektiv əks etdirməsi, infraqırmızı şüalanmanın əksi və yarımkeçiriciliyi onun təbabətdə də insan orqanizminin bərpası üçün çox faydalı effektinə səbəbdir. Odur ki, insan ibtidai dövründən dəqiq müşahidələri ilə qızıl elementinə müxtəlif inamlarla yanaşmış, onu pozitiv enerji mənbəyi kimi qiymətləndirərək, çox güvənli baxmışdır.

Hətta vərəm xəstəliyinin müalicəsində antibiotiklərin kəşfindən əvvəl qızılın bir sıra birləşmələrinə müraciət olunurdu. Məlum məsələdir ki, qızıl tozu və qızıl birləşmələri vərəm xəstəliyinin müalicəvi dərmanıdır.

Xərçəng xəstəliyinin müalicəsində də qızılın izotopları sınanmış vasitələrdən biridir. Həmin izotoplar təbii qızılın

neytronlar, protonlar, alfa və qamma şüaları vasitəsi ilə dağılması yolu ilə alınır.

Rus alimi Dmitrii İvanoviç Mendeleyev əbəs yerə cədvəlində qızılın atom sayını 79 göstərərək onu 79-cu yerdə verməmiş, burada qızılın bütün xüsusiyyətlərini nəzərə almışdır.

Qədim Misir yazılarında, Firon və III Tutmozisin dövründə misirlilərin qızıldan istifadəsi haqqında müəyyən məlumatlar verilib. Daş, tunc və mis dövründə qızılın çıxarılmasında Afrika birinci yerdə dururdusa, indi Rusiya, Özbəkistan, Qazaxıstan, Qafqaz daha irəlidədir.

Qızılın saxtakarlılığı sevməməsi saflığı haqqında da çox fikirlər söylənilir. Hələ çox uzaq keçmişdə qızıl haqqında müxtəlif araşdırmalar aparılıb. Qızıl haqqında Məhəmməd İbn Həsən yəni Nəsrəddin Tusi də özünün "Cavahirnamə" əsərində bildirmişdir ki, heç zaman kimyəvi yol istehsalı ilə saf qızıl almaq olmaz. Kimyagərlərin düzəltdikləri qızıl xalis qızıl deyil, hətta vurğulayır ki, əslində heçqızıl deyil. Tusi araşdırmalarında Bürünci-Dəməşqin də qızıla çox oxşarlığını qeyd edir. Ancaq çəkisini yoxlamaqla onun qızıl olub-olmadığını bilmək olar və Nəhəng daşına vurarkən onun əyarının dörd danğ olduğunu və oda tutarkən qaraldığını da bir meyar olaraq vurğulayır.

Qızıl geoloji təsnifatda mislə qohum olan metallar sırasında üçüncü qrupa, yəni Xalkofil elementlər qrupuna aiddir.

Qızıl haqqında söylənən rəvayətlər arasında belə fikirlər də vurğulanır ki, 1945-ci ildə şah, yəni böyük Pyotrun qızı imperatriça Yelizaveta qızıldan hazırlanan zinət əşyalarını çox sevdiyindən əmr edir ki, Karaliyada Petrozavodsk şəhərində İonks mis yatağında qızıl axtarışına başlansın və Yelizavetanın gümanları reallaşır. Həmin ətrafdan tapılan qızıl yataqları tarixə Rusiyada qızıl sənayesinin əsası kimi həkk olunur.

Xalq arasında belə bir ifadənin də tez-tez işlənməyini inkar etmək olmaz ki, deyərlər ki, qızıl baş yeyəndir. Bu sadə

fikrin arxasında ancaq qızılın riyakarlığı sevməmək prinsipi dayanır, yəni oğurluq, havayı əldə olunma, sahibindən aldadılıb alınan qızıldan heç zaman xeyir bərəkət gətirmədiyi nəzərdə tutulur, başqa tərəfdən də sahibindən topladığı mənfi enerjini təbii olaraq yad aləmə verməyi də əsas şərtlərdəndir. Qızıl alınarkən çalışmaq lazımdır ki, xeyir-dua prinsipi qorunsun, daha yaxşı olar ki, bir başa satışdan yenisi alınsın və heç bir neqativ enerjini təmizləməyə ehtiyac qalmasın.

Nağıllarımızın mayasında da bu cür süjetlər tez-tez müşahidə olunur.

Bir çox bayatı, oxşama və laylaların da mayasında bu fikirlər çözələnir.

Əzizinəm, al məni,
Tər sinəyə sal məni
Xeyir-dua almasan
Yolda itir, sal məni.

Elin köksündən qopan bu hikmətli misralarda xeyirsiz-duasız alınan heç bir əşyanın insana xoşbəxtlik gətirmədiyi əsrlər boyu müşahidə olunub, sınaqlardan keçib. Başqa bir bayatıya nəzər salaq:

Kəndin yolu toz olar
Mavi şalvar boz olar
Bir yad üzük tapmışam
Nəfs vurar, göz qalar.

Bu misralarda da eyni ilə yad bir əşyanın gözlə, nəfslə bağlı inanclara yönəldiyi təsvir olunur və adilləri, müdrikləri bu cür xeyirxah inamlar həmişə düşündürüb. Odur ki, aqil insanlar torpaq alıb, yurd salanda da, qızıl əşyası alanda da həmişə xeyir-dua anlamına həssaslıqla yanaşıb, göz yaşı ilə, güclə əldə olunan sərvətlərdən qaçmağa çalışıblar. Əgər dünyanın bütün varidatı, sərvəti insan üçündürsə, deməli, insanın özünün varlığından, sağlamlığından qiymətli heç bir sərvət ola bilməz və insan o sərvəti xeyir-dua ilə toplamalıdır ki, bəhrəsini görə bilsin.

# PLATİN

**Platin** – geokimyəvi təsnifata görə yer qabığında tapılan dəmir ailəli elementlərdəndir. Müasir elmə görə yerin nüvəsi kobolt saxlayan nikoli dəmirdən ibarətdir. Dəmirin sıxlığı 7 q/sm$^2$-dir. Nüvənin sıxlığı ondan yuxarı, daha yuxarı sıxlığı olan metallar isə qızıl gümüş və platinoiddir.

Platinoidlər təbiətdə həmişə bir yerdə tapılır və digər elementlərlə, demək olar ki, heç vaxt birləşmir.

Platin və bu qrupa aid olan metallar yaxşı katalizatorlardır.

XIX əsrin birinci yarısında ingilis kimyagəri və fiziki U.Valloston platin filizlərinin tədqiqi ilə məşğul olarkən o iki çəhrayı rəngli naməlum metalla rastlaşır və göstərir ki, bunlar radium və platindir. Yer qabığında radiumun miqdarı platinlərdən azdır və onların ayrılması texnologiyası da çox çətindir. Radium xarici təsirlərə davamlı metaldır.

Xalq təbabətinə gəlincə isə radium da, platin də gümüş kimi suyu bakteriyalardan təmizləyir.

Platinin rəngi gümüşü ağ və poladı boz arasında dəyişir. Güclü metallik parıltısı var, şuanı əksetmə qabiliyyətinin yüksək olması onun xalq arasında insan orqanizminə müsbət təsirinə əsas verdiyindən bir çox mifik anlamlarla ilgilidir. Nitrat turşusunda həll ola bilməsi, kalium yodla reaksiyaya girməsi də onun şəfaverici bir çox xüsusiyyətlərini aşkarlamışdır. Qədim yunan ilahəsi həmişə əmin amanlığı tənzimləyən, qoruyan Afina Palladanın adının bu elementə verilməsi də təbii ki, təsadüfi olmamışdır.

Palidiumun xüsusi idman xassəsi olduğunu da bir çox alimlər sübuta yetirmişlər və o zaman insanlar ətraflarında olan zərərli qazların, havadakı bəzi gözlə görünməyən toz dənəciklərinin dəf olunması üçün platinin gücünə çox inanmışlar.

Platin qızıldan seçilməyən sarı rəngli metaldır. Möhkəmliyinə və yaraşığına görə zərgərlik aləmində bir çox zinət əşyalarının üzəri platinlə haşiyələnir və s.

Tarixi məxəzlərdən məlumdur ki, təbiətdə sərbəst şəkildə tapılan bütün metallar insanlara çox qədimdən məlum imiş. O cümlədən gümüş, qızıl, miss və s. olmaqla bərabər platin də bu sıraya aiddir. Hətta belə bir fakt da vurğulanır ki, İspan riyaziyyatçısı Antonio de UİOA Amerika səfərindən qayıdarkən, Kolumbiyadan gətirdiyi metallik dənələri həmkarlarına göstərib və müşahidə zamanı bu dənələrin gümüşdən ağır, sərt və parlaq olduğunu görəndə onu ağ qızıl kimi qiymətləndiriblər. İspan dilindən tərcümədə platin – gümüş demək olsa da xalq arasında bu metalı ağ qızıl da adlandırırlar. Vaxtilə platin gümüşdən aşağı səviyyədə tutulub, çox az istifadə olunub, lakin sonralar İspan zərgərləri qızılla platinin qarışığının böyük sıxlığa malik olduğunu müşahidə edib onun qiymətini lazımınca verə bilmişdilər.

Platin də bilavasitə bir zinət əşyası olaraq çox əfsanələrin, nağıl və rəvayətlərin mayasında hallanmaqdadır. Bir əfsanədə deyilir ki, Uralda İvan Trofimoviç Vorobyov adlı çox varlı mülkədar yaşayırmış. Onun dədə babadan qalma böyük torpaq sahələri varmış, qonşuluğunda isə D.Bua adlı bir fransız yaşayırmış. Hər iki mülkədar ov etməyi çox xoşlayırmış. D.Bua tez-tez Varabyovun sahələrinə soxular, icazəsiz onun qoruqlarında quş ovlayırmış. Varabyov bundan hiddətlənər, xəbərdarlıq edər, ancaq fransız əhəmiyyət verməzmiş. Odur ki, Vorobyov bir dəfə qəflətən fransız öz qoruğunda görüb bərk əsəbləşir və arxadan onu ov tüfəngi ilə vurur. Bundan xəbər tutub onu xəstəxanaya çatdırırlar. Kürəyinin yumşaq yerindən vurulan güllənin qırmaları həkim-lərin diqqətini çox cəlb edir. Bir tərəfdən zədənin tez sayalanması digər tərəfdən isə qırmanın parıltısı nəzərdən qaçmır. Dəqiq araşdırmalardan sonra məlum olur ki, qırmalar platindən hazırlanıb və mülkədarın öz torpaq sahələrində keçi

dərisi adlanan yerdə çətin əriyən filiz külcələri tapıb və neçə illərdi ki, qırma baha olduğu üçün ondan istifadə edir.

Guya mülkədarla həkimin söhbətindən sonra keçi dərisi adlanan həmin ərazi fransız və ingilis zədaganları tərəfindən böyük məbləğə mülkədardan alınıb və bir şirkət olaraq, baxmayaraq ki, tam yarı şəriklik olsa da fransız-ingilis şirkəti adlandırılıb ki, platin fransızın orqanından tapılıb.

## GÜMÜŞ

Gümüş − də zərgərlik aləmində özünə xüsusi yer tutan nəcib metaldır. «Gümüş təbiətdə sərbəst şəkildə kükürdlü və mərgümüşlü birləşmələr halında təsadüf olunan, qızıl yataqlarında həmişə müəyyən miqdarda gümüş, gümüş külcələrində isə daima qızıl müşahidə edilir. Bu iki metalın elektrum adlı müştərək bir mineralı var.

Gümüşün mifoloji anlamına gəldikdə isə onun istər təbabətdəki rolu, istərsə də sehrli aləmi haqqında söylənilən fikirlərin sayı-hesabı yoxdur.

1. Gümüş də qızıl kimi sahibini şər qüvvələrdən qoruyur.
2. Gümüş sahibinə müdriklik verir, qorxunu götürür.
3. Gümüş üzük taxanın ovqatı xoş olar.
4. Gümüş sırğa taxan hamilə qadına bədxah qüvvələr yaxınlaşa bilməz.
5. Gümüşün açıq yaraları sağaltmağı şübhəsizdir.
6. Gümüş zəhərlənmənin qarşısını alan ən güclü vastədir.
7. Xörəyi təmiz gümüş qabda yeməklə insanın bir sıra xəstəliklərdən qorunmasına çox inanılır.
8. Deyirlər ki, nahar zamanı gümüş qaşıqlardan istifadə etmək insanın qanını şəffaflaşdırır.
9. Gümüş dolça suları müzür bakteriyalardan təmizləyir.
10. Gümüşdən mədə-bağırsaq xəstəliyinin də müalicəsində istifadə olunur.

11. Gümüş təzyiqə də çox kömək edir, beləki, gümüş bilərzik taxanın təzyiqi normallaşır.

12. Qədimdə belə düşünərdilər, üstündə gümüş saplı kəsici əşya gəzdirənin sözü keçərli olar.

13. Qapı ağzına gümüş nal mismar vurarlar ki, bütün bəd nəzəri, mənfi enerjiləri götürsün.

14. Yaxasına gümüş sancaq bağlayanın qarşısında hər kəsin dili bağlanar.

Gümüşün rəngi o zaman ağ olur ki, onda heç bir qarışıq olmur.

İnsanların gümüşə olan meylini onun gözəlliyi ilə bərabər bu mineralın müalicəvi xüsusiyyətləri yaradıb. Başqa metallardan fərqli olaraq gümüşün suda həll olunmuş ən cüzi miqdarı sudakı mikroorqanizmləri tələf etmə qabliyyətinə malikdir.

Gümüş kimyəvi elementlərin dövri sistem cədvəlində birinci qrupda yerləşir və beşinci dövrün ikinci yarım dövrünün başında durur. Gümüşün atom nömrəsi qırx yeddidir.

Eramızdan 2500 il əvvəl Misirdə gümüş qızıldan baha idi. Müalicə əhəmiyyəti gümüşün qiymətini qat-qat artırırdı. Müharibədə alınmış qılınc, nizə, xəncər yaralarını sağaltmaq üçün onların üzərinə gümüş lövhələr qoyulurdu. Belə hesab edilirdi ki, bu əməliyyat yaranı mikrobların sirayətindən qoruyur və qanqrenanın qarşısını alır.

Müasir təbabətdə də gümüşün bir çox yoluxucu xəstəliklərdən qoruma, çətin yaraların sağalmasına kömək, gümüş pambıqların dəri xəstəliklərini dəf etmə xüsusiyyətləri çox inanılır.

Tarixdə belə bir rəvayət çox tez-tez söylənilir. Guya Makedoniyalı Filippin oğlu məşhur İsgəndər eramızdan əvvəl dördüncü əsrdə Əhəmənilər sülaləsinin İran şahlığını fəth edəndən sonra öz qalib yürüşünü Hindistana yönəldir. O zaman İsgəndərin qoşunu arasında qəflətən surətlə yayılan mədə-bağırsaq xəstəlikləri yürüşü saxlayır. Ancaq İsgəndərin tarixini əks etdirən yazılarda belə bir təfsilat əks olunur ki, İsgəndər

özü və onun zabitləri qoşunla eyni yürüş şəraitində yaşamalarına və ümumi yeməklərlə qidalanmalarına baxmayaraq, müəmmalı xəstəlik yalnız sıravi qoşunu yaxalamışdır.

Lakin tarixin sonrakı dövrlərində bu bəlanın səbəbi aşkar olmuşdur. İsgəndər və onun zabitləri xörəklərilə gümüş qaşıqlarda, sıravi qoşun əhli isə mis, çuqun, qalay qablarda qidalandıqlarından hadisə bu cür baş vermişdir.

Gümüş qüvvətli bakterisid olduğuna görə İsgəndər və onun zabitləri xəstəliyə düçar olmamışlar. Başqa metallar isə hərarətə həssas olduqlarından xəstəliyin yaranmasına səbəb olmuşdur.

Hətta bu metallarla bağlı geoloqların başına gələn bir rəvayətə də nəzər salsaq onda bir çox zinət əşyalarının mifoloji təfəkkürdəki inanc mənbəyinin izinə düşmüş olarıq.

50-ci illərdə Rusiyanın ucqar şimal-şərqindəki Maqadan vilayətində fəaliyyət göstərən geoloji kəşfiyyat ekspedisiyasının iştirakçıları çöl şəraitində axşama yaxın iş yerlərinə çatırlar. Çadırlarını qurub soyuq yeməklərlə şam edib yatırlar. Ertəsi günü səhər tezdən çay qoyub içirlər, sonra günorta yeməyi hazırlamaq üçün heybəni açırlar, burada qab-qacaq əvəzinə bir ovuc kül görürlər. Çox təəcüblənirlər. Geoloqlardan biri çox təmkinlə heyrətlənmiş dostlarına izah edir ki, qablar yəqin ki, çox qalaydan imiş, bu metal 15 dərəcə temperaturdan aşağı şaxtada dağılıb toza dönür. Hətta göstərir ki, mütəxəssislər qalayı «vəbalı» metal adlandırırlar, çünki o güclü şaxtada xəstələnir, yoxa çıxır. Geoloqlar düşünürlər ki, onların qab-qacaq olmuşdur.

Deyilənlərə görə Bakı bağlarında su hövzələrinin başına gümüş qaşıq qırığı bənd etmələri heç də nəticəsiz qalmır. Gümüş elementinə olan inancları gücləndirir.

Daşın və daş ruhlarının dini ayin xarakteri daşımasının qalıqları hətta bu yaxınlara qədər Azərbaycan xalqının məişətində saxlanılmışdır. Bəzi rayonlarda quraqlıq vaxtı daşın üstünə su tökmə, dalağı xəstə adamların sağalması üçün

qarınlarını xüsusi «Dabaq daşlarına» sürtmə, (Quba rayonunun Çırt cici kəndi) müqəddəs hesab olunan daşları öpmə və s.

Dağlıq Qarabağda «Göbək daşı» deyilən daş var. Qarın ağrısına tutulanlar, qarın boşluğunda xəstəliyi olanlar qarınlarını bu daşa sürtür və tezliklə də sağalardılar. Göbək daşı Zəngəzur və Şamaxı qəzalarında da mövcuddur.

Dağların daşı mənəm
Qarınlara dərmənəm.
Göbəyini sürtənlərə
Sağlamlığı verənəm.

Qarabağ elindən toplanan bu bayatı daləlin, yaqutun insanı bədnəzərdən qoruduğu çox şəffaf tərənnüm olunur. Hətta qaşları qəbrin ətrafına yığmaqla ruhun tilsimdən alınması inamı da çox geniş yayılan inanclardandır.

Ox-oxa dəyər keçər,
Sinəmi əyər keçər
Yaqutu, ləli gətir
Bədnəzər məni seçər.

Üzüyüm bada qaldı
Taxmadım yada qaldı
Qaşların yığ qəbrimə
Ruhumu tilsim aldı.

Göbək daşı, el daşı
Sel suların bil daşı
Sehrini əsirgəmə
Bu ağrını gəl daşı.

## KOBALT

Kobalt da qiymətli metallar cərgəsində özünəməxsus yeri olan bir elementdir.

Kobalt elementi bir bəzək əşyası kimi daha çox farfor qabların üzərinə çəkilir. Xalq bu elementin pozitiv xüsusiyyətlərinə çox inanıb. Şərq aristokratiyasında kobalt əşyaların istehsalı daha geniş vüsət almışdır ki, bu da, təbii ki, xalqın müşahidələri ilə əlaqədardır. Xalq inanmışdır ki, kobaltdan istehsal olunmuş qablarda xörək yemək onlara pozitiv enerji verər, xoşbəxtlik gətirər və bir çox hallarda onları xəstəliklərdən xilas edər, qoruyar. Kobaltın əsaəsn tünd göy və gümüşü-çəhrayıya çalan növləri daha məşhurdur. Hətta qədim sənət əsərlərinin – Rafaelin “Madonna”sı və s.-nin çini farforların üzərinə çəkilmiş kobaltın arasında verilməsi bir ənənə olaraq uzun illər boyu təkrarlanmışdır və qiymətli əşya kimi həmişə diqqət mərkəzində olmuşdur. Bunun da əsas səbəbi bu elementin aşağıdakı tərkibə və xüsusiyyətlərə malik olmasıdır:

Kobalt (Co) elementi B12 vitamininin tərkibinə daxildir. Dalaqda 3,5 mq%, qaraciyərdə 2,5 mq%, əzələ toxumasında 2,5 mq%, qanın tərkibində 60 mq% kobalt vardır. Diabet, qanazlığı, qanın rakı və immunitet səviyyəsinin azalmasında tərkibində (B12 vitamini) kobalt və manqan olan məhsullar yemək məsləhətdir. Kobalt və manqan saçın çox erkən tökülməsinin qarşısını alır və onun vəziyyətini yaxşılaşdırır.

Kobalt qanın əmələ gəlməsi prosesini stimullaşdırır, nuklein turşularının sintezini artırır. Ona görə də təbabətdə hər gün kobaltla zəngin olan məhsullar yemək məsləhət olunur. Həftədə ən azı bir dəfə qaraciyər və böyrək, hər gün turşudulmuş süd məhsulları (süd, kefir, asidofilin, yoqurt), 17-20 qram kərə yağı, soya yağı, yumurta (sarısı çiy, ağı bişmiş), cücərmiş buğda və buğda kəpəyi, qarabaşaq və qarğıdalı yarması yeyilməlidir. Bu məhsullar əsasən termiki emaldan keçirildikdən sonra yeyilir. Çalışmaq lazımdır ki, qida rasionunda təzə "canlı" meyvə-tərəvəz 3 dəfə onlardan çox olsun.

Kobalt (Co) – D.İ. Mendeleyevin elementlərin dövri sistemində 27-ci element.

# ZİNƏT ƏŞYALARININ MİFİK ALƏMDƏ UĞURLU ENERJİ MƏNBƏYİ KİMİ QƏTİLƏŞMƏSİNİN ƏSAS SƏBƏBLƏRİ

Bu məlum həqiqətdir ki, zinət əşyaları dekorativ tətbiqi incəsənətin bir növü sayılan zərgərlik işləridir. Və çoxları elə zənn edirlər ki, yəni ilk baxışda onlara elə gəlir ki, bütün bu məmulatlar yalnız zövq oxşamaq, yaraşıq vermək, bəzənmək məzmununu ifadə edir. Hətta sənətkarların da məqsədi insanların zövqünü oxşamaq olsa da, özləri də bilmədən insanların həyatına xoş ovqat gətirir, onları mənfi enerjilərdən xilas edib müsbət enerji verib, bir çox qətiləşmiş inanclarla ilgiləndirirlər.

Səkkiz-on min illər bundan öncə daşüstü yazılarda, son iki beş min ildə isə bir çox başqa yazı formalarında, xüsusən, mixi xətti və heroqliflərdə qiymətli daşlar və metallar haqqında xeyli yazılı məlumatlar əldə edilmişdir.

Şərq aləmində dövrün görkəmli alimləri də bu sehrli elementlərə qarşı laqeyd qalmamışdır. 970-1006-cı illərdə Əbu Yusif əl Rindinin zərgərlik daşlarının xüsusiyyətləri haqqındakı «Minerologiya» kitabı, Orta Asiyada Əbu Əli İbn Sinanın tibb elmi qanunları, Özbəkistanın Xarəzm vilayətində yaşamış Əbu Reyhan əl Biruninin cəvahirlərin öyrənilməsi üçün məlumat kitabı (Kitabı əl-Cəvahir fi mərifat əl-cavahir), Məhəmməd ibn Həsənin, yəni Nəsrəddin Tusi adı ilə şöhrət tapmış ensiklopedik bir alimin "Cavahirnamə" əsəri bu sahədə araşdırılan ən dəyərli məxəzlərdəndir.

Əbu Əli İbn Sina XI əsrdə tibbə aid qanun kitabında bu daş-naşların təbabətdəki rolundan yazmış, Əbu Rehan əl Biruni isə qiymətli, yarımqiymətli daşları, eləcə də metalları bir çox cəhətlərinə görə təsvir etmişdir. Nəsrəddin Tusi daha geniş olaraq Cavahirnamə əsərində qiymətli və yarımqiymətli daşların həm təbabətdəki rolunu, həm də müəyyən xüsusiyyətlərini açıqlamışdır. Bu məsələ elementlərin

qiymətləndirilməsinin əsas səbəbi və mifik anlamdakı mahiyyəti ilə bağlıdır.

Elmi qəbul edib ki, yer qabığı müxtəlif elementlərlə zəngindir. Geoloji təsnifatda bu elementlər, əsasən, dörd qrupda cəmlənir.

Birinci, Atmosferin elementləridir ki, bunlara Atmofil elementləri deyilir. Buraya oksigen, azot, intern qazlar yəni karbon, helium, peon, orqon, krifton, ksenon və s. daxildir.

İkinci, Litosferin yəni yer qabığının öz elementləridir, buna silsinin, aliminium, natrium, kalium və nadir torpaq elementlərinin çoxu aiddir.

Üçüncü, Xalkofil elementləridir və bunlar mislə qohum elementlərdir ki, qızıl, gümüş, miss, sink, civə, qurğuşun, mərgümüş sürmə və bismut da bu qrupa daxildir.

Dördüncü Siderofit elementləridir ki, bu tərkibdə dəmir, tanqan, kobalt, nikel, xrom, polatin, titan, vadium və s. iştirak edir.

Bütün bu elementlərin təbabətdə və həyatdakı xüsusiyyətlərini dərindən araşdırıb qəbul etsək ki, insan adlanan bir canlı da sözün geniş mənasında bu materiyanın bir hissəsidir və həmin maddələr də o hissələrə aiddir, onda biz əsl həqiqətin izinə düşmüş oluruq. Sehrli zinət daşlarının sadəcə bir xüsusiyyətini aramağa təşəbbüs edək. Fransız fiziki Frenelin asılılıq nəzəriyyəsinə diqqətlə yanaşsaq daşların ikiqat şüalandırma göstəricisinə malik olduğunu müşahidə edə bilərik.

Daşlar rənginə görə çox müxtəlifdir və bunun səbəbi aşağıda izah olunacaq. Ancaq ikiqat şüalandırma qabiliyyəti bütün daşlar bir-birinə perendikluyar olan, eyni vaxtda görünən qarışmış zəng çalarlarından ibarətdir.

Daşın üzərinə düşən şua ondan əks olunarkən iki hissəyə parçalanır, müxtəlif tezliklə yayılır və müxtəlif udulma qabiliyyətinə malik olur. Əslində bu hadisə rənglilik effekti adlanır. Ancaq düşünsək ki, bu şüa əks olunan zaman ondakı rəng effektinin insan həyatına təsiri olurmu və bu necə baş

verir, o zaman, bu daşların rəng çalarlarının səbəbini araşdırmaq məcburiyyətində qalacayıq.

Qiymətli və yarımqiymətli daşların gözəlliyi və insan həyatındakı sonsuz rolu bir çox başqa səbəblərlə yanaşı onların rəngi ilə daha çox əlaqədardır. O zaman biz zinət daşlarının mifik anlamdakı pozitiv xüsusiyyətlərinin səbəbini süasındırma və şuaəksetdirmə qabiliyyətlərində axtararıq.

Əgər firuzə, əsasən, mavi rəngi, yaqut çox cəzbedici qırmızı, sapfir açıq və tünd göy rəngləri, zümrüd parlaq yaşıl rəngi, insanı valeh edən Aleksandrit müxtəlif çalarlı rəngləri əks etdirirsə, o zaman, yalnız onların tərkibindəki, piqmentləri araşdırmaq lazımdır.

Daşlara rəng verən, demək olar ki, piqmentlərdir və bu, əslində, yeddi metaldan – xrom, manqan, dəmir, kobalt, vanadium, nikel və misdən ibarətdir.

Mineralın tərkibində xrom atomlarının iştirak etməsi onun ən gözəl qırmızı, yaşıl rəngə boyanmasına səbəb olur. Odur ki, qırmızı rəngli yaqut və spinel, yaşıl rəngli zümrüd, jadeit və dimontoid xrom rəngləyicisi elementi ilə izah olunur. Belə ki, hətta bu hadisə gün işığında yaşıl, lampa işığında qırmızı görünməklə, yəni belə müxtəlif şüa əks etdirməklə nəticələnir.

Dəmir elementi minerala qırmızı, yaşıl, sarı, bənövşəyi rəngvermə qabiliyyətinə malikdirsə, manqan çəhrayı və ya narıncı, kobolt göy və ya çəhrayı, miss element isə göy mavi və yaşılla göyün qarışıq elementini verir. Vanadium solğun qırmızı, yaşıl, sarı və bənövşəyi rəng verən elementdir. Vanadium xromla birləşəndə isə, yəni mineralın tərkibində birgə iştirak edərsə həmin minerala zümrüdün ən parlaq yaşıl rəngini verər ki, bu əsl zümrüd hesab olunur.

Xalqın mifik təfəkküründə özünə yer edən daşların insana müsbət enerji vermək anlamının kökünü əslində bu minerallarla bağlı axtarmağı birmənalı qarşılamaq olmaz.

Əgər qəbul ediriksə ki, insan da materiyanın bir parçasıdır və materiyanın digər parçaları ümumilikdə sular,

səma, göy cisimləri, planetlər, torpaq, dağ, daş, qaya və o cümlədən minerallardır, onda qiymətli zinət əşyaları hesab etdiyimiz bu daş-qaşların, qızıl, gümüşlərin insan həyatı üçün vacibliyinin əsl mahiyyətini anlamış olarıq. Deməli, bu daş-qaşlar bir cism olaraq cismimizin, maddə olaraq maddiliyimizin bütövlüyüdür.

Təəssüflə qeyd edim ki, laboratoriyalarda və zavod şəraitlərində alınan zərgərlik daşları əlamətlərinə, fiziki xassələrinə görə yaxın olsa da təbii olan daşlardan bir çox əlamətlərinə görə fərqlənməsələr də mifik anlamla bağlı bir çox xüsusiyyətlərinə görə söz yox ki, fərqlənməlidirlər. Təbiətdə kristallar qaynar su məhlullarının və ya ərimiş maqmanın təzyiqi altında tədricən yetişir, müəyyən şəraitdə qarşılıqlı əlaqəyə girib bir sıra müxtəlif minerallar əmələ gətirib, çoxlu kimyəvi birləşmələrdən yaranır.

Sintetik daşlar isə təmiz şəraitdə kimyəvi yolla yaranır. Burada qıraq kristallik əlavələr yalnız əsas kristalla tərkibi eyni birləşmələr ola bilər.

# SON SÖZ

## «ZAMANIN DİKTƏSİ»

(bir araşdırma ilə bağlı düşüncələr)

İlk baxışdan bir qədər paradoksal görünsə də, folklorşünas-alim F.Vəliyevanın zinət əşyaları ilə bağlı mifoloji kontekstdə apardığı araşdırmanı oxuyarkən bir anlığa ölməz şairimiz S.Vurğunun aşağıdakı misralarını xatırladım:

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya.

Burada «…mən niyə dünyanın, həyatın sirlərini bilmirəm» deyə insan övladının, bir növ, şikayəti, özünə qarşı qınaq hissi, bədbinlik özünə yer almışdır. Ancaq mən Fəridə xanımın bu araşdırmasını oxuduqda, onun oxucuya təlqin etdiyi pozitiv hisslərin təsiri altında çox nikbin bir nəticəyə gəldim: «Dünya, həyat, kainat sirrini verir, lakin hər adama yox… məhz sirdaşa!»

Həqiqət bir dənədir. Başqa sözlə, bu məfhum, yəni həqiqət istər ingilislərdə, fransızlarda, ruslarda, istərsə də farslarda, türklərdə, yaponlarda və s. eyni mənanı ifadə edir. Xalq əbəs yerə deməyib: «Həqiqətin bir üzü var». Bu araşdırmada da müəllif bir qiymətli daş – almaz (yaxud zümrüd, füruzə, ləl və s.) haqqında danışsa da, əslində kainatın, yaradılışın, həyatın sirlərini öyrənmək və əldə etdiyi bilgiləri oxucu ilə bölüşmək istəmiş, başqa sözlə, özünəməxsus bir yolla həqiqətə doğru səmimi, loyal, lakin eyni zamanda, sərrast addımlar atmışdır. Belə ki, burada sadə bir daşdan başlayan axtarış bir qədər sonra çox incə şəkildə insan mənəviyyatının dərinliklərinə nüfuz edir və oxucuya, xüsusilə gənc nəslə, yeniyetmələrə yüksək mənəvi keyfiyyətlər aşılayır. Siz araşdırmada istifadə olunan şeir (folklor) nümunələrinə baxın:

Almaz qaşam, kəsirəm,

Yad əllərdə əsirəm.
Doğmalarım gəlməzsə,
Uğurumu kəsirəm.

Mənə belə gəlir ki, müəllif məqsədyönlü şəkildə əvvəlcə əksəriyyəti təşkil edən (çox təəssüf ki…) dünyagir, maddiyyata aludə olan insanları qiymətli almaz daşı ilə cəlb edir, sonra isə çox incə şəkildə mənəviyyat məsələlərinə keçir. Bəli, almaz qiymətlidir, gözəldir, lakin bütün digər varlıqlar kimi, o da «yer üzünün əşrəfi», yaradılışın məqsədi olan insan üçündür.

Yaxud başqa bir folklor nümunəsi:

Almaz qaşam, inciyəm,
Doğmamın sevinciyəm,
Yadların yaxasında
Küskünəm, çox inciyəm.

Burada cansız daş dinləndirilir: bir daşın dili ilə insanlara doğmalıq-yadlıq, vəfa və vəfasızlıq, halal-haram kimi günümüzdə bir qədər arxa plana keçmiş (çox təəssüf ki…) mətləblərdən söbət açılır. Nəhayət, həqiqətə, ədalətə, haqqa can atılır: «…Bu qiymətli daş-qaşlar tarix boyu müharibələrin iştirakçısı olub, şahlardan-şahlara, hökmdarlardan-hökmdarlara ötürülüb, xəzinələrdən-xəzinələrə keçib və aydın məsələdir ki, zorla, haqsızlıqla qazanılan, əldə edilən bir şey heç vaxt heç kəsə xoşbəxtlik bəxş edə bilməz» (F.Vəliyeva – haqqında bəhs etdiyimiz araşdırma). Budur müəllifin məntiqi…

Uzun illərdir elm aləmində, filosoflar, tarixçilər, folklorşünaslar arasında belə bil fikir dolaşır ki, hazırda yaşadığımız sivilizasiya beşinci sivilizasiyadır. Yəni indiyə qədər – bizdən əvvəl dörd dəfə kainat, dünya yaranıb, sona yetib və yenisi yaranıb. Biz beşinci sivilizasiyada, konkret olaraq, XXI əsrin ikinci onilliyində – 2012-ci ildə yaşayırıq. Düşünürəm, yaşadığımız sivilizasiyanın hazırda hansı inkişaf mərhələsində olduğunu müəyyənləşdirməyə çalışmaq, dövrün qanun və qanunauyğunluqları üzrə hərəkət etmək lazımdır. Birmənalı şəkildə demək olar ki, indi Koroğluluq zamanı deyil; indi mənəviyyatların mübarizəsi gedir. Kim, hansı xalq mənən

güclüdürsə, üstündürsə, o da udacaq.

Bu araşdırma da məhz ciddi, gözəl və dərin mənəvi fikirlər təlqin edən bir məqalə kimi olduqca qiymətlidir.

Bu günlərdə «Azər-ilmə» ASC-nin buraxdığı, xalçaçılığa aid bir dərgidə oxudum ki, Azərbaycana məxsus, orta əsrlərə aid olduqca qiymətli bir xalça (Xalça Təbrizdə toxunub) bölünərək, hazırda bir hissəsi Fransada Paris muzeyində, digər hissəsi isə Polşada Krakov muzeyində nümayiş etdirilir. Etiraf edim ki, heyrət məni bürüdü: XXI əsr insanın əli necə gəlib ki, bu qiymətli sənət nümunəsini parçalayıb hissələrə ayırsın? Ola bilsin ki, əvvəllər  kimsə səhv edərək bu əməli törədib (çünki bu cür qiymətli sənət abidəsini parçalamağa istisnasız olaraq heç kimin ixtiyarı yoxdur). Ancaq indi, XXI əsr insanın – sivil insanın bu səhvi düzəltmək vaxtı deyilmi?.. Mən demirəm ki, xalçanı buraxın, xalça özü hara istəyir, getsin; mən deyirəm ki, ya Polşa Fransaya, ya da Fransa Polşaya güzəştə getsin; Azərbaycan xalqının yaratdığı bu ziqiymət sənət nümunəsi bütöv olsun, tam olsun; sənətsevərlər ona baxıb zövq alsınlar; onu yaradanlara «Əhsən!» desinlər.

Elə qarşımdakı elmi araşdırmada – Fəridə xanımın qiymətli daşlarla bağlı yazısında da bu qayə əsas götürülüb: almazın yalnız doğmaya – öz yiyəsinə uğur gətirmək xüsusiyyəti var. Bu daş yad adamın əlinə keçdikdə ona zərər yetirir. Nə gözəl bir prinsip!... – Əgər insanlar bunu dərk edə bilsələr, yəni halalla-haramı  fərqləndirməyi bacarsalar, nə gözəl olardı!!! O zaman həm özləri, həm də bütün digər insanlar üçün yaxşı olardı… O zaman yəqin ki, haqqın, ədalətin, başqa sözlə, bayaq haqqında danışdığımız həqiqətin qapıları insanların üzünə açılardı; hamı,  hər kəs xoşbəxt, firavan, qorxusuz-ürküsüz yaşayardı. Düşünürəm ki, elə yaşadığımız sivilizasiyanın hazırkı (indiki) mərhələsi də bizə məhz bunu diktə edir.

Tədqiqatçı-folklorşünas Fəridə xanım Vəliyevanın haqqında bəhs  etdiyimiz araşdırması cansız (əslində bizim cansız hesab etdiyimiz) aləmlə canlı aləmi vəhdətdə, daima bir-

biri ilə özünə məxsus qarşılıqlı təsirdə, bir tam olaraq götürməsi əsərin müvəffəqiyyətini təmin etmiş, eyni zamanda, mövzunun nə dərəcədə aktual, vacib olduğunu ortaya qoymuş və bu sahədə geniş perspektiv açmışdır.

**Filoloq Elsevər Murad**
**29.IV.2012**

## MƏNBƏLƏR


1. *Ağayeva Tünzalə Şəmil qızı. 1948-ci ildə anadan olub. Ağdamın Salahlı kəndində köçkün düşmüşdür. Bərdənin Alaçadırlı kəndində məskunlaşmışdır. 100 saylı orta məktəb direktorudur.*
2. *Axundova Elmira Həsən qızı Ağdam köçkünü, Bakı şəhəri, Binəqədi rayonu, Naxçıvani küçəsində məskunlaşıb. 73 yaşlı, müəllimə*
3. *Axundova Rahimə Həsən qızı. 1936-cı təvəllüdlü Goranboy rayonu, Səfi Kürd kənd sakini*
4. *Azərbaycan nağılları I c., Tərtib edənlər: Ə.Axundov, M.Təhmasib, N.Seyidov. Bakı: «Çıraq», 2004, Az. Milli Elmlər Akademiyası Folklor İnstitutu.*
5. *Azərbaycan nağılları 3 c., Daneşe Hamidun. «Daş üzük» nağılı. 2007.*
6. *Azərbaycan xalq dastanları. Tərtib edəni: Ə.Axundov. Bakı, Yazıçı, 1981, s.176*
7. *Bəktaşi S. Mehdiyeva S. Təbiət müalicə edir, Bakı, 1974.*
8. *Cəfərova Ceyran Ənvər qızı 1966 təvəllüdlü, Şuşa köçkünü Əzizbəyov rayonu Mərdəkan qəsəbəsində Hacı Aslan küçəsində məskunlaşıb.*
9. *Ə.Firdovsi. Şahnamə, Bakı, Yazıçı, 1987*
10. *Əhmədova Leyla Şikar qızı, 1934-cü ildə anadan olmuşdur. Ağdam rayonunun Seyidli kəndindən köçkün düşmüşdür. Bərdənin Həsənqaya ərazisində məskunlaşmışdır.*
11. *F.Hicran. Röya və onun sirləri, Bakı, "Elm" nəşriyyatı, 1991.*
12. *F.Hicran. Röya və onun sirləri, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012.*
13. *F.Hicran. Şifahi xalq ədəbiyyatında Yuxu və yozmaların mifik anlamı. Bakı, 1988*
14. *Fərəh Duba. Xatirələr. Bakı, Adiloğlu nəşriyyatı, 2011.*

15. *Göyüşov N. Xalq Təbabəti. Bakı, Poliqrafiya birliyi nəşriyyatı, 1994*
16. *Həbubullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı. Azərnəşr, 1959.*
17. *Həsənova Gülşən Bəşir qızı. 1935-ci ildə anadan olmuşdur. Ağdamın Xaçınçay qəsəbəsindən köçkün düşmüşdür, hazırda Ağdamın Bənövşələr kəndinə məskunlaşmışdır.*
18. *Kitabi-Dədə Qorqud. "Dirsə xan oğlu Buğac" boyu. Bakı, Yeni nəşrlər evi, 1999.*
19. *Qəhrəmanova Xədicə Əyyub qızı Naxçıvan, Şərur rayonu, Danzik kəndi. 1924 təvəllüdlü.*
20. *Quliyev Həsən Aslan oğlu, Bəxtiyarov Alay Sarı oğlu.Qədim ayinlər, adət və ənənələr. Bakı, Kommunist nəşriyyatı, 1968.*
21. *Mahmudlu Y., Xəlilov O., Ağayev A. Qədim dünya tarixi, Bakı, "Xəzər" nəşriyyatı,*
22. *Muvəhhid Əbtəhi. Daşların sirrləri və xüsusiyyətləi. Bakı, "Kövsər" nəşriyyatı, 2014, səh.30.*
23. *Nəsrəddin Tusi. Cavahirnamə. Bakı. "Müəllif" nəşriyyatı, 2005.*
24. *N.Gəncəvi İsgəndərnamə, Bakı, Yazıçı,*
25. *N.Gəncəvi. Xəmsə. Bakı, "Turan" nəşriyyatı, 2002.*
26. *Paşayev Q. «Altı il Dəclə fərat sahillərində». Bakı, Yazıçı, 1987, səh.137.*
27. *Paşayev Q. İraq, Kərkük bayatıları, Bakı, Yazıçı, 1984, səh. 70*
28. *Paşayev Sədnik Pirsultanlı. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı, Azərnəşr, 2009, s.46-101*
29. *Rəsulova Zümrüd Hilal qızı Binəqədi qəsəbəsi. 75 yaşlı. Ağdamın Sarıhacılı kəndindən köçkük*
30. *Rüstəmova A. Mövlanə Cəlaləddin Rumi. Bakı, "Elm" nəşriyyatı, səh.136*
31. *Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, "Yazıçı" nəşriyyatı, 1983*

32. *Seyidov.M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı , 1989.*
33. *Sədi Şirazi. Bustan. Bakı, Azərbaycan nəşriyyatı, 129*
34. *Vəliməmmədova Tünzalə Vəliməmməd qızı. Ağdam rayonunun Əhmədavar kəndindən köçkün. Ağdamın Mahrızlı kəndində məskunlaşmışdır. 1955-ci ildə anadan olmuşdur.*
35. *Марченков В.И. Ювелирное дело. М., 1992.*
36. *Тойбл К. Ювелирное дело. М.: 1982, стр. 11.*